# LAL BAXIŞLAR

## Şəhid Əli Seyfi Əlibəlağinin həyatı

بسم الله الرحمن الرحيم

**Kitabın adı:........................................Lal baxışlar**
**Qələm alan:........................................Leyla Nəzəri**
**Tərcümə edən:...............................İbrahim Mirzə**
**Çap tarixi:.......................................................2023**
**Çap növbəsi:..............................................Birinci**
**Tiraj:...............................................................1000**

***Əlinin sadə və səmimi atasına, mehriban anasına və qəhrəman bacılarına təqdim olunur!***

***Əlinin sevimli ailəsinə,***

***Ərdəbil Vilayəti Müqəddəs Müdafiə Əsərlərinin Qorunması Baş İdarəsinin hörmətli direktoru, dəyərli qardaşım cənab Əli Vahidə,***

***Həmin idarənin İncəsənət və Ədəbiyyat şöbələrinə rəhbərlik edən dəyərli qardaşlarım Əli Daneş və Hatəm Rəsuliyə,***

***Bu kitabın ərsəyə gəlməsində rolu olmuş bütün dost və əməkdaşlara***

***Təşəkkürümü bildirirəm!***

## Mündəricat

Giriş ....................................................................5
Tərcümeyi-hal ....................................................8
Oğlun olacaq .....................................................9
Şaftalı boyda alov ...........................................20
Qürurum tapdanmaz .......................................29
Əcəb cana yatan oğlandı.................................37
Gözüvə qurban ................................................46
Mən uşaq deyiləm ...........................................58
Zəng gözləyirəm..............................................70
Şəkil çərçivəsi ..................................................81
Sən yalnız dua elə ............................................85
Xəbərsizlik kabusu ..........................................97
Lal baxışların toxunuşu .................................110
Şəhid Əli Seyfi Əlibəlağinin vəsiyyətnaməsi......123
Şəhid Əli Seyfinin Suriyadakı əlyazmaları .........129

# Giriş

Səksəninci illərdənəm. Müharibəni əsla hiss etməsəm də, taleyim elə gətirdi ki, səkkizillik müqəddəs müdafiə qəhrəmanları barədə yazar oldum, yeniyetmə çağlarını vətənin müdafiəsinə həsr etmiş, təxminən qırx ildən sonra o dövrün xatirələrini mənə danışan əsgərlər barədə yazdım. Onlar hər dəfə danışanda gülür, ağlayır və heyifsilənirdilər. Mənə maraqlı gəlirdi, hər dəfə deyirdim ki, bu nəsil kimisi bir də gəlməyəcək.

Yeni nəsil mənimçün dözülməz idi. Ölkəmin taleyi məni qorxudurdu. Öz-özümə deyirdim ki, belə həssas bir şəraitdə doxsanıncılardan nə gözləmək olar?! Düşünürdüm ki, ölkənin taleyini bu nəslə tapşırmaq olmaz. Onlar başlarını qınlarının altına salmışlar, gözlərini mobil telefonlarından çəkmədiklərinə görə onlara "başıaşağı nəsil" deyirlər.

Ürəyimi müqəddəs müdafiə hekayələri ilə sakitləşdirirdim. Lakin o nəslin də artıq alınlarının qırışları, ağarmış saçları və bükülmüş belləri danışırdı.

Ağır günlərin bu qəhrəmanları ilə necə eyni növdən olduğunu düşünmək olardı?! Hərçənd, onlar üçün də bu nəsillə əlaqə qurmaq çətindi.

Günlər ötdü, müqəddəs imamların məqbərələrini müdafiə mövzusu qarşıya çıxdı. 2017-ci ilin yayında bir şəhadət xəbərini eşidib yolumu Ərdəbilin Astara darvazası məhəlləsinə saldım. Şəhid olmuş gənc Əli Seyfi Əlibəlaği idi. Onun şəhid olduğunu öncədən eşitmişdim, amma xatirələrini yazmaq sifarişini alanda dedilər ki, gərək gözləyəsən.

– Nəyi gözləyim? – deyə soruşdum.

– Anasının vəziyyəti yaxşı deyil! – cavab verdilər.

Araşdırandan sonra bildim ki, ailənin tək oğludur, 1991-ci ildə anadan olub. Ailəsi ilə heç bir tanışlığım yox idi. Yalnız sadə və səmimi atasını televizorda görmüşdüm, əziz oğlunun dəfnində.

2017-ci ildə, yayın sonlarında Ərdəbil hava limanında naməlum şəhidləri qarşılayarkən eşitdim ki, Şəhid Əli Seyfinin ailəsi də oradadır. Çox axtarandan sonra onları camaatın içində tapdım.

Ana gənc idi, amma saçı ağarmışdı. Mənimlə tay-tuş olan üç qızı da oradaydı. Ananın göz yaşları adamın ürəyinə od vururdu. Yanar qəlblə onlara yaxınlaşdım, üzlərindən öpdüm, başsağlığı verdim və kitab yazmaq istədiyimi bildirdim. Onlara dedim ki, özlərini yaxşı hiss edənə qədər gözləyəcəyəm. Əllərim ananın çiyinləri üzərində idi, gözlərinin içinə baxırdım. Çox narahat idi. Başını yelləyib yavaşca dedi: "Gəlin... Əlidən yazın... yazın..."

Başımı aşağı saldım. Deməyə sözüm yox idi. Yalnız dinləməli idim. Özündə deyildi, "yazın" deyə-deyə başını yelləyirdi.

Gənc nəslimiz barədə düşüncələrimə görə xəcalət çəkdim, namuslarını qorumaq üçün sinələrini sipər edəcək şəxslərin olmadığını düşündüyümə görə utandım.

Bir nəsildən, milyonlarla insandan halallıq almalı idim. "Yazacağam, Əlinin anası... Sənin üçün, atası üçün, bacıları üçün, bütün doxsanıncılar üçün yazacağam..." – deyə öz-özümə düşündüm.

Əlinin bütün dostları, iş və döyüş yoldaşları gəlib danışdılar, müsahibə verdilər, ağladılar, Əfşardan başqa.[1] Onunla əlaqə saxladım, yanına adam göndərdim, yalvardım, amma gəlmədi.

Əlini Suriyada son anlarında o görmüş, şəhadətinə şahid olmuşdu. Amma gəlmədi və deyəcəyi sözlərin yeri boş qaldı.

Mənsə başına ayrılıq tozu ələnmiş bir ananın, riyasız şəkildə, səmimiyyətlə mənimlə danışan atanın önündə oturdum. Əlinin bacıları Süməyyə, Süheyla və Solmaz da ağlaya-ağlaya sözlərini söylədilər. Buna görə çalışdım ki, kitabın sonlarını daha çox onların dilindən yazım. Çünki onlardan başqa heç kim elə dərdli vəziyyətdə deyildi.

Onlar danışdılar, mən Əlini, doxsanıncılar nəslindən bir nəfərin qeyrətini və cəsarətini əyani şəkildə görüb yazdım.

"Lal baxışlar" kitabı Şəhid Əli Seyfinin ailəsi, dostları və iş yoldaşları ilə Ərdəbil Vilayəti Müqəddəs Müdafiə Əsərlərinin Qorunması Baş İdarəsində otuz saatlıq müsahibənin və bu idarənin maddi-mənəvi dəstəklərinin məhsuludur.

Leyla Nəzəri
Bahar 2019

[1] Əlinin dostlarından və döyüş yoldaşlarından biridir.

# Tərcümeyi-hal

Əli Seyfi Əlibəlaği 31.10.91 tarixində Ərdəbildə dünyaya göz açıb. O, üç bacıdan sonra ailənin son övladı və yeganə oğlu idi. Hərbi xidmətini başa vurandan sonra 2015-ci ilin yazında korpus sıralarına daxil oldu. Əhli-beyt hərəmini otuz beş gün müdafiə edəndən sonra 06.05.17 tarixində Həma bölgəsində təkfirçi İŞİD quldurları tərəfindən şəhid edildi və pak cəsədi döyüş yerində qaldı. O, iyirmi beş gündən sonra ölkəyə gətirilib Ərdəbilin "Fatimə behişti" məzarlığında torpağa tapşırıldı.

# 1

# Oğlun olacaq

Üzünü təkfirçi əsirə tutub dedi:

– Sən məni əsir tutsaydın, nə edərdin?

– Başını kəsərdim.

Briqada komandiri idi. Öz döyüşçülərinə baxdı. Üz-gözündən ağır kədər yağırdı. Dedi: "Həqiqətən, Əli olmasaydı, mən indi yox idim".

İrəli getdilər, Əli ilə döyüş yoldaşlarının iyirmi beş gün qabaq hücuma keçdikləri yerə. Günəşin başlarına ələdiyi od-alov bir aya yaxındı qəlblərini yandıran qəm-qüssə alovunun yanında heç nəydi. Birdən onları saxlayıb dedilər: "Burdan o tərəfə tələ ehtimalı var, irəliləyə bilmərik".

Əlinin dostlarından olan Mustafa öz-özünə dedi: "Kaş onu tapaydıq, ailəsinin gözü yolda qalıb!"

Gözü onlardan bir neçə addım irəlidə gedən İŞİD əsirinə sataşdı. Nifrətlə ona baxdı. İyirmi bir yaşı vardı, amma daha yaşlı görünürdü. Fikirləşdi ki, üzünü nəinki yaşlı, hətta qəddar göstərən onun uzun sıx saqqalıdır. Təkfirçi əsir fars və ərəb dillərini qarışdırıb danışırdı. Onu

təxminən hamı başa düşürdü. O deyirdi: "Biz məzuniyyətə gedəndə dedilər ki, burada iranlılardan üç nəfəri öldürdük".

"Lənətə gəlmişlər!" – Mustafa dodaqaltı söylədi.

"İkisini bu tərəflərə atdıq, birini dəfn etdik" – deyə İŞİD-çi əli ilə bir səmti göstərdi.

Qrupda ərdəbilli döyüşçülərdən yalnız Mustafa vardı. Ürəyi sıxıldı, dərin köks ötürdü. Əli və digər dostları üçün çox darıxırdı. "Görəsən, o iki nəfərdən biri Əli ola bilərmi?" – deyə öz-özünə düşündü.

Gözləri qızardı, yanaqlarına yaş süzüldü. Bir an da özünü Əlinin ailəsinin yerində təsəvvür edə bilmirdi. Ailənin tək oğlu və üç bacının yeganə qardaşı! Görəsən, bundan sonra anası yeganə oğlunun yoxluğuna dözə biləcəkmi? Anaydı, bir dünya arzusu vardı. Bir gün oğlunun toyunu görməyi arzulayan ana uzun müddət idi dostlarından və döyüş yoldaşlarından onu soruşur, onlar da xəcalətdən gizlənməyə yer axtarırdılar. Eşitmişdi ki, anası Əlinin Suriyaya getdiyini bilmirmiş. Ancaq bilirdi ki, bütün analar kimi onun da oğlu üçün çoxlu planları, arzuları olmuşdur.

Ürəyində həzrət Zeynəbə təvəssül edib yavaşca dilləndi: "Hamımız sənin Abbasınıq, ya Zeynəb!"

Həmanın isti havası adamı incidirdi. Təkfirçi əsir tez-tez nəsə deyir, onlar da doğru, yoxsa yalan söylədiyini bilmirdilər. Mustafa düşündü ki, kaş həmin gün Əlinin yanında olaydı. Daim özünü danlayıb deyirdi: "Ya gərək özümlə geri gətirəydim, ya da yanında qalaydım, mənim də başımı bədənimdən ayıraydılar".

Lakin indi, bu vəziyyətdə hətta Əlinin cəsədini görmək də mümkün görünmürdü, özü də iyirmi beş gündən sonra. İnternetdə onun şəhadət xəbəri yayılmışdı, ailəsi dəqiq

xəbər gözləyirdi, cəsədsə yox idi. İŞİD-in şəhidlərin cəsədlərinə qarşı vəhşiliklərini və onları təhvil verməməsini də hamı eşitmişdi. Bütün bunlar hamının ürəyini ağrıdırdı. Onlar Əlini itirdiklərinə inana bilmirdilər. Dostları ondan təbəssümdən başqa bir şey görməmişdilər.

Həmanın nəfəs kəsən istisində Əli bir an da Mustafanın yadından çıxmırdı; addım-addım onunla gedir, o da qeyri-ixtiyari olaraq Əlini görmək üçün başını çevirir, ağlayırdı. O, Əlinin qruplarının axundu olduğu zamanı xatırladı: hansı şübhə ilə rastlaşırdılarsa, deyirdilər ki, gedək Hacı ağa Seyfinin yanına.

Əlinin yanına gedib ondan kömək alırdılar. Xüsusən də inanclarında bir qədər zəiflik hiss edəndə onları bir yerə toplayır, onlarla söhbət edirdi. Onun sözlərinin arxasında dərin etiqadlar yatırdı, buna görə də təsirli olurdu. Bu oğlan sanki yer adamı deyildi.

Mustafa bu xəyallarla sağa-sola baxıb Əlini axtarırdı. Birdən rabitə cihazından komandirin səsini eşitdi: "Əlibəlağinin cəsədi tapıldı!"

Sanki başına soyuq su tökdülər. Bütün bədəni gizildədi. Addımlarını yeyinlətdi. İyirmi beş gündən sonra onun cəsədini görəcəyini gözləmirdi. Elə bilirdi ki, cəsədi aparıblar. İŞİD-in əlinə keçmiş cəsədsə ya qayıtmır, ya da böyük qarşılığı olur.

Bu gözlənilməz xəbəri eşidəndə təkcə Mustafanın yox, bütün döyüşçülərin əhvali-ruhiyyəsi 180 dərəcə dəyişdi və hamı ona doğru qaçmağa başladı. Havanın istisi Mustafanın qaçmasına mane ola bilmirdi. O, ən əziz dostuna və döyüş yoldaşına doğru gedirdi. Uzaqdan bir neçə nəfərin bir yerə toplaşdığını gördü. Komandir dizi üstə oturub ağlayırdı. Mustafanın az qala ürəyi yerindən

çıxacaqdı. Gördüyü səhnədən çiyinləri titrəməyə, gözlərindən yaş axmağa başladı. Ağır mənzərə idi. Cansız cəsədi iyul ayının yandırıcı istisində həftələrlə yerdə qalmış, gözəl üzünü toz-torpaq örtmüşdü. Onu bu halda görmək çox ağır idi. Bir anlığa bütün bədənini süzdü. Sağ böyrünü, azca da başının arxasını güllə yarmışdı. Həmin hissədə qanı qurumuş, paltarı bədəninə yapışmışdı. Cavad Məhəmmədini onun yanında dəfn etmişdilər.

Mustafa göyə baxdı, bədən üzvləri kəsilmədiyinə görə Allaha şükür etdi. Bilmirdi ki, o qədər atəşlə niyə Əli çox da xəsarət almayıb. Paltarları hələ əynində idi. Onlara əlini çəkdi. Cibindəki nabat barmağına toxundu. Piyada yürüş zamanı həmişə üstündə olurdu. Hətta rabitə cihazı da paltarının üstündə qalmışdı. Bir nəfər əlini başqa böyrünə tərəf uzadıb cibindən Quranını, fənərini, saatını və zəruri hallar üçün ipini götürdü. Sanki heç bir əşyasına əl dəyməmişdi. Onun nə üçün qarət olunmadığının səbəbini də heç kim bilmədi. Baxışı əllərində düyünləndi: döyüş şeirləri oxuyanda olduğu kimi, bir barmağını qaldırmışdı.

Bu gününlə qürrələnmə,
Çünki sabahından xəbərdar deyilsən!

Əllərinin hənası uzaqdan görünürdü. Mustafanın gözləri onun üzüyünə sataşdı. Bir zaman onu istəmiş, o isə "yox" deyə cavab vermiş və demişdi: "Hər şeyin bir qiyməti var. Bu üzüksə qiymətindən çox dəyərlidir".

Mustafa ona demişdi: "Əli, sən gedirsən, onu mənə ver; əgər şəhid olsan, evinizə, inşallah, sağ-salamat qayıtsan, özünə verərəm".

Yenə razılaşmamışdı. Mustafa gözlərindən yaş süzülə-süzülə Əlinin barmaqlarını öpdü, üzüyü barmağından çıxarmaq istədi, amma nə qədər çalışdısa, çıxara bilmədi. Barmaqları şişmişdi. Komandir tez kəlbətini üzüyə

keçirəndə isə havaya toz-torpaq qalxdı. Hamı dilləndi: "Dəyməyin, onunla işiniz olmasın!"

Mustafa yenə Əlinin anasını xatırladı, ürəyi od tutub yandı. Cibindən bir dəsmal çıxarıb oğlunun şəhid olduğu yerin torpağından onun üçün götürdü. Əlinin cəsədini bir kisəyə qoyub qərargaha apardılar.

Mustafa dözmədi, kisəni açıb yenə onu görmək istədi. Bu dəfə hamı Əlini görməyə toplaşdı. Əlinin şəxsi əşyaları da oradaydı. Fatimiyyun uşaqlarından onunla xatirəsi olan hər kəs yadigar bir şey götürmək istəyirdi. Biri saatını götürüb öz qoluna taxdı, biri Quranını, biri fənərini götürdü. Mustafa narahat oldu. O, Əlinin əşyalarını anasına aparmalı idi. Dostları Mustafanın həmin əşyalara baxan narahat baxışlarını görüb özlərini yığışdırdılar, dedilər ki, kim nə götürübsə, qaytarsın, ailəsinə aparılacaq. Mustafanın göz yaşları hələ qurumasa, əlləri titrəsə də, Əlinin əşyalarını çəfiyə şalının arasına qoydu, qayıdanda həzrət Zeynəbin zərihinə sürtüb təbərrük etmək üçün yaşıl parçaya bükdü. O, öz-özünə dedi: "Dostum, səni indi tanıdım! Kaş yaşayıb dostum olaydın, səni görəndə Allahı xatırlayaydım!"

***

Obaşdan yeməyini asıb həyətdə ağacın altında oturmuşdum, Əlinin və bütün döyüşçülərin salamatlığı üçün dua edirdim. Bir neçə gün idi ondan xəbərim yox idi. Biri deyirdi Suriyaya gedib, biri deyirdi Tehrandadır. Pis xəbər buydu ki, onu əsir tutublar, ya da yaralanıb. Fikirlər başımdan çıxmırdı. Qohum-qonşuların şübhəli gəlib-getmələri, hətta öz uşaqlarımın pıçıltıları əsəblərimi korlayırdı. Küçəyə toplaşmış qonşular məni görən kimi hərəsi bir tərəfə dağılışırdı. Sanki qəlbimdən bir şey qopub yerə düşürdü, beynimə Əli barədə min cür fikir gəlirdi.

Onunla bağlı heç bir imtahana hazır deyildim. Razı idim ki, ölüm, amma onun başından bir tük əskik olmasın. Bütün sözlərimi Allaha söyləyirdim.

Evə girib gözlərimi hərbi geyimdə çəkdirdiyi və divardan asdığı şəklinə dikirəm. Şəklin ətrafına, üstünə "hərəm müdafiəçisi" yazılmış alın lentini dolayıb.

Sanki dünən idi; hətta özüm bişirdiyim xörəklərdən də acığım gəlirdi. O günlərdən iyirmi altı il ötsə də, hələ də gözlərim önündədir. Hələ dünyaya gəlməmişdi, bir müddət idi ürəyim bulanırdı. Bu hal get-gedə o qədər gücləndi ki, az qala bütün içalatım bayıra töküləcəkdi. Evin qoxusu ürəyimi bulandırırdı. Qapının yanında oturub qonşularla başımı qarışdırırdım ki, evdə az olum. Həkimə gedib analiz verəndən sonra bildim ki, hamiləyəm.

Bu, mənim üçün çox da sevindirici xəbər deyildi. Atasının varisi olacaq bir oğlum olmadığına görə yaxınlarımın qınaq və təzyiqləri güclənsə də, üç qızım olduğuna və onları böyütmək məsuliyyətinə görə buna həvəsli deyildim. Həmişə vəziyyətimlə maraqlanan Zəhra xanım dedi: "Fikrin özündə olsun. İnşallah, xeyirdir. Pis fikirləri başından çıxart!"

Həmişə xiyar yemək istəyirdim. Üç günə 10 kq xiyarı yeyib qurtarırdım. Zəhra xanım çox qayğıma qalırdı. İmanlı qadın idi, xeyir işlərinə söz ola bilməzdi. O deyirdi: "Ürəyin nə istəsə, mənə de, alım".

Bəzən də dua dili ilə əllərini göyə qaldırıb deyirdi: "İnşallah, oğul anası olarsan!"

Bütün bunlara baxmayaraq, özümün, ya da həyat yoldaşımın bətnimdəki körpənin oğlan olması üçün çox həssaslıq göstərdiyi yadıma gəlmir. Baxmayaraq ki, qohum-qonşular tez-tez oğlan olması üçün dua edir, bəzən

qızlarıma deyirdilər: "Əgər ananızın uşağı qız olsa, nə edərsiniz?"

Onlar da belə cavab verirdilər: "Zibilqabıya atarıq!"

Son ayım idi, çoxdan aldığımız torpaqda ev tikirdik. O evə qədər qaynımgildə qalırdıq. Orada hamam yox idi, uşaqları çimizdirmək üçün ümumi hamama aparırdım. Həmin ilin payızında qar yağmış, hava o qədər soyumuşdu ki, soyuq iliyimə işləyirdi. Halım yaxşı deyildi. Hamilə vəziyyətdə çətinliklə üç qızı çimizdirdim, amma halım bir az da pisləşdi.

– Elə bil, dodaqların gülür... oğlun olacaq... – hamamda bir qadın vəziyyətimi görüb dedi.

Çox sevindim. Qızları geyindirib evə döndüm. Yolda qadının sözləri barədə düşünüb öz-özümə dedim: "Qız, ya oğlan – fərqi yoxdur, - sonra üzümü göyə tutub əlavə etdim: - Əsas odur ki, salamat olsun!"

Gecə yaxınlaşdıqca halım pisləşirdi. Yenə Zəhra xanıma xəbər verdim, onunla birlikdə doktor Əfsərinin yanına getdik. Xanım Əfsəri Zəhra xanımın tanışlarından idi. Çox keçmədən doqquz ay bətnimdə gəzdirdiyim yükü yerə qoydum. Oğlan idi; bacılarının körpəliyi kimi xırda və arıq. Zəhra xanım gülə-gülə oradan evlərinə zəng vurub oğlum olduğunu xəbər verdi. Onda məhəlləmizdə yalnız onlarda telefon vardı. O, ağlına gələn və mümkün olan hər bir yerə zəng vurub muştuluqlayırdı. Qohum-qonşular məndən də çox sevinirdilər. Çoxu bu xəbəri digərlərinə çatdırmağa, muştuluq almağa tələsirdi.

Bir-iki saatdan sonra oradan çıxıb evə getdim. Mənə isti, yumşaq yataq sərdilər. Qonşular bir-bir təbrik etməyə gəldilər. Arıq incə oğlum iri gözlərini yumub elə yuxuya getmişdi ki, heç oyanmaq istəmirdi. Sakit idi, hər bir körpə kimi ağlamır, nıqqıldamırdı. Qaşlarını düyünləyib alnını

qırışlandıranda və rəngi qıpqırmızı olanda bilirdim ki, ağlayır. Tez-tez ona baxırdım ki, birdən ağlayar, xəbərim olmaz.

Ad seçəndə hərə bir təklif verdi. Qonşular yığışıb bir qədər ad yazdılar və püşk olaraq torbaya tökdülər. Torbadan Əli adı çıxdı.

Əli arıq idi, mənsə toppuş uşaq sevirdim, istəyirdim ki, oğlum kök olsun. Qonşulardan birinin kök və ətli uşağını görüb səbəbini soruşdum. Dedi ki, quru süd verirəm. Ondan xahiş etdim ki, birlikdə gedək, Əli üçün də həmin quru süddən alım, bəlkə bir qədər cana gəldi. Quru südü həvəslə alıb evə gətirdim, amma nə qədər etdimsə, Əli dilinə vurmadı. O, quru süd şüşəsinin əmziyini ağzında saxlayır, amma sormurdu. Ondan içsin deyə uşağı bir az ac da saxladım, amma xeyri olmadı. Məcbur qalıb quru südü həmin qonşuya verdim. Əli mənim südümdən başqa heç nə yemədi.

Hələ gözlərimi şəkildən çəkməmişəm. Süheyla ilə Solmaz böyük bacıları Süməyyəgilə gediblər, ehsan aşı bişirib məhəllə uşaqlarına paylayacaq, onlardan qardaşlarının aqibətinin xeyirli olması və hərəm müdafiəçilərinin salamatlığı üçün dua etmələrini istəyəcəklər. Dərin köks ötürür, üzümü göyə tutur, əllərimi qaldırıb deyirəm: "Əliyə gələn qada-bala mənə gəlsin, Allah... Canı cannan əvəz elə!"[1]

***

Birbaş kəndə gedib Əlinin dünyaya gəldiyini xəbər verdim. Muştuluğum bir xoruz oldu. Sevindiyimdən yerə-göyə sığmırdım. O qədər sevincək idim ki, kim Əlinin doğulduğunu soruşurdusa və ya gözaydınlığı verirdisə,

---

[1] Anasının söylədiklərindən

ona muştuluq verirdim. Onun üçün planlarım vardı. Həmişə eşidirdim, deyirdilər ki, oğul atasına çəkər. Mən böyük yük maşını sürürdüm, istəyirdim ki, oğlum da belə maşınlar sürsün. Arıq və sevimli körpə idi. İşim-gücüm ona oyuncaq maşınlar alıb gələcəyinə planlar düşünməkdən ibarət olmuşdu. Onun üzündə bütün kişilik əlamətlərini görürdüm, amma evə gələndə görürdüm ki, anası onu bələyib, onunla məşğuldur.

Gəlişi ilə evimizi bərəkətləndirmiş, mühiti dəyişdirmişdi. Evimizdə səmimilik günbəgün artırdı. Hamı onu sevirdi. Ailənin birdənəsi olmuşdu. Hərə bir yolla onu qorumağa çalışırdı. Mənə də təkidlə tapşırırdılar ki, yeganə oğlundan muğayat ol.

Əli günbəgün böyüyürdü. Sifarişlərdən qayıdanda daha da inkişaf etdiyini hiss edirdim. Hər dəfə dəyişiklik olurdu. Hər dəfə də şəhərlərin ən yaxşı sovqatı bacılarından qabaq onun olurdu, xüsusən də fıstıq.

Deyirdilər ki, şirin və sevimli uşaqdır. Hacı Hüseynqulu ilk dəfə Məkkədən gətirdiyi saçqırxan maşınla onun saçını qırxanda daha sevimli oldu. O, israrla deyirdi ki, Əlinin saçını ilk dəfə özüm qırxacaq və səndən xələt alacağam.

Böyük qızım Süməyyə onu belinə bağlayıb Hacı Hüseynqulunun evinə apardı. Hüseynqulu onun saçını dibindən qırxıb yaxşı inkişaf etsin deyə başına bir qədər yumurta sarısı sürtmüşdü. Onu görən hər kəs gülür, özü isə hamının güldüyünü görüb təəccüblənirdi.[1]

***

[1] Atasının söylədiklərindən

Ondan iki yaş böyük idim. Evimizdə balaca bir otaq vardı, böyük çilçırağın kölgəsi divara düşəndə Əli qorxub deyirdi: "xoxan!"

Biz namaza başlayan kimi peyda olurdu. Bəzən səcdəyə gedəndə belimizə minir, ya da möhrü götürüb qaçırdı. Atam onun qarşısını almağa çalışırdı, amma nə onun danlanmasına ürəyimiz gəlirdi, nə də o, başa düşüb dəcəlliyindən əl çəkirdi. Möhrü cibində gizlədirdi, məcbur qalıb namazı uzadırdıq ki, rəhmə gəlib versin. Bütün bunlara baxmayaraq, qapını bağlayıb namazımızı qılırdıq ki, rahat şəkildə dəcəllik edə bilsin.

Bir qədər böyüyəndən sonra özü də başına çadra atıb yanımızda dayanırdı. Bizi gözləmirdi, hamıdan qabaq səcdəyə gedib salam deyir, namazını bitirirdi. Əslində, namaz qılmırdı, onu yamsılayırdı. Qünutda belə deyirdi: "Zizi quli asi-pasi uzun qısa..."

Bir dəfə dedi ki, yellənmək istəyirəm. Ona dedim ki, iki əli ilə paltar ipindən möhkəm tutub sallansın, mən də yelləyim. Bir-iki dəfə yelləyəndən sonra əlini ipdən buraxdı, yerə yıxıldı və başı həyətin beton yerinə dəydi. Sanki dünya başıma uçdu. Alnı şişdi, amma qanamadı, bir az göyərdi. Qorxudan özümü itirdim. Bilirdim ki, anam bilsə, qiyamət qopar. Əlimdən gələn bu idi ki, oturub yalvarım, ona kartof çipsi və qarğıdalı çubuğu söz verim, o da anama bir söz deməsin. Mən ikinci sinifdə oxuyurdum, o isə hələ məktəbə getmirdi. Mən tez-tez ona belə sözlər verirdim, o da mat-məəttəl üzümə baxır, heç nə demirdi. Axırda qapı döyüldü. Anamın gəldiyini bilən kimi ildırım sürəti ilə qapıya doğru qaçdı, salamsız-kəlamsız barmağını alnının göyərmiş hissəsinə qoyub dedi: "Ana, gör burama nə olub?"

Əlinin alnını görən kimi anamın gözləri bərəldi. Hələ bir söz soruşmamış Əli bülbül kimi ötməyə başladı: "Solmaz məni ipdən asıb yellədi, mən də yıxıldım!"

Əhvalatı əvvəldən axıra qədər öz xeyrinə danışdı. Heç demədi ki, özüm yellənmək istəyirdim, ona görə məni yellədi.

Sonralar namaz qılmağı tam öyrənəndən sonra daha bizimlə işi olmur, qünutda "Zizi quli" zikrini təkrarlamırdı. Dəcəllikləri də çox azalmışdı. Küçədə çox gəzməsin, digərləri ilə çox oynamasın deyə evdə bütün vaxtımızı onunla keçirirdik.[1]

---

[1] Bacısı Süheylanın söylədiklərindən

# 2

# Şaftalı boyda alov

Əlini ilk dəfə məktəbə aparanda bütün sinif yoldaşları ağlayırdılar, o isə kişi kimi gedib oturdu, gözlərində sevinc dolu işıq vardı, arxayınlıqla mənə dedi: "Sən get evə, ana!"

Solmaz Şəhid Mədəni, Əli isə 7 Tir məktəbində təhsil alırdı. Birlikdə gedib-gəlirdilər. Bir-iki dəfə bacısının səhər-günorta növbəsini dəyişdirdim ki, ondan ayrı düşməsin. Belə olanda arxayın olurdum. Onu küçəyə çox çıxmağa qoymurdum. Cümə günü gələndə isə bezib deyirdi: "Ana, niyə cümə oldu? Əgər olmasaydı, indi məktəbdəydim!"

Evdə darıxmasın deyə onu küçəyə oynamağa göndərirdim. Özüm qapının yanında dayanıb ona göz qoyur, axıra qədər gözləyirdim. Sakit idi, heç kimlə işi olmazdı. Kim çağırırdısa, mehriban tərzdə gülümsəyirdi.

Dərslərinə qarşı həssas olduğuma görə axtarıb onu ən yaxşı müəllimlərin sinfinə salmağa çalışırdım. İkinci sinifdə Abbasi soyadlı bir müəllimi vardı. Eşitmişdim ki, ailə problemləri olduğuna görə uşaqların tərbiyəsinə və dərsinə çox da fikir vermir. Bu söz ağız-ağız dolaşır və

məni narahat edirdi. Çox düşünəndən sonra qərara gəldim ki, bu problemi Əlinin öz köməyi ilə həll edim. Evə gələndə ağzına bəzi sözlər qoymağa çalışdım ki, öz istəyi ilə sinfini dəyişdirim. Dedim:

– Mən sabah məktəbinizə gələcəyəm, "Oğlum evdə ağlayır, bu sinifdə qalmaq istəmir" deyən kimi sən də ağlayıb deyərsən: "Ağa, mən bu sinifdə qalmaq istəmirəm, o biri sinifdəki dostlarımın yanına getmək istəyirəm".

Gözlərini üzümə dikib dedi:

– Niyə, ana? Mən müəllimimi çox sevirəm.

Cəmi bir-iki dəfə onun sinfində oturmuşdu. Dedi:

– Mən bu sözləri deyə bilmərəm.

– Mən istəyirəm ki, sən dərslərindən həmişə “5” alasan.

Planım baş tutsun deyə səhərə qədər qulaqlarını doldurdum. Ertəsi gün məktəbə gedib məsələni müəlliminə söyləyəndə tez onu çağırıb dedi:

– Əli, sənin məndən xoşun gəlmir? Niyə mənim sinfimdə qalmaq istəmirsən?

– Niyə ki, ağa? Mən həm səni, həm də sinfimi sevirəm.

Adəti idi, dilinə yalan söz gətirməz, öz xeyri üçün də yalan söyləməzdi. Bir göz qırpımında bütün planlarımı alt-üst etdi. Müəllimi dedi:

– Axı anan deyir ki, xoşun gəlmir.

– Anam da desə, mən sizin sinfinizdə qalmaq istəyirəm.

Elə dedi ki, müəllim, əslində, mənim narazı olduğumu bilib könülsüz halda dedi:

– Əgər onun mənim sinfimdə qalmasını istəmirsinizsə, gedin yerinə bir nəfər tapın; o bu sinfə gəlsin, Əli də başqa sinfə keçsin.

Gedib axtardım və səhər növbəsindən bir şagird tapıb onun yerinə gətirdim.[1]

***

Tənəffüs zəngləri bizdən 10 dəqiqə tez çalırdı. Əli sinifdən çıxıb məktəbin foyesində məni gözləyirdi. Bir gün təsadüfən bizim tənəffüs zəngimiz də həmişəkindən 10 dəqiqə tez çalındı. Biz də səbəbini bilmədən sevincək çantamızı belimizə atıb sinifdən çıxdıq. Bayırda hay-küy yarandı. Direktor müavini dayanmadan qışqırırdı. Səsi nazik olduğuna görə uşaqlar onun adını Qışqırıq qoymuşdular. Çox qışqırıb dedi ki, hələ tənəffüs vaxtı olmayıb, hara gedirsiniz; amma heç kim qulaq asmadı. Foyedə Əlini gördüm; gülürdü. Məndən soruşdu:

– Necə oldu ki, bu gün tez çıxdınız?

– Bilmirəm. Amma direktor müavini nə qədər qışqırdısa, qulaq asmayıb çıxdıq.

Yenə güldü və bu reaksiyası məni şübhəyə saldı. Tənəffüs zəngi Əlinin həmişə foyeyə çıxdığı zaman çalınmışdı. Yolda vaxt tapıb bir qədər kartof çipsi və qarğıdalı çubuğu aldıq. Məktəbdə direktorumuz belə şeylər almağa qoymurdu, evdə də anamız. Sevincək getdiyimiz yerdə yenə direktor müavininin qışqırıqları yadıma düşdü, gülüb dedim: "Yazıq nə qədər çığırdısa, heç kim qulaq asmadı".

Əli mənim sevindiyimi görüb qarğıdalı çubuğunun narıncı rənginə boyanmış əlini yalaya-yalaya bərkdən güldü və dedi:

– Zəngi mən vurub qaçdım, bacı!

Çevikliyinə təəccübləndim. Əlavə etdi:

---

[1] Anasının söylədiklərindən

– Dayanıb gözləməyə səbrim çatmadı, zəngi vurdum ki, tez bitsin və evə gedək.

Bu dəcəlliklərinə görə onu daha çox sevirdim. Ancaq həm də ondan muğayat olmalı idik. Bir dostu vardı, onunla çox oturub-duranda bütün davranışlarından təsirlənib eynilə onun kimi olurdu. Bir dəfə Süheyla ilə mübahisə etdi və ona təpik vurmaq istədi. Bunu ondan öyrənmişdi. Bir dəfə də məni su kranının ətrafındakı daşların üstündən itələdi, yerə yıxıldım. Yaxşı iş görmədiyini, başımın yarıla biləcəyini görüb qaçdı. Düşünülməmiş işindən hirslənib onu qatmağa başladım. Dovşan kimi bağçanın bu tərəfindən o tərəfinə atılırdı. Axırda əlimə keçdi. Onu vurmağa ürəyim gəlməsə də, dayanıb yazıq görkəm aldı, gözlərini gözlərimə dikdi. Məni gülmək tutdu, onu buraxdım, o da yay kimi əlimdən atılıb getdi.

Axşamüstü yanıma gələndə peşman idi. Dedim:

– Əli, yaxşı iş görmədin. Demədin ki, əzilərəm?

– Axı sənin ağlamanı görməmişəm. İstəyirdim bilim ki, necə ağlayırsan![1]

***

Dostlarımın yanında onu o qədər əzizləyirdim ki, Əlinin evimizin tək oğlu və birdənəsi olduğunu hamı bilirdi. Dostlarım gözləyirdilər ki, ad günü olsun, ona hədiyyə göndərsinlər. Bir ayaqqabı qutusunu hədiyyə kağızına bükmüşdü, dostları nə verirdilərsə, orada saxlayırdı. Uşaq olsa da, bizim hər birimizin hansı xüsusiyyətləri olduğunu və nəyə həssaslıq göstərdiyimizi bilirdi. Birinin tez qıdığı gəlirdi – onu o qədər qıdıqlayırdı

---

[1] Bacısı Süheylanın söylədiklərindən

ki, yerə yıxılıb gülməkdən ağlasın. Biz onu zorla xilas edirdik, yoxsa əl çəkmirdi.

Əsas narahatlığımız onun tərbiyəsi olsa da, düşüncəsinin necə olacağını və gələcəkdə hansı peşəni seçəcəyini də bilmək istəyirdim. Özümüz də uşaq olsaq da, daim onun gələcəyindən ötrü narahat idik. Qorxurduq ki, gələcəkdə bir dostu onun taleyini dəyişdirər, onu yoldan çıxarar.

Yavaş-yavaş ona halal və haramları öyrətdik. Xüsusən də çalışdıq ki, yeyib-içməyinə fikir versin və dilinə haram bir şey vurmasın.

Yadımdadır, bir dəfə bizə bir yeşik şaftalı gətirmişdilər, amma halal bir yerdən gəlmədiyini bilirdik. Digər tərəfdən də, Əli meyvəni çox sevirdi. O, pilləkənin başında böyük bir yeşik dolu şaftalını görüb pillələri iki-iki qalxdı və birini götürdü. Dişləmək istəyəndə dedim: "Əli, o, halal deyil ha!"

Şaftalı əlində qaldı. Halal-haram barədə bir qədər məlumat verməyə başladım. Bir az fikirləşib şaftalını yerinə qoydu. Ancaq meyvəni sevdiyinə görə bir neçə dəqiqədən sonra yenə bir şaftalı götürüb mənə yaxınlaşdı.

– Bacı, bundan hətta bir diş də yesəm, alov olub qarnıma gedər?

– Hə... nə qədər yesən, o qədər alov olub qarnına gedər.

Udqunub düz gözlərimin içinə baxdı. Dedim:

– Ancaq indi onu yeməsən, Allah o dünyada sənə bundan da yaxşı meyvələr verər.

Ondan sonra heç vaxt harama yaxınlaşmadı. Böyüdükcə namaz vaxtı əl-ayağımıza da dolaşmırdı. Ona dəstəmaz almağı öyrətmişdik, namaz da qıla bilirdi. Evdə çox da dərs oxumurdu, amma təhsili yaxşı idi. Sevinirdi ki, müəllim sinifdə: "Kim dəstəmaz ala bilir?" - deyə

soruşanda tez lövhənin qabağına keçib dəstəmaz almağın qaydalarını söyləmişdi. Bunu bizə böyük həvəslə danışırdı.

Gördüm ki, Əli artıq məsələləri dərk edəcək, yaxşı-pisi ayıracaq yaşa çatmışdır. Buna görə ona bir məktub yazıb bir qədər dərdləşdim və ürək sözlərimi dolayı yolla ona çatdırdım:

***Allahın adı ilə***

...Hər gəlişin bir gedişi var. Həyatın qanunu belədir. Gəlişlə gediş arasında isə necə yaşamaq barədə düşünmək lazımdır. Önəmli olan necə yaşamaq və necə getməkdir. Əgər bir neçə il öncə qeyri-ixtiyari şəkildə doğulmusansa, dünyaya gəlişinin qarşısını ala biləcək, ya da bu haqda düşünüb qərar verəcək bir gücün olmayıbsa, indi artıq böyümüsən, ağıllı və yetkin bir adam olmusan.

İndi həm öz ixtiyarınla işləyə, qərar qəbul edə bilirsən, həm də...

Əgər bir neçə il öncə haraya ayaq qoyduğunu, hansı sahəyə daxil olduğunu, habelə yaxşılıq və gözəllik, pislik və çirkinlik məfhumlarını bilmirdinsə, indi bilirsən, müxtəlif yaxşı və pislərlə tanışsan və onları yaşamısan.

İndi arxana və dayandığın yerə nəzər sal, sonra düşün, gör neçə il yaşamısan və hansı pillədəsən. Gör ki, bu bir neçə ildə Allaha neçə addım yaxınlaşmısan, neçə möhkəm addım atmısan. Gör necə yaşamısan, nələrlə tanış olmusan və həyat sənə hansı şeyləri daddırıb. Bunların hamısını nəzərə al və sonra təcrübələrindən istifadə elə. Qarşıdakı yola bax, qərar ver, elə bir yola qədəm qoy ki, pislik və peşmanlıqdan uzaq bir gələcək qura biləsən.

Qardaşım! Həyatın səninlə komplimenti yoxdur. Əgər hərəkət adamı olmasan, fələk səndən önə keçər. Əgər gedən adamsansa, asta və həmişə get ki, finiş xəttinə daha

tez və daha hazırlıqlı çatasan. Həyatın səninlə zarafatı da yoxdur. Odur ki, ayaq qoyduğun yolda ciddi ol və dalana girmə.

Qoy zaman hər şeyi sənə sübut etsin, bütün yaxşı və pislikləri daddırsın, həyatın dolanbac yollarını göstərsin. Həmişə hazırlıqlı ol ki, qəfil yaxalanmayasan. Sağ olmaq hünər deyil, amma yaşamaq yüzlərlə hünərdən dəyərlidir. Çünki bu işin adamı olmayanla oynayıb onu məhv edir. Yaşayan və düz yaşayan insan isə şeytanın hücumlarına heç vaxt əsir düşmür, fələyin oyuncağına çevrilmir.

Əli can! Ölüm arzulama, təklik arzulama, ümidini itirmə, fəryad etmə, qane olma və az istəmə.

Səbəblərini demirəm, özün taparsan; bu zaman inanar və daha əminliklə qəbul edərsən.

Əziz qardaşım!

Həyatını həmişə aydın səma kimi saxla, qara və kobud buludların gəlişinə icazə vermə. Həyat yolunun sonuna qədər sadəliyini qoru və ətrafına nümunə olmağa çalış. Ehtiyatlı ol ki, bu qədər qarma-qarışıqlıq arasında itməyəsən.

Başqalarına hörmət et ki, sənə də hörmət etsinlər.

Qardaşım!

Bizim bir ürəyimiz var, gərək eşqimiz də bir olsun. Çünki bir ürəkdə iki dilbərin olması xətadır. Sənə qısa yazdım ki, yorulmayasan.

Əli can! Önəmli olan getməkdir, çatmaq yox; önəmli olan uçmaqdır, kəpənək olmaq yox!

Qara inanclarda ağ yasəmənlərin cücərməsinə ümidlə

Bacın

27.12.07

Çoxdanışan idi; məktəbdə nə baş verirdisə, xırdalığına qədər anama danışırdı. O qədər danışırdı ki, bəzən yorulurduq, amma narahat olacağından, ya da həvəsdən düşəcəyindən qorxub bütün sözlərini maraqla dinləyirdik. Televiziyada öyrəndiyim psixoloji məlumatlardan bilirdim ki, ona yaxşı dinləyici olmasaq, özünə başqa bir dinləyici tapar. Buna görə özümüzü məcbur edirdik ki, dostlarının adlarından tutmuş məktəbin həyətində oynadıqları oyunlara qədər hər şeyi bizə danışsın.

Məktubu oxuyandan dərhal sonra sanki dəyişmişdi. Bir il ötmədən dedi ki, mümkünsə, mənə bir məktub da yaz.[1]

***

Məktəb tətil olanda kəndə gedib bir neçə gün qalırdı. Kəndin ab-havası nəticəsində Şəhriyarın Heydərbaba şeiri ilə daha çox ünsiyyətdə olurdu. Onu o qədər oxumuşdu ki, əzbərləmişdi. Bu şeiri oxuyanda hamı ona qulaq asırdı.

Xalası nəvələri onunla yaşıd idilər. Kənddə bir ip bağlayıb həmişə birlikdə oynayırdılar. Əli onların evində qonaq olduğuna görə bir gün xalasının gəlini demişdi: "Camaatın uşağını yavaş yelləyin, Allah eləməmiş, yıxılar!"

Əli bunu eşidib demişdi: "Xala, mən camaatın uşağı deyiləm, Şölənin oğluyam".

Məhərrəmlik gələndə israrla onu məscidə aparmağımızı istəyirdi. Özüm adətən işdə olduğuma görə anası aparırdı. O, əzadarlığın sonuna qədər Şəbistanda oturub gözləyir, oğlunun əza dəstəsi ilə sinə vurmasını istəyirdi.

Böyüyəndən sonra zəncir vurmağa marağı çoxaldı. Bizim məhəlləmizin məscidində yalnız sinə vurulduğuna görə o, zəncir vurmaq üçün başqa məhəllələrə gedirdi.

---

[1] Basıcı Solmazın söylədiklərindən

Beşinci sinifdə oxuyanda alnına qara lent bağlamaq istəmiş, mən də ona almışdım. Bağlamaq istəyəndə anasının yanına gedirdi. Anası elə bağlayırdı ki, qırışlanmadan başından götürə bilirdi.

Yayda bəzən Əlini özümlə sifarişə aparırdım. Bir dəfə Rəştə getdik. Hava rütubətli idi; narahat olur, yük maşınının salonunda çətinlik çəkirdi; səbri daralır, qərarsızlıq edirdi. Gördüm ki, 5-10 tüməndən ötrü qalsam, onu isti vuracaq. Gözləməyib boş qayıtdım.

On yaşı olanda Tehranda ona velosiped axtarırdım. Tərəbar meydanında bir nəfərin velosipedlə gəldiyini gördüm. Deyirdi ki, satıram. Velosipedindən xoşum gəldi. Əmin idim ki, Əli də bəyənəcək. Öz-özümə dedim: "Neçəyə versə, alacam".

Velosipedi verəndə o qədər sevindi ki, indiyədək almadığıma görə xəcalət çəkdim. Deyirdi ki, onu maşından da çox sevir.[1]

---

[1] Atasının söylədiklərindən

# 3

# Qürurum tapdanmaz

2011-ci ilin 22 yanvarında günortaya yaxın onu Təbriz Dövlət Universitetində gördüm. Adını yazdırırdı. Üzdən tanış gəldi. Diqqətlə baxıb tanıdım. Ərdəbilin Şeyx Bəhayi liseyində mən on birinci sinifdə oxuyanda o da onuncu sinifdə oxuyurdu. Mən liseyi bitirəndən bir il sonra universitetə qəbul oldum. Beləliklə, hər ikimiz 2011-ci ilin qışında Təbriz Dövlət Universitetinin 1 saylı texniki institutuna qəbul olduq.

Anasıyla gəlmişdi. Anası tanış çıxdığımızı görüb sevindi. Bir qədər bizə nəsihət verdi, bizi bir-birimizə tapşırdı. Onlar tez qayıtdılar, mənsə bəzi işlərimə görə gecikdim. Lakin həmin qısa müddətdə tanış olub telefon nömrələrimizi aldıq. Evlərimiz də yaxın idi: onlar Dülgərlərdə qalırdılar, bizim evimiz isə Sadiqiyyə məhəlləsində yerləşirdi.

Dərslər başlayandan sonra ilk dəfə universitetə getmək üçün danışıb razılaşdıq və sübh tezdən Bəsic meydanından avtobusla yola düşdük. Günorta yeməyində Sərabda idik. Bilmirəm cavanlıq hissindən idi, yoxsa yox; bəlkə də,

müstəqillik həvəsindən ilk dəfə bir ədəd siqaret alıb çəkmək qərarına gəldim. Siqareti yandıran kimi Əli sanki göydən düşüb qarşımda peyda oldu:

– Bu nədir? – dedi.

– Siqaret.

– Belə işlər görsən, dostluğumuz buradaca bitər, – deyib tez siqareti ağzımdan götürdü və ayağının altına atdı.

Bu, mənim birinci və axırıncı səhvim oldu. İki il orada təhsil aldıq. Əvvəllər Ərdəbilə tez-tez gəlir, tətil günlərində özümüzü evə yetirirdik. Avtobusda hansı qız qarşımızda oturur və yuxuya gedirdisə, sanki Əlinin qeyrəti coşurdu: tez-tez xəbərdarlıq edib deyirdi: "Bacım, yaylığın sürüşüb, onu düzəlt".

Naməhrəmə baxması mümkün deyildi. Get-gedə alışdıq, Ərdəbilə gediş-gəlişimiz proqrama düşdü və azaldı. Şənbə-çərşənbə günləri yeməklərimizi universitetdə yeyirdik, həftəsonları isə özümüz bişirirdik. Əlinin bişir-düşürünə söz ola bilməzdi. O, düyünü mənim kimi xəşil etmirdi.

Yavaş-yavaş səmimiləşdik. Hamı elə bilirdi ki, qardaşıq. Bir-birimizdən ayrılmırdıq. O, dindar idi, həmişə dəstəmazlı olurdu. Telefonunda musiqidən çox mərsiyə vardı. Mən namaz qılırdım, amma ilk vaxtda qılmağa çox da əhəmiyyətli yanaşmırdım, ürəyim istəyəndə qılırdım. Əli isə çox həssas idi, namazını ilk vaxtda qılırdı. Onun hamı ilə arası yaxşı idi, hətta universitetin müəllimləri ilə də.

Sözləri sinifdə dillər əzbəri idi, soyuq və yorucu dərslərimizə xüsusi rəng qatırdı. Bir dəfə adəti üzrə bir müəllimə dedi: "Dilüvə qurban, ustad!" Hamı gülməyə başladı. Müəllimin özü də ən avamyana bir sözün bu qədər

səmimiyyətlə deyilməsinə təəccüblənib güldü. Çox sadə və səmimi olmaqla yanaşı, özünə görə xüsusi çərçivəsi vardı. Şəxsi əşyalarına qarşı həssas idi, kim əl uzatsaydı, açıq şəkildə tapşırırdı ki, şəxsi dairəsinə daxil olmasınlar.

Bir dəfə bizi Babək qalasına ekskursiyaya apardılar. Ayağım ağrıdığına görə pillələri qalxa-qalxa tez-tez dönüb məndən soruşurdu:

– Səid, gələ bilirsən?

Hər ikimizin ingiliscəsi zəif idi. Axırıncı semestrdə xarici dil imtahanı zamanı gördüm ki, ingilis dilinə yox, daha sonrakı imtahana, yəni fotoqrammetriyaya hazırlaşır.

– Sən nə edirsən?! – deyə təəccübümü bildirdim. - Axı xarici dil imtahanımız var!

– Əgər bilmirəmsə, niyə vaxtımı tələf edim?

İmtahanların cavabları gələndə internet kluba gedib qiymətlərimizə baxdıq. Hər ikimiz 20 baldan 10 almışdıq; yəni düz sərhəddəydik.

2013-cü ilin yanvarında topoqrafiya ixtisası üzrə subbakalavr kimi məzun olduq. Təbrizdə özəl Sirac universitetinə adımızı yazdırmaq istəyirdik. Bütün idarə işlərimizi gördük, beş yüz min tümən təhsil haqqını köçürmək zamanı gələndə isə Əli dedi:

– Mən adımı yazdırmıram.

– Nə üçün?

– Əvvəlcə hərbi xidmətə getmək istəyirəm, sonra da özümə bir iş tapacam.

Ona çox bağlanmışdım. Dedim ki, sən getmirsənsə, mən də getmirəm. Fikrimizdən dönüb hərbi xidmət barədə işlərə başladıq. Əlaqəmizi də kəsmədik. Çox vaxt "Nur" əza dəstəsinin məclislərində görüşürdük. O günlərdə Kərbəlaya getməyi arzulayırdı. Eşitdim ki, əza dəstəsi ilə gedib.

2013-cü ilin ilk aylarında mən məzuniyyətdə olanda zəng vurub dedi ki, orduda xidmət edir. Yaşıl kartı da vardı. Mən onun orduya düşdüyünə görə çox narahat oldum, çünki özü çox istəyirdi ki, korpusda xidmət etsin.[1]

***

2011-ci ilin yayında Kərbəla ziyarətinə getmək üçün Əli ilə birlikdə bir qədər kredit götürə bildik. “Nur” əza dəstəsi ilə getdik. Əvvəlcə Nəcəfə yollandıq. Həzrət Əlinin (ə) məqbərəsinə daxil olanda qəribə hisslər keçirirdik; xırda addımlar atır, Şəhriyarın şeirini oxuyurduq:

Əli, ey humayi-rəhmət, nə dəlilisən Xudayə,
Ki Xudadan özgə, sayən nə ki var edər himayə.

Kərbəlada çoxlu namaz və duadan sonra beynəl-hərəmeyndə – iki məqbərənin arasında gəzişdiyim yerdə gözlərim Əlinin hər gün seyrələn saçına sataşdı. Zarafata başlayıb dedim:

– Əminəm ki, ikinci dəfə gələndə bütün saçın töküləcək, keçəl olacaqsan.

Gülə-gülə üzümü İmam Hüseynin (ə) məqbərəsinə tutub dedim: "Ey İmam Hüseyn, ikinci dəfə Əlini çağıranda başı keçəl olsun!"

Təsbehini çevirə-çevirə qəhqəhə çəkdi. Həmişə əlində təsbeh vardı. Parkda oturanda olduğu kimi, orada da əlimizdə təsbeh gəzirdik. Qulaqlarımı şəklədim. Salavatdan sonra Qədr surəsini oxumağa başladı.

Kərbəla səfərindən sonra bir müddət kaşı şirkətində işlədi. Sonra qırx beş günlük müddəti başa vurub hərbi xidmətə çağırış vərəqini aldı. Həyəcanlı idi; səbirsizliklə gözləyir, deyirdi: "Bir ay qaldı..."

---

[1] Dostu Səid Bavəfanın söylədiklərindən

Xarakterlərini bildiyimə görə istəyirdim ki, gəlib korpusda xidmət etsin. Özü də bunu çox istəyirdi. Bir dəfə Tehrana ezamiyyətə gedəndə Ərdəbil vilayəti korpusunun məsul şəxslərindən olan ağa Məsumini görüb israrla xahiş etdim ki, Əlinin korpusa düşməsinə kömək etsin. O, Quran oxuyurdu. Ona dedim: "Sizi bu Qurana and verirəm, kömək edin, Əli korpusa gəlsin".

Məsumi məni maraqla süzdü. Bir müddət idi onda Əli barədə müsbət fikir yaratmaq üçün tez-tez xarakterlərini tərifləyirdim. Məsumi israrımı görüb dedi: "Söz vermirəm, amma iclasda söyləyərəm".

Mən qayıdandan sonra Əlinin işi düzəldi və söz verdi ki, korpusun hansı bölməsinə düşsə, etiraz etməsin.

Bölgü zamanı komandirlik ofisinə düşdü. Mən ondan altı ay böyük idim. Hərbi xidmət zamanı nə vaxt məni görürdüsə, tez maşından düşürdü ki, mən öndə oturum. Zarafata deyirdim: "Bərəkallah, yerini bilirsən". İş yoldaşım Mürtəza hirslənib deyirdi: "Belə demə, narahat olar".

Ancaq xarakterlərinə bələd olduğuma görə bilirdim ki, heç vaxt narahat olmaz. Hərbi xidmət müddəti başa çatanda dəyərli xüsusiyyətlərinə görə onu işə götürmək istəyirdilər. Lakin kadr şərtləri olmadığına görə müqavilə ilə təminat ofisində işə başladı.[1]

***

Mehdi Təqvayi adlı bir dostumuz vardı, həmişə Əlidən və onun yaxşı cəhətlərindən danışırdı. 2012-ci ilin 3 iyununda korpusun ümumi təlimində iştirak etmək üçün imamın məqbərəsinə gedəndə Əli də öz məhəllələrinin Şəhid Ərşneşin adına Bəsic mərkəzi tərəfindən bizimlə

---

[1] Dostu və iş yoldaşı Mehdinin söylədiklərindən

gəldi. Onu yola düşəndə gördüm. Gülər üzü ürəyimə yatdı. Ondan sonra hər yerdə birlikdə olduq.

Tanışlığımızdan iki il ötürdü, Əli hələ də yanımızda bəsici kimi işləyirdi. 2015-ci ildə buğda biçini zamanı dostlarımızdan bir qrupla birlikdə hərəm müdafiəçilərinə dəstək məqsədi ilə Vilkic kəndində buğda toplayırdıq. Əli hər dəfə könüllü şəkildə gəlib bizə kömək edirdi. Uşaqlar sahələrdə əkinçilərlə danışırdılar ki, məhsullarının bir qədərini hərəm müdafiəçilərinə kömək üçün versinlər. Əli dilli-ağızlı idi. Uşaqlar bəzi əkinçiləri tanıyır, onlara yaxınlaşmaq istəmirdilər. Lakin Əli könüllü şəkildə gedib adama o qədər kompliment söyləyir, razı salmayınca geri dönmürdü. O hətta heç vaxt kömək edəcəyini düşünmədiyimiz adamlardan da bir neçə kisə buğda alıb gətirmişdi.

Bir gün gəzərkən sahibini tanıdıqları bir tarlaya çatdıq. Mərkəzimizin komandiri dedi: "Bu kişiyə yaxınlaşsaq, hamımızı təhqir edər, hərbi formamızın da qüruru tapdanar!"

Əli tez dilləndi: "Bu tezliyə qeybət eləmə. Özüm gedərəm. Mən adi bəsiciyəm, qürurum tapdanmaz. Versə verib, verməsə də heç..."

Maşından enib getdi. Onların danışıqlarını eşidirdim. Əli nə edirdisə, onu razı sala bilmirdi. Əkinçi kişi deyirdi: "Gedib Suriyanı qorumağa heç bir gərək yoxdur. Özümüzün daha çox ehtiyacımız var".

Əli axırda onun ruzisinin çoxalması üçün dua edib əliboş qayıtdı. Komandirlə mən narahat olub deyinməyə başladıq. Onun xalqı müdafiə etmək üçün qərib diyarlarda vuruşanlara qarşı belə rəftar edəcəyini gözləmirdik. Əli bizim sözlərimizi eşidib narahat oldu və dedi:

– Niyə qeybət edirsiniz? O, kömək etsəydi, müstəhəb bir iş görmüş olacaqdı. Bu, heç bir risalədə də yazılmayıb. Lakin siz onun müstəhəb bir işinə görə böyük günah edirsiniz!

Küsüb maşından düşdü. Nə qədər etdimsə, maşına minmədi. Axırda məcbur olub yerə düşdüm, üzündən öpüb razı salmağa çalışdım.

Bu işlərinə görə onun yanında qeybət etməyə və yalan danışmağa cürət etmirdik. Əgər bir söz desəydik, sonra isə əksi sübut olunsaydı, mütləq əlaqəni kəsərdi.

Bəzən kömək toplamaqdan, əkinçiləri razı salmaqdan yorulanda deyirdi: "Biz lazım olsa, başımızı da verməliyik. İndi ki Suriyaya getmək mümkün deyil, gərək bacardığımız qədər kömək edək ki, hərəm müdafiəçiləri sursat və ərzaq sarıdan korluq çəkməsinlər".

Bütün ramazan və məhərrəm aylarında müxtəlif məscidlərə gedir, ruhani çıxış edəndən sonra hərəm müdafiəçiləri barədə klip göstərir, qısa məlumat verəndən sonra onlar üçün pul toplayırdıq. Əli bütün bu işlərdə mənimlə olurdu.

Əxlaqı çox gözəl idi, hər an hiss edirdim ki, şəhid olacaq. Dəfələrlə özünə demişdim ki, sən şəhid olacaqsan, mənə şəfaət sözü ver. O da zarafata deyirdi:

– Şəfaətin xərci var.

– Nə xərci?

– Gərək məni kababa, ya da meşəyə aparasan.

Gedib meşədə gəzişir, qayıdırdıq. Gedib-gəlmək xərclərimizi vermək kimi problemim olmasa da, Əli hətta benzinin pulunu da verib:

– Dostluğun davam etməsinin əsas səbəbi hesab-kitabdır. Əgər işimizdə hesab-kitab olmasa, dostluğumuz

pozular, - deyirdi. Sonra gülür, yenə türk məsəllərindən istifadə edirdi: – Örtülü bazar dostluğu pozar.

Əli bir il yarım müqavilə ilə korpusda işlədi, 2015-ci ilin yazında isə rəsmən işə qəbul oldu.[1]

[1] Dostu və iş yoldaşı Mürtəzanın söylədiklərindən

# 4

# Əcəb cana yatan oğlandı

2015-ci ilin iyununda işə qəbul olmaq üçün korpusa getdik. O, məndən öncə gedib orada oturmuşdu. Saçı seyrəlmişdi. İlk baxışdan ürəyimə yatdı. Öz-özümə dedim ki, əcəb cana yatan oğlandı.

Ondan sonra uşaqlar bir-bir gəldilər: Meysəm, Mustafa, Əli və digərləri. Danışdıq ki, ertəsi gün saat 10:30 dəqiqədə Quma yola düşək. Əli əvvəldə dedi: "Biletləri mən alacağam".

Yenə diqqətimi cəlb elədi. Öz-özümə dedim ki, qəribə adamdır.

Avtovağzala getmişdi. Dostlar məni rəhbər kimi seçdiklərinə görə əlaqə saxlayıb dedi:

– Hacı, günorta saat 12-ə bilet var, alımmı?

– Mütləq al.

Ertəsi gün günorta saat 12-də Əli, Qurban və Mustafayla birlikdə idim. Digərləri ailə vəziyyətlərinə görə tək gedəcək və ya yolda bizə qoşulacaqdılar. Birlikdə yola düşdük. Günorta yeməyindən söhbət düşəndə Əli çantasından bir qədər küftə çıxardı. Deyirdi ki, anam

bişirib. Ev xörəyinə həssas olsam da, ilk tikədə xörək ürəyimə yatdı. Dadlı idi.[1]

Axşam təxminən saat 10-da Quma çatıb birbaş məqbərəyə getdik. Ziyarətdən və namazdan sonra taksi tutub düşərgəmizə yollandıq. Əlbəttə, yolu səhv getdik, o istidə düz bir saat yarımlıq yolu piyada qayıtmalı olduq. Yolda bir qədər dilxor da olduq. Hicabı düzgün olmayan bir xanımdan ünvanı soruşduğumuza görə Əli baş alıb getdi.

Gecə saat 3-ün yarısında düşərgəyə çatdıq. Girişdə bir leytenant vardı, hamıya nəzarət edirdi. Sonralar bildik ki, dəyərləndiricidir. Səhv etməsəm, soyadı Dejahəng idi. Bizim adımızı yazmağa başladı. Tez təqdimat zərfimizi açdıq. Əksər vilayətlər xidmət yerlərini bilirdilər, bizim vilayətimiz isə məktubları plomblayıb möhürləmişdi. Açandan sonra biri dedi: "Mən piyadayam". O biri dedi: "Mən briqada!"

Hərə öz xidmət vərəqini aldı. Əli o tərəfdən dedi: "Mən də mühafizəyə düşdüm".

Sevindim. Təsadüfən mən də oraya düşmüşdüm. Sonra bir anlığa maraqla üzünü mənə tutub heyrət içində dedi: "Mühafizə nədir?"

– Vallah, mən də bilmirəm, – çiynimi çəkib dedim.

Beş nəfər arasında Əli ilə mənim xidmət yerim eyni oldu. Beynimizdə min cür sualla oraya yerləşdik. Hələ vilayətlərin çoxu gəlməmişdi. Namazxanaya gedib ədyallarımızı aldıq, kondisioneri yandırdıq. İşıqları söndürən kimi yorğunluqdan yuxuya getdik. Sübh saat 4-də namaza oyananda gördük ki, bütün zal dolub. O vaxta

---

[1] Ondan sonra hər dəfə gedəndə anası yolumuza küftə bişirirdi.

qədər yalnız yolda olduğumuz qədərincə bir-birimizlə tanış olmuşduq, aramızda səmimi münasibət yaranmışdı.

Yollarımız da bəlli idi. Bu yola məni anam yönəltmişdi, özü də on beş yaşımda. Yadımdadır, onda küçədə iki avara kişini göstərib dedi: "Bax, Hadi, mən yaxınımda belə insanlar olduğuna görə rahat deyiləm”. Sonra bir qədər aralıda gözəl saqqalı olan mömin bir adamı göstərib dedi: "Amma belə adamların yanında olanda özümü təhlükəsiz hiss edirəm. İndi özün yolunu seç, gör hansı qrupdan olmaq istəyirsən: insanların özlərini rahat hiss etdikləri qrupdan, yoxsa onların rahatlıqlarını əlindən alan qrupdan?"

Bilmirəm niyə həmin gün yadıma düşdü. Lakin həm özümüzün, həm də digərlərinin özlərini rahat hiss etdikləri dostların yanında olduğuma görə sevinirdim.

Hamımız çox böyük həvəslə camaat namazı qıldıq. Hiss etdim ki, dostlarım arasında Əli ilə mən əxlaqi baxımdan bir-birimizə çox yaxınıq. Bu fərqlə ki, mən quru və ciddi dindar idim, Əli isə zarafatcıl, eyni zamanda aktiv. Ancaq birlikdə çox danışır, dərdləşirdik. Davranışlarımızda ortaq cəhətlər çox idi. Bizə demişdilər ki, sinfə mobil telefon gətirməyin. Əli ilə mən heç vaxt aparmırdıq, bəziləri isə gizli şəkildə aparırdılar.

Birinci gün iştirakçıların çoxluğunu görüb Əliyə dedim:

– Bəh-bəh! Belə olsa, yeyib-yatmaqla məşğul olacağıq.

– Niyə ki?

– Bu qədər adam gəlib. Təlim müddəti də çox deyil. Yüzlərlə adamın adını soruşana qədər on gün keçər.

– Belə olsa, yaxşı olar, – Əli gülümsəyərək dedi.

Lakin gözlədiyimin əksinə olaraq, elə həmin gün hamımızı böldülər, hər kəsin briqadası, batalyonu, bölüyü

və taqımı məlum oldu. Hətta siniflər də müəyyən edildi. Ertəsi gün sübh saat 4-də "Qalx" komandası verildi.

– Otur! Qalx!

Bir qədər sonra dedilər ki, təlim müddəti bir neçə ay uzana bilər. Mən bir qədər narahat oldum. Əli narahatlığımı görüb zarafatlaşır, məni ələ salıb deyirdi: "Belə olsa, yaxşı olar!"

Bütün hirsimi onun üstünə boşaldıb deyirdim: "Allah cavabını versin, Əli! Allah səninlə Özü bilsin! Sən subaysan, haradan biləsən ki, mənim arvad-uşağım tək qalıb..."

Gülüb məni ələ salırdı.

Təlimlər o qədər ağır olurdu ki, səhərə qədər cəsəd kimi yerdə qalırdıq. Çox da güclü olmayan xörəkdən yeyib axşam saat 9-a qədər çöllükdə qaçırdıq. Əli mənə kömək edirdi. Paltarlarımı yuya bilmədiyimə görə təlimdən sonra mənə paltar yumağı öyrədib deyirdi: "Paltarlarını islat, onları yaxşıca çəngələyəndən sonra hovuzun qapağını aç, çirkli sular axsın, sonra yenə təmiz suda sürt. Təmizlənəndən sonra da suya çək, yaxşıca burub sıx və axırda ipdən as".

Təlimin ab-havası eləydi ki, avtomatik olaraq gecə namazı qılmağa və başqa günlərdə çox da əhəmiyyət vermədiyimiz müstəhəb əməlləri yerinə yetirməyə həvəslənirdik. Gecələr namaz qılmağa gedəndə bir kölgənin digərlərindən öncə dirəyin yanına düşdüyünü görürdüm. O, hamıdan qabaq dirəyin arxasında namaza dayanırdı, yeri məlum idi. Çox da araşdırmaq istəmirdim. Bir-iki dəfə yaxınlaşıb məni dua etməsini söyləmək istədim, amma halını pozmağa ürəyim gəlmədi. Ancaq təlim müddətinin sonuna qədər marağımı çəkir və öz-

özümə deyirdim: "Görəsən, hamıdan qabaq ibadətə başlayan bu adam kimdir? Xoş halına!"

Bir yerə gedəndə avtobusda danışıb bir-birimizin fikrini öyrənməyə yaxşı imkan yaranırdı. Həmişə söhbətləşir, fikir mübadiləsi aparırdıq. O deyirdi: "Biz şiələrin vəzifəsi budur ki, cəmiyyəti ağanın zühuruna hazırlayaq. Onun zühuru barədə söz və şüarlarla kifayətlənsək, gəlməz. Gərək bunun bədəlini ödəyək, oturub gözləyə bilmərik". Sonra İŞİD barədə söhbət açıb deyirdi: "İŞİD bəhanədir, onlar tör-töküntülərdir. Lakin həzrət İmam Mehdinin (ə) zühurunun qarşısını aldıqlarını bilsək, şiə olan mən və sən imamın zühur maneələrini ortadan götürməliyik. Quru-quru, "İlahi, höccətinin qurtuluşunu tezləşdir" deməklə problem həll olmaz".

Görürdüm ki, ürəyində qorxu yoxdur. Gülüb deyirdi: "Hər yerdə İŞİD-çi gəzirəm!"

Hər gün Əlini bir az da yaxından tanıyırdım. Təzəlikcə öyrənmişdim ki, hamıdan qabaq dirəyin arxasında namaz qılan şəxs o imiş.

Onu bir-iki dəfə köynəksiz görmüşdüm. Bədəni əzələli, daş kimi bərk idi, ağır idmanlara asanlıqla tab gətirirdi. Elə ağır şəraitdə hətta dərisinin rənginə də fikir verirdi, günəş yandırmasın deyə bütün başına şal bağlayırdı. Həmişə limonlu bal məcunu yeyirdi.

Pasdarlıq təlimini bitirib Ərdəbil hava limanına xidmət yerimizə qayıtdıq.[1]

***

Yoxlanış zalında təlim yoldaşlarından bir-ikisi ilə birlikdə oturmuşdu. Görüşüb hal-əhval tutduq. Soyadının Seyfi olduğunu bilib dedim:

[1] Dostu və iş yoldaşı Hadinin söylədiklərindən

– Əli ağa, bir pasdar həmkarım var, soyadı Seyfidir. Onunla qohumsunuz?

– Yox, başuva dolanım... Bizdərdə pasdar yoxdi, əvvəlincisi mənəm.

İlk rəftarı eləydi ki, orada ürəyimə yatdı. Get-gedə səmimiləşdik. Bir dəfə eyni növbəyə düşəndə səmimiliyimiz daha da çoxaldı.

Qaldığımız yerdən hava limanının tranzit zalına qədər 300 metrlik məsafə vardı. Əvvəllər o yolu maşınla gedib-gəlirdik, amma sonra piyada getməyə başladıq. Mən, Məhəmmədhüseyn və Əli birlikdə söhbət edə-edə gedirdik.

Yaxşı günlər idi. Hər gün Yasin surəsini oxuyurduq. Əli preslənmiş vərəqi çıxarıb önündə tuturdu. Bəzən dodaqları tərpənirdi, gözləri isə başqa yerə baxırdı. Bilirdim ki, surəni əzbərləyib, riyakarlıq olmasın deyə vərəqi önündə tutur.

Münasibətimiz o qədər yaxınlaşdı ki, idarədən kənarda da görüşməyə başladıq. Biz məhəlləmizdə dostlarımızla xüsusi bir qrup yaratmışdıq, bəzi xeyriyyəçilərin köməyi ilə kimsəsiz uşaq və ailələrə yardım edirdik. Bir gün bölgə komandiri mənə dedi:

– Kimsəsiz bir qadın var, korpus ona ev tikmək istəyir. Materialları xeyriyyəçilər alıblar, amma tikməyə adam lazımdır.

Bunu işdə uşaqlara dedim, hələ sözüm bitməmiş Əli dedi:

– Səid, mən varam ha!

"Sənin deməné ehtiyac yoxdur, bilirəm ki, gələrsən!" – deyə öz-özümə düşündüm.

Bir neçə nəfərlə birlikdə razılığımızı bildirdik. Birinci gün sübh tezdən Əli hamıdan qabaq bizə gəlib israr etdi ki,

tez gedək. Yolda səhər yeməyinə iki bərbəri çörəyi aldıq. Qoca bir qadın yarımçıq tikilidə tək yaşayırdı. Səhər yeməyi yemək istəyəndə Əli tez çörəklərdən birini götürüb qadına aparmaq istədi.

– Əli, biz üçümüz bir çörək yeyək, o qadın təkbaşına birini? – deyə tez dilləndim.

– O, bizdən vacibdir. Bəlkə, günortasına da bunu yeyəcək. Məlumdur ki, heç nəyi yoxdur.

Səhər yeməyinə başladıq. Bir-birimizi ələ salır, üç nəfərə yeyəcəyimiz bir nazik bərbərinin şəklini çəkirdik. Əli yenə də özünü bizə tanıtdırırdı. Sanki hər dəfə şəxsiyyətinin bir vərəqi açılırdı və ondan yeni bir rəftar görə bilirdik. Həmin qısa müddətdə hacı xanımla səmimi münasibət qurdu. Bekar olan kimi onun yanına gedir, halını soruşurdu.

– Nə cürsən, hacı xanım... Yaxçısan, inşallah?

– Bala, başuva dolanım...

İdmanından da qalmırdı. Həm bədən əzələlərini möhkəmlədirdi, həm də boksla məşğul olurdu. Zalda köynəyini çıxaranda bədəninin necə güclü olduğu bilinirdi. Lakin heç vaxt özünü göstərmirdi, həmişə təvazökarcasına yol yeriyirdi. Hətta səcdələri də xüsusi tərzdə idi. Hamı qollarını aralayıb səcdə edəndə Əli Allah qarşısında çox təvazökarcasına səcdəyə gedir, hər bir şəraitdə namazını vaxtında qılırdı. Sıxlığın pik həddində, hətta təyyarə yerə oturan vaxtda da çalışırdı ki, namazını ilk vaxtda qılsın, özü də camaat namazı şəklində.

Lalə restoranında Fəal adlı bir dostumuz vardı, hərbi xidmətini korpusda keçirmişdi. Oraya çox gedirdik. Fəal zarafatcıl olduğumu bilirdi, məni görən kimi Əliyə deyirdi:

– Əli, bu adam sənə görə deyil.

– Allahdan başqa heç kimin ürəklərdən xəbəri yoxdur, – Əli cavab verirdi.[1]

***

Bizim mərkəzimiz naməlum şəhidlər məzarlığına yapışmışdı. Bəzən bir nəfərin orada oturub şəhidlərlə dərdləşdiyini görürdüm, kim olduğunu isə bilmirdim.

– Nahardan soralar neçə saatlarla əyləşir burda, – iş yoldaşım bunu deyib yanımdan keçdi.

Görünür, arabir otağımızın pəncərəsindən ona baxdığımı hiss etmişdi. Həmkarımın evi mərkəzimizin yanındakı binalarda yerləşirdi, məzarlıq oradan yaxşı görünürdü. O deyirdi:

– Bəzən mən evdən çıxanda orda olur, gedib bütün işlərimi görürəm, qayıdanda görürəm ki, hələ də orda oturub. Bilmirəm ki, kimdir və niyə bu qədər qalır.

Üç-dörd gün sonra onu yenə gördüm. Həmişəki kimi qara paltoda oturmuşdu. Çox marağımı cəlb etdi. Qərara gəldim ki, yaxınlaşıb məsələni öyrənim. Fikirləşdim ki, mən gedənə qədər orada olsa, görüb sualımı verərəm; olmasa da, bir Fatihə oxuyub qayıdaram.

Mən çatanda hələ getməmişdi. Yaxınlaşanda təəccüb etdim. Əli idi. Əvvəllər mənə çox baş çəkirdi. Dedim:

– Sən burda nə edirsən, oğlan? Bura bu qədər gəlirsən, bəs niyə mənə baş çəkmirsən?

– Elə bu gün yanına gəlmək istəyirdim, – gülüb dedi.

Onu qəfil yaxalamışdım.

– Bilirəm ki, çox vaxt günortadan sonra bura gəlib saatlarla qalırsan...

– Hardan bilirsən? – təəccüblə soruşdu.

– Bunu da bilməsəm, daha nə oldu?! – zarafata dedim.

---

[1] Dostu və iş yoldaşı Səidin söylədiklərindən

Bir məzara əlimi qoyub Fatihə oxudum. Əli hələ fikirli idi. Dedim:

– Xeyir ola! Naməlum şəhidlərdən Ərdəbildə də var, sən niyə bura gəlirsən?

– Elə belə.

Bilirdim ki, elə-belə iş görməz. Niyyətini öyrənmək üçün israr etdim. Məzarları göstərib:

– Bunlar bura gələndə niyyət etdim ki, yaxşı və şərəfli bir iş tapmaq üçün mənə kömək etsinlər, hətta fəhləlik olsa da. Onlardan istədim ki, mənə kömək etsinlər, mən də əvəzində bunları üzüağ edərəm, - dedi, sonra məzarlarına əlini çəkdi, dərin bir köks ötürüb əlavə etdi: – Mən bu şəhidlərin sayəsində pasdar oldum. İndi də bu şəhidlərdən istəyirəm ki, şəhid olum.[1]

---

[1] Dostu və iş yoldaşı Mürtəzanın söylədiklərindən

# 5

# Gözüvə qurban

Hava limanının mühafizə qüvvələrindən olduğumuza görə adımızı Dəməşq hava limanına kömək üçün yazdılar. Deyirdilər ki, peşəkar qüvvələrə ehtiyacımız var. Orada təxminən iyirmi nəfər adımızı yazdırdıq. Əli də bizimlə idi. Bir müddət ötdü. Hər gün göndərəcəklərini söz verirdilər. 2016-cı il baharın sonları idi. Sonralar bir sərəncam da gəldi ki, ola bilsin, Dəməşq hava limanına ezam olmasın. Bir-iki dəfə də deyildi ki, döyüş bölgələrinə ezam olacaq, hava limanına yox.

Mən dedim:

– Əli, deyəsən, məsələ başqa cürdür... İmtina vermək istəyirsən, yoxsa yox?

– Biz əvvəldən vardıq, indi də varıq! – dedi.

Bir müddətdən sonra Ərdəbil korpusunun komandiri bizi Vilayət zalında toplayıb Şəhid Həmədanidən danışdı. Zalda yan-yana oturub generalı dinləyirdik. Əli də ayaqlarını bir-birinin üstünə aşırıb diqqətlə qulaq asırdı. O, hadisəni danışıb könüllü istədi. Hələ sözləri bitmədən,

məsələnin məğzindən xəbərdar olmadan, “Suriya” sözünü eşidən kimi çiynimə vurub dedi: "Hacı, mən getdim!"

Sevindiyindən çırtma çalmağa başladı.

– Əli, ancaq bizim vədəmiz var, danışmışıq ki, bu tərəfdən ezam olaq, inşallah, – dedim.

– Yox, – dərhal cavab verdi, – mən çoxdandır bəhanə axtarıram... Gedirəm...

Atasının xəstə olduğunu bildiyim üçün dedim:

– Əli, ailənin vəziyyətini bilirsən. Bu vəziyyətdə olmaz.

Bilirdim ki, evlərində işləyən yalnız odur. Bir müddət idi atasının sığorta pulunu öz cibindən verirdi ki, təqaüdə çıxsın.

Qərara alındı ki, səkkiz ay təlim keçəndən sonra göndərilsin. Mən dedim:

– Ancaq hələ məlum deyil ki, ezam olacaq, yoxsa yox. Sən bir il orda nə üçün qalasan ki?!

– Əgər otuz il də olsa, gedərəm, – dedi.

İftara on beş dəqiqə qalırdı və hələ sözləri bitməmişdi. Birdən hava limanından əlaqə saxlayıb dedilər ki, gərək qayıdaq. Deyəsən, bir təyyarə enəcəkdi. Tələsdiyimizə görə xörəklərimizi birdəfəlik plastik qablara töküb verdilər. Fikirləşdik ki, işə bu xörəklərlə getsək, pis olar. Qərara gəldik ki, yolüstü Sina qəsəbəsindəki dostumuzun evində yeyək, sonra gedək.

Dostumuz bir süfrə sərdi, oturduq. Bal və qaymaqla bir neçə fətir çörəyi gətirdi, süfrəyə bir qədər yemiş də qoydu. Plovla xuruş da özümüzdən idi. Balla qaymaq böyük birdəfəlik qablarda idi. Əli dedi:

– Mən plov-xuruş yemirəm, bal-qaymaqdan bir az yeyəcəm.

Yeyimcil idi, tez yeməyə başladı. Hər dəfə ağzına bir şey qoyanda deyirdi ki, qalxın, gedək, amma az sonra bir tikə də götürüb deyirdi: "Bu dəfə daha getdik".

Beləliklə, bütün bal-qaymağı yeyib qurtardı, sonra yemişə başlayıb zarafata dedi: "Uşaqlar, hamı bilir ki, balla yemiş uyğun gəlmir. Mən yeyəcəyəm, sizsə ehtiyatlı olun, onları heç vaxt birlikdə yeməyin".

Yeyimcil olmasına baxmayaraq, dəfələrlə görmüşdüm ki, xörək çatmayanda bir tikə pendir-çörəklə kifayətlənirdi.[1]

***

2016-cı ildə, yayın düz ortasında Tehrana Şəhid Həmədani təliminə yollandıq. Ezamdan öncə iyirmi nəfər idik; bəziləri şəraitlərinə görə qayıtdılar, bəziləri də qarnizonda təlim keçməli oldular. Ərdəbildən onnəfərlik bir qrup qaldı. Həmin on nəfərin içində məni qrup başçısı seçdilər. Əlimizi hər şeydən üzüb hərəm müdafiəsi təliminə getmişdik, nə baş verəcəyini bilmirdik. Düşünürdük ki, 14-15 gündən sonra ezam olunacağıq, amma sonra nə olacağı bəlli deyildi. Bu düşüncələr səbəbindən təlimin əvvəllərində bəziləri təsirlənmişdilər, namaz və ibadətlərinin sayı-hesabı itmişdi; gecə-gündüz bilmədən ya təlimdə idilər, ya da ibadətdə.

Əli ilə orada daha yaxından tanış oldum. Hüseynçi idi, əza heyətindən bir an da uzaq düşmürdü. Mənə görə, heyətçi olmaqla hüseynçi olmaq fərqli şeylərdi. Əli, həqiqətən də, hüseynçi idi. Uşaqları etiqadi baxımdan sıralayanda onu həmişə birinci görürdüm. Manevrdən sonra rövzə məclisi keçiriləndə hamımız yorğun halda

---

[1] Dostu və iş yoldaşı Səidin söylədiklərindən

yatmağa fürsət axtardığımız zaman o, rövzə məclisinə gedirdi.

Təlimin əvvəllərində iki həftə Tehranda qalırdıq, bir həftə Ərdəbilə məzuniyyətə gəlirdik. İki nəfərin maşını vardı, adətən onlarla qayıdırdıq. Bəzən iki həftənin arasında cümə axşamından şənbəyə qədər bir yer seçib gəzməyə gedirdik. Ancaq Əli fürsətdən istifadə edib tez icazə alır, Quma həzrət Məsumənin ziyarətinə gedirdi. Növbəti həftə tətil vaxtı uşaqlar parkı və ya başqa bir gəzməli yeri təklif edəndə Əli yenə Quma getmək istəyirdi. Bir neçə dəfə görmüşdük ki, Quma çatan kimi birdən yoxa çıxır. Uşaqlar onu çox sıxışdırandan sonra bildilər ki, bir əxlaq müəllimi var, onun yanına gedib əxlaqi tövsiyələr alır.

Bəzən də bir yerə gəzməyə gedəndə yolda yavaşca deyirdi:

– Burda saxla, mən Quma getmək istəyirəm.

– Məgər keçən dəfə getmədik?!

– İndi də getmək istəyirəm.

Fikrimin dəyişməyi kifayət edirdi. Yolu dəyişdirib Quma gedirdik. O, özündən başqa on nəfəri də həzrət Məsumənin ziyarətinə aparmış olurdu.

Bir dəfə çatanda gördük ki, şəhərdə qələbəlik var, böyük əza dəstələri küçələrə çıxıb. Məqbərə xidmətçiləri İmam Rzanın (ə) şəhadət günündə Məşhəddə xidmətçilərin mərasiminə oxşar bir mərasim keçirirdilər. Soruşanda öyrəndik ki, həzrət Məsumənin Qum şəhərinə daxil olduğu gündür. Hamımızda qəribə ab-hava yarandı. O vaxta qədər belə bir mərasim görməmişdik. Sanki həmin gün qismətimizdə Quma getmək varmış. Bu isə

Əlinin həzrət Fatimə Məsuməyə sevgisi sayəsində baş tutmuşdu.[1]

***

Təlimdən bir neçə ay ötürdü, ancaq Suriyaya getməkdən xəbər yox idi. İlk günlərdə öz hesab-kitablarını sıfırlayıb Allahla ibadətə böyük həvəs göstərənlər də müəyyən həddə motivasiyalarını itirmişdilər. Lakin bəzən postda olanda gecə vaxtı namazxanaya bir nəzər salmağa çalışırdım. Görürdüm ki, on beş nəfər dayanıb gecə namazı qılır. Onlardan biri də Əli idi.

Bir müddətdən sonra tapşırıq verildi ki, iki həftə məzuniyyətdə, bir həftə isə Tehranda olmalıyıq. Ondan sonra Əli bizdən ayrıldı və daha bizim maşınımızla gedib-gəlmədi. "Mən tez getmək istəyirəm" – deyib bir gün öncədən icazə alır, Ərdəbilə ailəsinin yanına qayıtmaq yerinə Quma gedirdi. O, bundan ötrü çox əziyyət çəkirdi, xüsusən də uşaqlar etiraza başlayanda:

– Qumdan doymadın?

– Sizin mənlə nə işiniz var? Mən də belə həzz alıram.

Bizdən iki gün öncə gedib ziyarət edir, ustadını görür, dərslərində iştirak edib qayıdırdı. Bu zaman isə uşaqlar ona sataşmağa başlayırdılar. Deyirdilər ki, orada müvəqqəti kəbinlə ailə qurubsan; hərdən də deyirdilər ki, çox ixlaslısan, şəhid olacaqsan.

Quma tez-tez gedib-gəldiyinə və ilk vaxtda namaz qılmağa həssas yanaşdığına görə Qum yolundakı bütün namazxana və imamzadələri tanıyırdıq. Azan vaxtının çatdığını hiss edən kimi deyirdi:

– Burda istirahət edək.

– Nə olub, Əli? Getsək, daha tez çatarıq!

---

[1] Dostu və iş yoldaşı Həkimin söylədiklərindən

Bilirdi ki, ondan sonra bir müddət çöllük gələcək və dayana bilməyəcəyik. Bizi məcbur edirdi ki, istirahət bəhanəsi ilə məscid və ya namazxanaların birində dayanaq. Yarım saatımızı tələf edirdi və azan verilən kimi deyirdi ki, namazımızı qılaq, ilk vaxtda namaz savabını əldən verməyək.

Bir gecə Cəmkəran məscidində qaldıq. Ertəsi gün düşərgədə olmalı idik. Çalışırdıq ki, tez çatıb bir az istirahət edək. O müddətdə çox yata bilmirdik. Şəbistanda yatmaq və müstəhəb əməlləri yerinə yetirmək taqətimizi alırdı. Azana bir saat qalmış imamın məqbərəsinə gedib ziyarət etdik. Azana yaxın Əli dedi: "Burada namazımızı qılaq, sonra gedək".

Düşərgəyə 30 km-dən də az qalırdı. Uşaqlar etiraz edib deyirdilər ki, yarım saatdan az yolumuz qalıb, burada niyə azanı gözləyək? İstəyirdilər ki, tez çatıb namazımızı da orada qılaq. Onlar israr edir, Əli isə razılaşmırdı. Heç kim geri çəkilmirdi. Onları sakitləşdirmək üçün dedim ki, oturub ən yaxşı yolu seçək. Bilirdim ki, hamısı haqlıdır: həm Əli, həm digərləri. Bunu deyən kimi iki nəfər qalxıb məqbərədə namaz qılmağa getdi. Əli də fürsətdən istifadə edib onların ardınca yola düşdü. Bu dəfə sürücülərin biri küsüb getdi. Qalanımız da onların arxasınca namaza getdik. Bizdən sonra sürücü də gəlib namazını qıldı. Bu dəfə nə qədər gözlədiksə, sürücü gəlmədi. Deyəsən, əvəz çıxmaq istəyirdi; deyirdi ki, siz məni gözlətdiz, mən də sizi gözlədəcəyəm.

Əli gedib onun maşınında oturdu. Yolda mənə tez-tez mesaj yazıb özünü danlayır, deyirdi: "Mənim günahım idi. Sanki bütün işlərim düzgündür, təkcə namazı ilk vaxtda qılmağım qalıb!"

Bir az araları pozuldu, iki gün təxminən küsülü qaldılar. Əli narahat idi, tez-tez deyirdi: "Mənim adımdan uşaqlardan üzr istə".[1]

***

Əli və Həkimlə birlikdə gedirdik. Birdən məqbərənin girişində Əli yoxa çıxdı. Hara getdiyi ilə maraqlandıq. Uşaqlar zarafata dedilər: "Müvəqqəti xanımının yanına getdi".

Bu sözü həmişə deyirdilər, Əli də yalnız gülüb keçirdi. Həkim dedi: "Ardınca get, gör hara gedir".

Onun ardınca getdim. Hiss etdim ki, onu izlədiyimi bildi. Geri dönəndə iri cüssəli bir ruhaninin arxasında gizləndim. Yenə yoluna davam etdi, mən də arxasınca. Bir dəfə də dönüb baxanda bir avtobusun arxasında gizləndim. Üçüncü dəfə isə planım baş tutmadı, məni görən kimi zarafata bir-iki yumruq vurdu, israrlı olduğumu gördükdə isə dedi ki, əxlaq müəlliminin yanına gedir. Müəllimi Ayətullah Behcətin şagirdlərindən idi. Məni də onun yanına apardı. Oraya çoxlu tələbə yığışmışdı. Orada qaldığımız müddətdə bir-iki dəfə də onların yanına gedib-gəldi. Gecənin yarısı yataqxanada da yoxa çıxdığını hiss edirdim. Bilirdim ki, gecə namazına gedir. Əxlaq müəllimi ona əxlaqi tövsiyələr verirdi. Əli onları kiçik bir vərəqə yazır, heç kimi baxmağa qoymurdu. Artıq bizi gözlətməyinə alışmışdım. Müxtəlif səbəblərlə, o cümlədən namazı bayırda qılmaq və digər bəhanələrlə yoxa çıxırdı.[2]

***

Uşaqların biri ilə səmimi dost idi, onu çox sevirdi. Lakin onun bir mənfi cəhəti vardı, Əli bəzən buna işarə vurur, onu incitməyə çalışırdı.

---

[1] Dostu və iş yoldaşı Həkimin söylədiklərindən

[2] Dostu və iş yoldaşı Əhmədin söylədiklərindən

Bir gün günortadan sonra istirahət otağında televizora baxdığımız yerdə gəldi. Dilxor idi. Səbəbini soruşanda həmin dostunun adını çəkib dedi ki, onunla dalaşdım.

– Necə? – deyə soruşdum. - Siz ki dost idiniz!

– Boş bir şey üstə mübahisə etdik, o da hirslənib küsdü.

Narahat idi. Mənə deyirdi:

– Sən Allah, məni onunla barışdır. Nə qədər salam verirəmsə, cavab vermir. Qoyma küsülü qalaq.

Hər ikisini tanıyırdım. Bilirdim ki, eynilə Əli kimi onun da qəlbi təmizdir. Dedim:

– Burda ol, gəlirəm.

Gedib gördüm ki, çarpayıda uzanıb. O da narahat idi. Yanında uzandım. Əhəmiyyət vermədi. Sanki hamıdan incimişdi. Bəlkə də, onları barışdırmağa gəldiyimi bilirdi. Əlimi boynuna salıb Əlini tərifləməyə başladım:

– Zarafatlarına fikir vermə, Əli kimi dost tapa bilməzsən. O, başqa bir aləmdir. Özün də bilirsən ki, qrupun ən nümunəvi üzvüdür, səni də hamıdan çox istəyir.

Qalın qaşlarını düyünləyib cavab verdi:

– Bilirəm.

– Bəs niyə belə edirsən?

– Çünki adamın mənfi cəhəti üzərinə gedir. Halbuki bunu kiminsə bilməsini istəmirəm.

– Onun pis niyyəti yoxdur. Həm də bu, önəmli bir şey deyil, sən böyüdürsən.

– Amma heç kimin bu barədə danışmasını istəmirəm.

– Amma sən çox həssas olmusan, – kürəyinə vurub dedim. – Onun başqa məqsədi yoxdur.

Üzünü yana çevirdi, özünü narahat göstərməyə çalışaraq dedi:

– Bilirəm... Qoy bir müddət keçsin, sonra onunla danışacam.

– Gedib onu çağırımmı? – fürsəti fövtə vermədən soruşdum.

– Yox, sonra.

– Söz verirsən?

– Hə.

Suyum süzülə-süzülə Əlinin yanına qayıtdım. Məni görən kimi yerindən sıçrayıb dedi:

– Gedim?

– Yox.

– Barışmır? – narahat halda soruşdu.

– Barışmaq istəyir, səninlə sabah danışacaq.

Ertəsi gün dostunu gördüm, məni görən kimi güldü. Bildim ki, barışıblar. Məsələni soruşanda dedi:

– Səhər çağı çarpayımda uzanmışdım. Bir də gördüm ki, əlini çənəsinin altına qoyub gözlərini üzümə dikib. Məni gülmək tutdu, qalxıb ona əl verdim, üzündən öpdüm.

Həssas idi; hətta yeyib-içməyinə qarşı da. Hər qidanı yemirdi ki, birdən bədəninə zərəri olar. Dəstəmazsız yatması da mümkün deyildi. Smartfon almağa həvəs göstərmirdi. Buna görə şəkillərinin çoxunu mən çəkmişəm.

Bir axşam Cəmkərandaydıq. Hava təmizdi, məscid sanki xüsusi tərzdə gözəlləşmişdi. Birlikdə gəzişdiyimiz yerdə telefonumla onun müxtəlif yönlərdən bir neçə şəklini çəkdim. Sonra telefonu ona verdim ki, mənim şəklimi çəksin. Şəkli fokuslamağı öyrədib dedim:

– Nə vaxt bu dairə gəlsə və görüntü aydınlaşsa, çək.

Bir neçə poza verdim və Əli şəkillərimi çəkib telefonu özümə qaytardı. Şəkillərə baxmadan onu cibimə qoydum. Dedi ki, baxmaq istəmirsən? "Sonra" – yorğun olduğum üçün cavab verdim.

Gedib yatdıq. Səhər yuxudan ayılandan sonra telefona baxıb gördüm ki, heç bir şəkli çəkməyib. Güldüm. Dedi: "Mən elə bildim ki, yaşıl dairə gələndə özü çəkir”.[1]

***

Adəti beləydi: azandan bir saat öncə yoxa çıxırdı; nə işi olsaydı, saxlayıb gedirdi. Bəzən uşaqlar ona etiraz edirdilər. Oyun zamanı hər dəfə zər atmaq istəyəndə üç dəfə "subhanəllah" deyirdi, uşaqlar da narazılıqlarını bildirirdilər:

–Oyunun ortasında zikr demək nə üçündür?!

Bəzən də acılayırdılar:

–Riyakarlıq edirsən!

Bir dəfə Əli cibindən bir kağız çıxardı. Kağıza məsum imamlardan bir neçə hədis yazmışdı. Dedi: "Peyğəmbər də olsan, camaatın dilindən amanda deyilsən... - sonra üzünü ona çox sataşan adama tutub əlavə etdi:

–Mən özümçün yaşayıram, heç kimə də dəxli yoxdur. Sən öz işinlə məşğul ol!”

Sanki bu dünyaya Allahın dediklərinə əməl etmək üçün gəlmişdi. Bəzən Rəhbəri görmək həvəsi o qədər başına vururdu ki, öz-özünə deyirdi: "Kaş həzrət ağa indi burada olaydı!"

Bir dəfə məqbərənin həyətində oturduğu yerdə bu ab-havadaydı, həsrətlə deyirdi: "Əgər gəlsəydi, gedib əlini öpərdim!"

Kənardan bir nəfər onun xəyal aləmində olduğunu görüb dedi: "Sən hardasan?! Ağa burda nə edir?!"

Həmin anda Ayətullah Məkarim Şirazi məqbərənin həyətinə daxil oldu. Beş-altı nəfər idik. Əli dərhal ayaqqabılarını geydi, mühafizəçilər tərpənincə cəld

---

[1] Dostu və iş yoldaşı Həkimin söylədiklərindən

yaxınlaşıb ayətullahın əlini öpdü. Onun ardınca biz də getdik. Mühafizəçilər Əlinin bu qədər çevik hərəkətinə mat qalmışdılar. Məkarim Şirazi onun təqlid müctəhidi deyildi, o, Böyük Rəhbərə təqlid edirdi. Hər halda, öz təqlid müctəhidimi görmək mənə nəsib oldu.

Kiminsə arxasınca bir söz deyilsəydi, ilk etiraz edən Əli olurdu. Bir dəfə uşaqların biri dedi:

– Nədir, Əli, doğru deyirəm!

– Elə doğru deyəndə qeybət olur... Yalan desən, böhtandır!

Əhəmiyyət verilməyəndə sözünü deyib həmin yeri tərk edirdi.

Onu hamı tanıyırdı, bilirdilər ki, başqa bir aləmdədir. Bir mayor deyirdi: "Bunda uzaq işıqlar yanır! Şəhid ola bilər!"[1]

***

Tanınmaz, amma fəal idi, xüsusən də dini işlərdə. Əzadarlıqda və xüsusi dua məclislərində həmişə fəal iştirak etsə də, bir kənarda dayanır, gizlənməyə çalışırdı; ya mətbəxdə məşğul olurdu, ya da ayaqqabıları alıb saxlamaq işinə baxırdı. Ramazan ayının ilk on günündə məni məsumlar məscidində gördü, hal-əhval tutandan sonra dedi: "Əgər vaxtın olsa, “Salehin” heyətinin məclislərinə gəl".

Qəbul imtahanlarına hazırlaşdığıma görə çox da həvəs göstərmədim. Fikri faydalı idi. Mərkəzin uşaqlarını bir növ hidayət etməyə, onlara yol göstərməyə çalışırdı. Təhsili bitirəndən sonra Əlinin ara-sıra mənə ötürdüyü düşüncələrlə qərara gəldim ki, cənuba döyüş zonalarını ziyarət etməyə gedim. 2017-ci ildə, novruz bayramından

[1] Dostu və iş yoldaşı Həkimin söylədiklərindən

bir neçə gün öncə "Nur yolçuları" ekskursiya qrupu ilə yola düşdüm. Çatan kimi onu görüb maşından endim. Ziyarətçilərə üzərlik yandırırdı. Onu görüb sevindim. Gülər üzündə böyük cazibə qüvvəsi vardı. Bir qədər söhbətləşdik. Deyəsən, bir neçə gün idi oradaydı, hələ bir neçə gün də xidmətçi kimi qalacaqdı. Düşərgəyə gedib əşyalarımı qoydum, sonra yenə onun yanına qayıtdım. Ustad Babayinin Məhdəviyyət dərslərindən və adətən Ərdəbildə getdiyi cərəyanşünaslıq dərslərindən danışdı, sadə telefonunu göstərib gülə-gülə dedi: "Bu telefonla heç bir yerə qoşulmamışam, Ərdəbildən də xəbərim yoxdur. Heç olmasa, sən bizə xəbər ver".

Özümü üzərliyinə yaxınlaşdırmaq istəyəndə güldü. Baxıb gördüm ki, üzərliyə oxşayır, ancaq qalxan yalnız kömürün tüstüsüdür.

– Bəs üzərliyi hanı? – deyə soruşdum.

– Gözüvə qurban, üzərlik qutarıb, – gülüb dedi.

– Kömək lazımdır?

– Gözüvə qurban, – əlini sinəsinə qoyub dedi.

Ondan sonra bir müddət az göründü. Bilirdim ki, Tehrana gedir. Çox məlumat vermirdi. Fəaliyyətləri, yaxşılıqları - hamısı tanınmaz qalırdı, eynilə özü kimi.[1]

---

[1] Dostu Mikayılzadənin söylədiklərindən

# 6

# Mən uşaq deyiləm

Korpus Əlini azdanışan və aztapılan etmişdi. Ona deyirdik ki, səni görmək üçün gərək öncədən vaxt alaq.

Şam yeməyində də çox vaxt bizimlə olmurdu; ya Bəsic mərkəzinə gedirdi, ya əzadarlıqda olurdu, ya işdə, ya da ezamiyyətdə. Bəzən hansı bölmədə işlədiyini israrla öyrənmək istəyəndə deyirdi: "Korpusda olduğumu bil, kifayətdir; qalanı çox da önəmli deyil".

Deyirdim ki, katibən olmuşam. Çünki xırda işlərinin çoxunu mənə söyləyirdi, mən görürdüm: adi mobil telefonundakı əlaqələr siyahısını tərtib etməkdən tutmuş öz telefonumun internetindən Rəhbərin çıxışını yükləməyə qədər.

Bir müddət idi ərəbcə-farsca və farsca-ərəbcə sözlərin tərcüməsi yazılmış müxtəlif dəftərçələr gətirirdi. Mən onlardan mühüm sözləri çıxarırdım, əzbərləyirdi. Təəccüb edirdim. O, heç vaxt ərəb və ingilis dillərinə maraq göstərməzdi. Düşünürdüm ki, niyə bunları oxuyub əzbərləmək istəyir. Nəhayət, bir dəfə dedim:

– Əli, şübhəli görünürsən ha!

– Sənin işin olmasın... Yalnız yaz və mənə kömək elə.

Harada şəhid şəkli görürdüsə, tez divara vurur və onunla şəkil çəkdirirdi.

Suriyaya getməsi barədə bizə bir söz deməzdi. Lakin korpusa daxil olduğu gündən təxmin edirdim ki, bir gün bunu edəcək. Korpusa girməsi özünü təkfirçilərlə döyüşə yetirməsi üçün yeganə yol idi. Bunu bir gün kürəkənimizin bir sözündən sonra anladım. O dedi:

– Deyirlər ki, Əli Suriyaya gedir.

– Yox, Əlinin Suriyada nə işi var?! – deyə Süməyyə onun zahirən yersiz sözünə tez reaksiya verdi.

– Əgər getsə, bizə deyər, – dedim. – Mən ondan soruşaram.

Həmin axşam Səreynə gedəcəkdik. Əli gələn kimi bu məsələ yadıma düşdü. Dedim:

– Əli, deyirlər ki, sən Suriyaya getmək istəyirsən.

Güldü. Bildim ki, bildiyini edib. Bu təbəssüm "bəli" demək idi. Lakin əmin olmayıb gözlərimi ağzına dikdim. Hər üçümüz ondan cavab gözləyirdik.

– Hələ ki burdayam, - dedi, - ancaq imkan olsa, gedəcəyəm. Mən getməsəm, kim getsin?!

– Sən niyə, Əli?! – deyə Süməyyə kövrəlib ağlamağa başladı. – Bu qədər adam var! Sən ananı və bacılarını düşünsən, özü nə qədər işdir!

Süməyyənin reaksiyasını görüb güldü.

– Bu da bizimçün şəhid bacısı! Bax, Süməyyə xanım, əgər sabah, ya birisi gün bu hadisə baş versə, sən şəhid bacısı olacaqsan, gərək düşüncələrin dəyişsin. Sən indidən belə rəftar etsən, mənim başıma bir iş gələndə nə edərsən?

Süheyla ilə mən dinmədik; etiraz da etmədik. Süməyyə titrək səslə dedi:

–Bəs bilmirsən ki, İŞİD günahsız insanların başına nə oyun açır?

–Hamısı təbliğatdır, bacı, – Əli dedi.

–Çox deyirlər, amma İŞİD elə də qorxulu bir qüvvə deyil. Onlar yalnız camaatı qorxutmağa çalışırlar. Buna görə də İŞİD adı gələn kimi hamı qorxur, daha fikirləşmirlər ki, sayları nə qədərdir, ya da bizim onlara qarşı gücümüz nə qədərdir. Adət ediblər, İŞİD-in baş kəsdiyini eşidən kimi qorxurlar. Hətta bəzi şəhərlərin əhalisi İŞİD-in gəldiyini eşidəndə qorxudan ev-eşiyini atıb qaçıb. Belə olan halda istəyirsiniz ki, İŞİD gəlib qapımızın ağzında dayanandan sonra mən gedim?

Süməyyə gözlərinin yaşını sildi, bir söz demədi.

–Yadınızda qalsın, kim desə də, siz deyin ki, bizim qardaşımız Əli Əkbərdən artıq deyil, bizim müsibətimiz də heç vaxt həzrət Zeynəbin müsibətinə çatmaz. Evdə də çalışın anamı mənəvi baxımdan hazırlayın.

Süməyyə Ərdəbildən Səreynə qədər gözlərinin yaşını tökdü. Biz də İŞİD-i və təkfirçiləri lənətlədik. Səreynə getdik. Bizdən söz aldı ki, namazı ilk vaxtda qılmaq üçün azan vaxtı özümüzü yetirək.

Yolda tanışların biri tez-tez zəng vurub Əlidən onun oğlu üçün yaşıl kart verməsini istəyirdi. Əli narahat olub deyirdi ki, mən onu ildə bir dəfə də Bəsic mərkəzində görmürəm, ona necə kart verim?! O deyirdi: "Nə olsun ki, qohumumdur?! Arabir məscidin camaat namazında və ya “Salehin” heyətinin məclislərində iştirak etsə, nə olar?! Belə olsa, mən də Allah yanında üzüqara olmaram".

Üstəlik, Əlini hədələyir, onunla sərt danışırdılar. Səreyndən qayıdanda söhbətimizin mövzusu bu oldu. Bizdən məsləhət istəyirdi. Biz də dedik: "Sən gərək Allahı nəzərə alasan, dost-tanışı yox!"

Getmək barədə sözləri ilə hamının fikrini qarışdırmışdı. Məlum oldu ki, kürəkənimiz boşuna danışmırmış, xəbərsiz olan bizmişik.

Evə döndük. Əlinin qərarından hər üçümüz şokda idik. Bilirdim ki, ilk fürsətdə getmək niyyətindədir.

Çox çəkmədən evdə də bu barədə söhbət düşdü və anam od üzərindəki üzərlik kimi oldu. Əli gözlərini bizə dikmişdi, öncədən bizimlə danışdığına görə onu müdafiə etməyimizi gözləyirdi. Ancaq hansının tərəfini tutsaydıq, o biri inciyərdi.

Evdə işi anamla gedib-getməmək barədə mübahisədən ibarət olmuşdu. Anam gözləyirdi ki, biz onu təsdiq edək, Əli də gözləyirdi ki, onu. Onların arasında tarazlıq yaratmaqdan ötrü anamıza ancaq bunu deyə bildik: "Özü daha yaxşı bilər. Əgər qərarını veribsə, bizim müdaxiləmiz yersizdir və qarşısını ala bilmərik".

Ondan sonra hər dəfə pis yerə getmək istəmədiyini, seçdiyi yolun Allah yolu olduğunu söyləyəndə anam əsəbiləşir, bizə deyirdi: "Hamısı sizin günahınızdır. Əgər onun başına bir iş gəlsə, vay halınıza!"

Xüsusən də böyük bacımdan şübhələnirdi, Əlinin qərarını ən çox ondan bilirdi. Xəbəri yoxdu ki, həmin gün Səreyn yolunda Süməyyə nə qədər ağlamış, Səreyni burnumuzdan gətirmişdi.

Anamız bizi o qədər təhdid etdi ki, axırda məsələni Əliyə söyləmək məcburiyyətində qaldıq. Mən ona dedim:

– Anam elə bilir ki, səni Süməyyə həvəsləndirib; həmişə onu danlayır. Bundan sonra özün bir şey fikirləş.

– Əvvəla, mən uşaq deyiləm ki, kiminsə sözü ilə hərəkət edim, – Əli dedi. – İkincisi, məgər Suriya Avropa kimi əyləncə yeridir ki, kimsə məni həvəsləndirsin?! Ora elə bir yerdir ki, insan özü istəmədən gedə bilməz.

Anam korpusdakı tanışlardan birinə zəng vurub dedi ki, Əli getmək istəsə, ona mane olsun. Təsadüfən, o da anamın istəyi ilə razılaşdı. Bir dəfə Əli məsələdən xəbərsiz halda dedi:

– Məni hər yerdən o qədər tapşırıblar ki, bir neçə dəfə ad yazdırmışam, amma adımın üstündən xətt çəkiblər.

Bir dəfə məndən soruşdu:

–Solmaz, anam razı deyil. Səncə, onun razılığı olmadan getsəm, necə olar?

–Məncə, problem olmaz, çünki sən yetkin bir insansan, Əli!

Eşitmişdim ki, səkkizillik müqəddəs müdafiə dövründə kimin ata-anası icazə vermirdisə, imamın icazəsi ilə cəbhəyə gedə bilirdi. Buna görə dedim:

– Arxayın olmaq istəsən, bir təqlid müctəhidi ilə məsləhətləşə bilərsən.

Məsləhətləşib-məsləhətləşmədiyini bilmədim, amma təlimə adını yazdırdı. O deyirdi: "Təlim müddəti bir ildir. Lakin həmin bir il ərzində nə vaxt ezam olsa, gedəcəm".[1]

***

İşləri bir-biri ilə mübahisə etməkdən ibarət olmuşdu. Parkda, evdə, birlikdə olduqları hər yerdə söhbət açılırdı; Əli israr edir, anamsa razılaşmırdı. O, anamı razı salmaq üçün hər bir yola əl atır, amma qane edə bilmirdi. Saqqalını tumarlayıb tarixdəki analardan müxtəlif misallar çəkirdi: Ümm-Vəhəbdən, Əli Əsğərin anası Rübabdan, Əli Əkbərin anası Leyladan, həzrət Zeynəbin səbrindən, müsibətlərindən... Lakin anamın zərrə qədər razılığını da ala bilmirdi.

---

[1] Bacısı Solmazın söylədiklərindən

Həmin ilin ramazan ayının əvvəllərində anam bir müddət idi kəndə atası evinə getmişdi, Əlinin yanında olmaq üçün mənə yaxşı fürsət yaranmışdı. O, 2016-cı il 31 iyulda getdi. Sübh saat 07:30 dəqiqə idi. Anam olmadığına görə onu Süheyla ilə mən yola saldım. Həmişə anam onun arxasınca su atıb Quranın altından keçirirdi, Ayətül-kürsi oxuyurdu. Bu dəfə o işləri mən gördüm. Hava hələ işıqlaşmamışdı. Əli evdən elə sakitcə çıxdı ki, atam oyanmasın. Saat neçədə hərəkət edəcəklərini bilmədiyi üçün yatmazdan qabaq atamla sağollaşmışdı.

Ertəsi gün anam bunu biləndə narahat olub dedi:

– Niyə getməyə qoydunuz?

– Nə edə bilərdin?

– Özümü atardım maşının altına, – çox narahat halda dedi.

– Onun üçün dua et, – dedim.

Əlimizdən gələn yeganə iş bu idi. Ondan sonra nə baş verirdisə, tez Əliyə xəbər verirdik. Həmin gün də anamın iztirabını və bizə ciddi şəkildə söylədiyi sözləri eşidəndən sonra qərara gəldim ki, bunları Əliyə deyim. O dedi: "İnşallah, düzələr. Allaha təvəkkül! Özüm zəng vurub onunla danışaram".

Danışandan sonra da anamın nigarançılığı azalmadı və fikri dəyişmədi. O, bəzən məzuniyyətə gəlirdi. Demişdi ki, bəlkə, bu müddətdə sizə zəng vura bilmədim, çox narahat olmayın. Təkidlə bildirmişdi: “Hətta başqa bir nömrə ilə zəng vura bilərəm. Hər halda, əsla nigaran qalmayın, əmin olun ki, salamatam və sizi düşünürəm”. Anamsa dilxor halda demişdi: "Ən azı həftədə bir dəfə mütləq mənə zəng vur".

Əli razılaşıb demişdi: “Söz verirəm ki, ən azı, cümələr səninlə əlaqə saxlayım. Əgər bir cümə zəng vura bilməsəm də, narahat olma, ola bilsin, təlimdə oldum”.

Ondan sonra hər cümə günü Əlini gözləyirdik. Kimə zəng vurmasa da, anama mütləq zəng vururdu. Cümə günləri anam telefonu qarşısına qoyub gözlərini ona dikir, Əlinin adının yazılmasını, onun gülüş səsinin gəlməsini gözləyirdi. Ancaq, ondan fərqli olaraq, anam hər dəfə ağlayır, evdə yerinin boş qaldığına görə gileylənirdi. O deyirdi: "Razıyam ki, fəhləlik edəsən, amma evdə yanımızda qalasan!"

Əli isə deyirdi: "Ana, xahiş edirəm, mənimlə yaxşı danış. Heç nə olmayacaq. İndi ki bu yolu seçmişəm, çalış razı ol və məni fikrimdən döndərməyə çalışma".

Sözləri anama təsir etmirdi. Əli də geri çəkilmirdi, anamın onun şəhadətindən qorxduğunu hiss edəndə həmişə razılığını almağa çalışırdı. O deyirdi: "Əvvəla, şəhadət üçün ləyaqət lazımdır. İkincisi, tutaq ki, getdim. Səncə, burada qalsam, ömrüm bitsə, ya da maşının altında qalsam, yaxşıdır, yoxsa şəhid olsam və mənimlə qürur duysan? İstəmirsən ki, mən olmayanda hamı başına dolansın?! Sən indi belə edirsənsə, sabah necə insanların arasında danışıb şəhadəti təbliğ edə bilərsən?!"

Əli Süməyyənin qızı İlahəyə zarafata deyirdi: "Xoş halına! Hara getsən, deyəcəksən ki, dayım şəhiddir. Bəlkə, ali məktəbə qəbul olanda xüsusi imtiyaz da verdilər".

İşi bu idi: deyib-gülürdü. Anama qalan isə göz yaşları və giley-güzar idi; getdiyinə və nə vaxt başlayacağı bilinməyən ezamiyyətə görə. Bir dəfə telefonda anamın ağladığını eşidib dedi: "Axı hələ bir şey olmayıb ki, sən belə ağlayırsan! Nə qədər ki sağam, gül... Bir də gördün

getdim, çox narahat olacaqsan ki, niyə bu qədər fürsəti əldən vermisən!"

Evdə gəzişə-gəzişə telefondan dediyi sözlərinə qulaq asırdım. Qala bilməyib birinci mərtəbəyə düşdüm, pilləkənin yanında dayandım. Hələ anamın ağlamaq səsi gəlirdi. Əlini bu qədər narahat etdiyinə görə hirslənirdim. Danışıqları bitəndən sonra Əli dərhal mənə zəng vurdu. Mən cavab verən kimi dedi:

– Bəs niyə anam belə edir?

– Bacarmıram, öhdəsindən gələ bilmirəm, – dedim.

Sonra anamın yanına gedib dedim: "Ana, Əlinin yaşıdlarına bax, küçədə dayanıblar. Sən gərək Əli ilə fəxr edəsən".

Sözlərimə məhəl qoymurdu. Çalışdım ki, daha onu danlamayım. Çox israr edəndə deyirdi ki, onu siz yoldan çıxardınız, siz həvəsləndirdiniz.

Əli gedəndən sonra bütün günlərimiz anamla Əlinin mübahisələri ilə keçirdi; gələndə evdə və gəzməkdə, gedəndə də telefonda.

Hətta deyirdi: "Dua edirəm ki, hansı gedişinin dönüşü olmasa, bir hadisə baş versin, səni göndərməsinlər".

Əli narahat olub:

– Bu nə sözdür, ana? Belə dua edərlər?! Əvvəla, sən gərək bütün döyüşçülərin salamatlığı üçün dua edəsən, sonra da Allahdan mənim salamatlığımı istəyəsən, – deyir, sonra mehriban şəkildə anama baxıb əlavə edirdi: – Birdən bu duaların və sözlərinlə mənim taleyimi dəyişdirərsən ha, ana! Qoy Allah mənim üçün nə məsləhət görürsə, o da olsun. Üstəlik, məgər sən İmam Mehdi (ə) namazına getmirsən?! Sən gərək İmam Mehdiçi olduğunu əməlində də göstərəsən. Yoxsa nə üçün hər gün namaza gedəsən? Demək istəyirsən ki, ağa, əgər gəlsən, mən əziz oğlumu

sənə kömək etməyə göndərməyəcəyəm?! Belə namaz olar, ana?!

Aylar idi evdə belə hadisələr təkrarlanırdı. Bir müddətdən sonra atamın əmisi oğlunun şəhadət xəbəri gəldi. Noyabr ayı, sərhəddə xidmətinin son günləri idi. Mən xüsusi hadisələri Əliyə söyləməyə adət etmişdim. Amma bu dəfə Süməyyə qoymadı.

– Niyə narahat edəsən?! Nə vaxt məzuniyyətə gəlsə, özümüz deyərik.

– Yox, Əli heç kimin şəhadət xəbərindən narahat olmur, – dedim.

Bir neçə dəfə telefonuna zəng vurdum; sönmüşdü. Axırda Kazimin şəhid olduğunu ona söylədim. Əvvəlcə dinmədi. Mən peşman olub Süməyyənin sözünü xatırladım.

– Əli, narahat oldun? – deyə soruşdum. - Bağışla, dadaş.

– Yox...

Ancaq hiss etdim ki, narahat oldu və ona qibtə etdi.

Onunla danışandan sonra bazara getdim. Harada Kazimin şəhadəti ilə bağlı elan görürdümsə, özümdən asılı olmadan onun yerində Əlinin şəklini təsəvvür edirdim, ürəyim od tutub yanırdı. Bazardan evə qədər dayanmadan ağladım. Bu, nə fikir idisə, başımdan çıxmırdı.[1]

***

Hər bir şəraitdə etiqadlarına bağlı idi. Eyni zamanda çoxdandır xəstə yatağında yatan əmimiz oğlu da dünyasını dəyişdi. Yenə zəng vurub onun vəfat xəbərini söylədim, dedim ki, əgər mümkün olsa, məzuniyyət alıb məclisinə

[1] Bacısı Solmazın söylədiklərindən

gəlsin. Yeddisindən bir gün qabaq gəldi. Gecə çatdı. Ona dedim:

– Sabah mütləq əmidostunu gör, başsağlığı ver və gec gəldiyinə görə üzr istə.

– Yaxşı.

Ertəsi gün məzarlığa getməyə hazırlaşanda Süməyyə Əliyə dedi:

– İndi vaxtdır: get əmidostunu gör və başsağlığı ver.

Nə qədər israr edirdiksə, getmək istəmirdi. Dedik ki, niyə belə edirsən. Dedi:

– Vallah, indi içəri girsəm, çoxdandır məni görmədiklərinə görə qohumların hamısı gəlib görüşəcək, məhrəm-naməhrəm bir-birinə qarışacaq, əl verməsəm də, narazılıq yaranacaq.

O qədər gecikdi ki, axırda ev boşaldı. Əmidostunu bayıra çağırdı, orada başsağlığı verib qayıtdı.

Uzun müddət idi çox dəyişmişdi. Əvvəllər az-çox toylara gedirdi, sonralar isə belə bir dəvət alanda gözləyib axırda gedir, tez qayıdırdı. Spirtli içki verilən və digər şəriətdən kənar hərəkətlərin edildiyi toylara isə əsla ayağını qoymurdu.

2017-ci ildə aprelin ortalarında səhər saat 8-də işdə idim. Bacım zəng vurub dedi ki, sübh çağı yolda atamı bir maşın vurub qaçıb. Süməyyə deyirdi ki, əgər mümkünsə, onlar gələnə qədər icazə alıb yanına gedim. Yenə fikirləşdim ki, bunu Əliyə söyləyim, yoxsa yox. Öz-özümə dedim: "Ağıllısı budur ki, kimsə bu xəbəri qəfildən söyləməmiş özüm sakitcə deyim".

Atamın yanına gedib oradan zəng vurdum, məsələni Əliyə söylədim. Narahat oldu. Dedim: "Narahat olma, atam çox yaxşıdır, ancaq bir az ayaqları zədələnib. Kim zəng vurub böyütsə, əsla narahat olma".

Dedi ki, tezliklə özünü yetirəcək. Dedim: "Yeganə problemimiz budur ki, kişilər bölməsindədir, bizim də səndən başqa bir adamımız yoxdur ki, yanında qalsın. Əgər imkan olsa, məzuniyyət al; olmasa da, narahat olma, bir yolla həll edərik". Yenə təkidlə bildirdim ki, kim başqa cür danışsa, əsla inanma.

Ertəsi gün evə çatan kimi əşyalarını qoyub tez xəstəxanaya getdi. Atamın palatasına girəndə gördük ki, şkafın siyirməsini yeyinti məhsulları ilə doldurub; gəz və şokoladdan tutmuş müxtəlif meyvə və kompotlara qədər hərəsindən bir az alıb aparmışdı. Hətta onu gündə bir neçə dəfə xəstəxananın həyətinə siqaret çəkməyə çıxarırdı.

Onu düz-əməlli görmədik. Həmişə xəstəxanada qalıb atama qulluq edirdi. Gündüzlər xəstəxananın idari və sığorta işlərini görürdü, gecələr də onun yanında qalırdı. Nə qədər deyirdiksə, qulaq asmırdı, bütün xəstəxana işlərini təkcə özü görmək istəyirdi.

Xəstəxanada yatdığı son günlərdə atamın halı bir qədər yaxşılaşmışdı, kiminsə yanında qalmasına ehtiyac yox idi. Digər tərəfdən, Əlinin məzuniyyəti də bitmişdi, ancaq yorulduğuna görə dedik ki, ən azı bir gecə də evdə yatıb yaxşı istirahət etsin. O isə razılaşmadı. Həmin gecə yenə onunla xəstəxanaya getdik. İçəri girəndə təkidlə tapşırdıq ki, tez qayıdıb bir qədər istirahət etsin. Amma həyətdə nə qədər gözlədiksə, gəlib çıxmadı. Bir müddətdən sonra birdən-birə peyda oldu.

– Əli, harda qaldın? – deyə Süməyyə soruşdu.

Maşında nəsə axtara-axtara cavab verdi:

– Atamın çəkələyinə bağlamaq üçün rezin axtarıram.

– Rezin niyə bağlayırsan? – maşına oturub dedik.

– Ayağına gips qoyublar, şişib, çəkələk geyə bilmir. Rezin bağlamaq istəyirəm ki, gecə tualetə getmək istəsə, rahat geyinsin, ayağından çıxmasın.

Gecə saat 12-ə qədər orada qaldıq. Əli atamın siqaretini də verdi, çəkələyini də düzəltdi. Ertəsi gün, aprelin 20-də atam xəstəxanadan çıxdı. Əli Tehrana qayıdacaqdı. Gips atamın ayağını incidirdi, bilirdim ki, Əlidən sonra dözə bilməyib onu açacaq. Məsələni Əliyə söyləyəndə dedi: "Narahat olmayın, özüm tapşıraram".

Atam Əlinin sözünü eşidirdi. O tapşırandan sonra hamı arxayın oldu ki, gipslə işi olmayacaq. Əli həmin axşam gedəcəkdi.[1]

---

[1] Bacısı Solmazın söylədiklərindən

# 7

# Zəng gözləyirəm

– Sənə bir günorta yeməyi borcluyam, – mənə dedi.

– Eybi yoxdur. Bundan yaxşı nə ola bilər ki?! – səbəbini soruşmadan gülüb dedim.

– Gözüvə qurban! – deyə həmişəki gözəl təbəssümünü təqdim etdi.

Bilirdim ki, telefonla danışsa da, həmin anda saqqalını tumarlayır.

– Hardasan, dadaş? – soruşdum.

– Atamı xəstəxanadan çıxarıram.

Eşitmişdim ki, atası qəza keçirib, xəstəxanada yatır. Ancaq deyəsən, Əlinin getmək fikri vardı.

Növbəti dəfə əlaqə saxlayanda dedi:

– Bankdayam. Sən gəlincə mənim işim bitəcək. Tez özünü yetir.

Onun yanına getdim, birdən-birə zarafata keçib dedim:

– Əli, get, gəl, inşallah, yavaş-yavaş səninçün qollarımızı çırmayaq.

– Gözüvə qurban, hacı! Keçələ kim qız verər? – yenə gülüb dedi.

– Yox, əşi! Papaqlarını göyə atsınlar! Sənin kimisini haradan taparlar?!

– Əgər mən evlənsəm, gərək bütün keçəllər evlənsinlər, - şaqqanaq çəkib dedi.

Lalə restoranına getdik. Bir müddət idi endirim kartımızı ləğv etmişdilər. Məcbur qalıb ümumi qiymətə xörək yedik. Pulunu Əli verdi. Dedim:

– Niyə bu qədər pul verdin? Həmişə üç-dörd min tümənə yediyimiz xörəkdi.

– Kartımda o qədər pul var ki, daha demə... Kimdir onları xərcləyən?! Mən ki qurtara bilmərəm. Həm anamın hesabına pul köçürdüm, həm də bacımın. Daha arxayınam.

Ertəsi gün gedəcəkdi. Dedi:

– Gedək evə, əşyalarımı götürüm. Reys olsa, bəlkə, bir gün tez getdim. Quma baş çəkmək istəyirəm.

Həzrət Məsumənin məqbərəsini ziyarət etməyi çox sevirdi. Quma tez-tez getdiyinə görə uşaqlar zarafatlaşır, onu ələ salırdılar.[1]

***

Bacıları onu axşam avtovağzala qədər ötürürdülər. Mən özümü saxlayırdım, onlar gedəndən sonra ağlayırdım. Həmin günsə Əli çantasını götürdü, aşağı düşdük. Ürəyim sıxılırdı. Görüşəndə özümü saxlaya bilmədim, gözlərimdən yaş axdı. Dedi:

– Ana, mənə bax... ağlayır... pis oldu... İndi dostum görəcək, biabır olacam, - qapını bağlayıb əlavə etdi: - Tez ol, gözlərini sil.

Özümü saxlaya bilmədiyimi görüb dedi:

- Daha getmirəm.

---

[1] Dostu Səidin söylədiklərindən

Suyu hazırlayıb pillənin üstünə qoymuşdum. Yenə yaxınlaşıb qollarını boynuma saldı, üzümdən öpdü. Özümü saxlaya bilmirdim, gözlərimdən dayanmadan yaş axırdı.

– Ana!

Yaylığımın ucu ilə gözlərimi sildim. Mehribancasına dedi:

– İndi ki belə edirsən, heç getməyəcəyəm.

– Get daha, – tez əl-üzümü yuyub dedim:

– Getmirəm, – deyib güldü.

Yenə islanıb ağırlaşmış kirpiklərimi silib onu Quranın altından keçirdim. Ayağını bayıra qoyan kimi güclü yağış və dolu yağmağa başladı. Küçənin başına qədər bir neçə dəfə dönüb mənə baxdı. İşarə ilə bildirirdi ki, qayıdım. Başımla təsdiqləyirdim, amma getmirdim, göz yaşlarım yağış suyu ilə birlikdə üzümə axırdı. Sanki göylərin də mənə yazığı gəlirdi.

Günortadan sonra qayıtdı. Səbəbini soruşanda dedi: "Sən ağladın, mən də getmədim".[1]

***

Günortadan sonra, saat 4-ün yarısı idi. Evə getdi. Qayıdanda əvvəlki adam deyildi. Çox narahat idi. Anası onun arxasınca bayıra çıxdı. Əli hövsələsiz halda dedi: "Sür, Səid!"

Kövrəlmişdi. Küçənin tinindən dönənə qədər maşının güzgüsündən anasını görürdüm: Qapının yanında yağışın altında dayanıb bizə baxırdı. Əvvəllər bir neçə dəfə onu evlərindən götürmüşdüm. Həmişə evdə görüşürdülər, anası arxasınca bir kasa su atıb qayıdırdı. Bu dəfə isə biz dönənə qədər dayandı. Bizdən sonra daha nə qədər küçədə

---

[1] Anasının söylədiklərindən

qaldığını da bilmədik. Əli narahat halda, bir kəlmə də kəsmədən oturmuşdu. Dedim:

– Əli, nə olub? Niyə narahatsan?

– Heç nə! – deyə həmişəki kimi ailəsindən bir söz deməməyə çalışdı.

– Bəs anan niyə narahat idi?

– Vallah, özüm də bilmirəm. İndiyə qədər belə olmamışdı. Bu dəfə çox narahat oldu.

Hava limanına getdik, nə qədər axtardıqsa, bilet tapmadıq. Dedi:

– Gecə avtobusla gedərəm.

İsrarla Quma getmək istəyirdi. Bu dəfə hərəkət və davranışları dəyişmişdi. Bilirdim ki, Tehrandadır, hələlik şəhadət imkanı yoxdur. Bir tərəfdən də onun barəsində belə fikirləşməyə ürəyim gəlmirdi. Biletin tapılmadığını görəndə dedi:

– Yaxşı oldu. Məhəmmədtağıya dondurma söz vermişdim. Gedim onu aparım, arxayın olum.

Tez əlaqə saxlayıb meydanda görüş təyin etdi. Axşamüstü saat 5 idi. Meydana çatanda həmişəki kimi maşında sağollaşmaq istəyəndə qoymadı, dedi ki, düş aşağı.

Təəccüb etdim. Düşüb maşını dövrə vurdum, ona yaxınlaşdım. Əl verib üzümdən öpmək istəyəndə dedi: "Qolunu boynuma sal!"

Heyrətlə ona baxdım.

– Sal, Səid, daha məni görməyəcəksən, - dedi.

– Sən Allah, bəsdir, – narahat halda dedim, – səhərdən hey ayrılıqdan danışırsan; deyirsən ki, pullarımı xərcləyib qurtara bilmirəm, indi də belə. Gethagetdəsən. Sənə nə olub?

– Doğrudan deyirəm, hacı. Bu, son görüşümüzdür... Qolunu sal boynuma!

Bərk qucaqlaşdıq. Bacardığım qədər üzündən öpüb ona salamatlıq arzuladım. Bu zaman dostu Məhəmmədtağı gəldi, birlikdə getdilər, mənimsə fikrim onun səhərdən təkrarladığı sözlərində qaldı. Anası ilə xüsusi tərzdə sağollaşması, onu yola salanda anasının halının dəyişməsi, pulunu xərcləməyə fürsət tapmadağını söyləməsi və getməzdən öncə verdiyi sözlərə əməl etməsi...[1]

***

Əlini maşına mindirib dondurma yeməyə getdik. Bir qədər sakit idi. Dedim:

– Mənimlə nə işin vardı?

– Səndən bir xahişim var.

– Nə xahişi?

– İstəyirəm ki, Rəhbərin saytına girəsən, görəsən ki, birinin beytülmala borcu olsa, onu necə ödəməlidir?

Belə bir şey fikirləşdiyinə görə təəccüb etdim. Başında həmişə dini fikirlər dolaşırdı. Bir tərəfdən də qorxub öz-özümə dedim: "Bu, dünya hesablarını sıfırlamaq deməkdir!"

– Niyə ki? – deyə udqundum.

– Uşaqlıqda bir avtobusun oturacağını cırmışam. Məktəbdə bir neçə təbaşir də sındırmışam deyəsən. Bilmək istəyirəm ki, bunları necə həll etmək olar?

Bildim ki, ezam zamanı çatıb. O günlərdə atasını xəstəxanadan təzə çıxarmışdı. Bir qədər söhbətləşib həmişəki kimi dərdlərimizi bölüşdük. Ailə söhbətlərini çox da açmasa da, qısaca dərdləşdik. Sonra sağollaşdıq və getdi. Görüşüb-öpüşəndə mənə dedi:

---

[1] Dostu və iş yoldaşı Səidin söylədiklərindən

– Mən olmayanda atamdan muğayat ol.

– Tez qayıt, inşallah, gərək ailə qurasan!

– Keçələ qız verməzlər!

Yadıma düşdü ki, anası ikimizi görəndə demişdi: "Məhəmmədtağı, sən niyə evlənmirsən?" Əli tez dillənmişdi: "O da mənim kimi keçəldir; bizə qız vermirlər!"

Bir saat idi Əlidən ayrılmışdım, amma hələ onu fikirləşirdim. Küçəmizdə gəzişə-gəzişə onunla sirlərimizi bölüşməyimizi, səmimi söhbətlərimizi xatırlayırdım. Həmişə bir yerdə idik: Səyyad Şirazi xiyabanında piyada gəzişib Zərnaz parkını dövrə vurur, qayıdırdıq. Darıxan kimi maşını götürüb şəhərdə dövrə vururduq, ürəyimiz açılandan sonra qayıdırdıq. Elə bir gün yox idi ki, onunla birlikdə gəzməyək.

Məşhəddəki sözünü xatırladım. Bir gün narahat və dilxor olduğunu görəndə səbəbini soruşdum. Dedi:

– Məhəmmədtağı, zəng gözləyirəm.

– Əgər zəng vursalar, evlə nə edəcəksən? – deyə soruşdum. – Onlara nə deyəcəksən?

– Heç nə; deyəcəyəm ki, təlimə gedirəm... Məhəmmədtağı, məgər mənim Əli Əkbərdən nəyim artıqdır?! Yaxud anamın Fatimeyi-Zəhradan (ə) nəyi artıqdır?! Niyə narahat olsunlar ki?! İstəyirəm ki, İmam Mehdinin (ə) zühuruna kömək üçün bir iş görüm. Hardasa faydalı ola bilmirəmsə, niyə boşuna burda qalım?!

Daha mənə deyəcək söz buraxmadı.

– Məsləhətin nədirsə, özün necə istəyirsənsə, elə də elə, - dedim.

Ondan sonra internet saytına Əlinin sualını yazdım. Özü hər gün soruşurdu ki, niyə cavab yazmırlar. Bir neçə gündən sonra belə bir cavab gəldi: "Əgər hansı idarənin

olduğunu dəqiq bilirsinizsə, onların hesabına köçürün, əks-təqdirdə, bunu Milli bankda həll edə bilərsiniz".

Tez Əliyə xəbər verdim. Dedi:

– Onda sənin hesabına pul köçürəcəyəm, özün zəhmətini çəkərsən. İdarəsini isə bilmirəm. – Sonra həmişəki kimi əlavə etdi:

– Mənim üçün dua elə, Məhəmmədtağı...

Daha soruşmadım ki, niyə dua edim, nə etmək istəyirsən?

Bilirdim ki, uzun müddətdir gözlədiyi zəng gəlib və o, arzusuna çatıb.[1]

***

Aprel ayının son cüməsində komandirimiz korpusun yaradılmasının ildönümü münasibəti ilə cümə namazından öncə çıxış edəcəkdi. Əli əlaqə saxlayıb demişdi ki, mənimlə gələcək. Ona dedim: "Sən ki cümə namazı xidmətçisisən, Seyid Həsən Amilinin[2] namazına gedirsən!"

Öncələr hər dəfə onu bizim tərəfə dəvət edəndə deyirdi ki, Seyid Həsəni çox sevirəm, onun moizəsini dinləmək istəyirəm. Getmək istəyəndə yolda ondan soruşdum:

– Təzə çatmısan?

– Yox, məzuniyyətdən sonra bir neçə gün Qum və Məşhəddə oldum. Sabah da gedirəm, inşallah.

– Onda ziyarətin qəbul olsun, - deyib yenə onu qucaqladım.

Bir qədər də hədiyyə gətirmədiyinə görə onu ələ salıb şikayətləndim. Tez cibindən tünd qırmızı rəngli təsbehini

---

[1] Dostu Məhəmmədtağının söylədiklərindən

[2] Ayətullah Doktor Seyid Həsən Amili Fəqih Rəhbərin Ərdəbil vilayətində nümayəndəsi və şəhərin cümə imamıdır.

çıxarıb dedi: "Bu da sənin hədiyyən, zərihlərə sürtüb təbərrük etmişəm".

Namazdan sonra Nirdə iş yoldaşım Pənahinin yanına getdik. Gecə növbətçisi idi. Əli maşından düşmədi. Mən Pənahiyə dedim: "Dostum maşındadır, Suriyaya hərəm müdafiəsinə gedir. Gəl, sənin üçün dua etməsini istə..."

Bilirdim ki, həmin günlərdə gedəcək. Təlimləri bitmişdi. Pənahi gəldi, görüşüb öpüşdülər. Əli gülürdü. Pənahiyə dedim:

– Dostumun nuraniliyini görürsən? Bu, mütləq şəhid olacaq. Tez ol, ondan şəfaət sözü al!

– Yox, inşallah, yüz il yaşayacaq, – Pənahi Əlinin kürəyinə vurub dedi.

Əli tez reaksiya verdi:

– Yəni sən mənə şəhadət arzulamırsan?

Pənahi təəccübləndi. Əli dedi:

– Mömin gərək hamıya şəhadət arzulasın, çünki şəhadət əbədi yaşamaqdır. Məncə, insanın öz dostuna ən yaxşı arzusu şəhadətdir.

– İnşallah, əgər Allah məsləhət görsə, şəhid də olarsan, – Pənahi dedi.

Hava isti idi. Qayıdanda yolda dondurma almaq üçün saxladım. Dedim:

– Meyvə şirəsi də istəyirsən?

– Yox, sağ ol.

Həmişəki məsəli yadıma düşdü: "Örtülü bazar, dostluğu pozar". Dedim:

– Bilirəm ki, haqq-hesabına qarşı həssassan. Narahat olma, pulunu səndən alacağam.

– Yox, pul verməyəcəyəm, – gülüb dedi.

– Sən mərkəz komandirisən, mən də bir bəsici kimi səninlə gəlmişəm.

Vaflidə dondurma aldım. Yediyimiz yerdə dedi:

– Əhməd Daneşvər sabah Suriyaya gedəcək.

Əhməd onun döyüş yoldaşlarından idi, birlikdə təlim görmüşdülər. Dedim:

– Bəlkə, sən də onunla gedirsən, amma demirsən?

– Hələ məlum deyil.

Bilirdim ki, həssasdır, sözündə yalan ola bilməz. Dedim:

– Yox, bilirəm ki, getmək istəyirsən. De görüm, nə vaxt gedirsən?

– Məlum deyil.

Sözləri mənə ikibaşlı gəldi. Dedim:

– Yavaş-yavaş yalan söylədiyini hiss edirəm.

Bir söz demədi. Evlərinə çatdıq. Düşmək istəyəndə maşının qapılarını kilidlədim. Təəccüb etdi.

– Düzünü demədən səni maşından düşməyə qoymayacam.

– Nəyi deyim, Mürtəza?

– Nə vaxt gedirsən, inşallah?

Bir qədər mızıldadı.

– Nə qədər uzatsan, bir o qədər maşında qalacaqsan ha! – dedim.

– İndi ki əl çəkmirsən, sənə bir söz deyirəm, amma sən Fatimeyi-Zəhra, bir yerdə demə.

– Baş üstə!

– Xüsusən də evimizdə bilməməlidirlər. Əgər anam bilsə, özünü öldürər!

Artıq bildim ki, gedəcək. Odur ki tez dilləndim:

– Demədən getmək istəyirsən?

– Sənə deyirəmsə demə, yəni demə...

Çox ciddi danışdığını və qərarını verdiyini görüb yavaşca dedim:

– Əli, məncə, sən getməsən, yaxşıdır. Anan narahatdır, bacıların hələ yerbəyer olmayıblar, atan da xəstədir.

Eləcə mənə baxırdı. Nurlu üzünü görüb açıq söylədim:

– Üstəlik, bilirəm ki, getsən, qayıtmayacaqsan!

– Özüm də bilirəm, – yavaşca dedi. – Şaquli gedib üfüqi qayıdacağam!

Şübhəm yoxdu ki, döyüşə getsə, şəhadəti qaçılmazdır. Əxlaq və rəftarı eləydi ki, hətta bizim ailədə də onu sevirdilər. Kim onunla tanış olurdusa, tez ona bağlanırdı. Onu öz dövrümüzün Yusifi kimi görürdüm. Həzrət Yusif kimi qadın-kişi - hamı onu sevirdi.

Sözlərinin ciddiliyindən kövrəldim. Dedi:

– Narahat olma, Mürtəza. Əgər şəhidliyim İmam Mehdinin (ə) zühuruna kömək edəcəksə, Allahdan istəyirəm ki, şəhid olum; əgər sağ qalmağım kömək edəcəksə, istəyirəm ki, sağ qalım, lazım olsa, hətta əlil olum. Lakin mən şəhidliyi ən böyük kömək və ən üstün məqam bilirəm!

Bir-bir sözlərini deyirdi, mən də sakitcə qulaq asırdım. Telefonu da dayanmadan zəng çalırdı. Deyəsən, anası günorta yeməyinə onu gözləyirdi. Yenə məni and verdi ki, getməsi barədə heç kimə bir söz deməyim.

– Əgər proqramları dəyişməsə, mütləq gedəcəyik.

Görüşüb öpüşəndən sonra dedim:

– Əli, gərək o dünyada Sirat körpüsündən keçəndə mənə kömək edəsən.

Hədislərdə eşitmişdim ki, bir şəhid yetmiş nəfərə şəfaət etmədən cənnətə getməz. O dedi:

– Mən kiməsə şəfaət edəcək məqamda deyiləm. Ancaq sən dua elə, şəhid olum; əgər İmam Hüseyn (ə) icazə versə, o dünyada sənə də kömək edərəm.

Söz alıb sağollaşdım və bəzən onu avtovağzala apardığım günlərdəki kimi dedim:

– Axşam gəlib səni aparacağam.

– Yox, Mürtəza, gəlmə.

– Nə üçün?

– İstəyirəm ki, son dəfə bu küçələrdə addımlayım, tək gedim. Müqəddəs müdafiə dövrünün şəhidləri də çantalarını çiyinlərinə atıb küçədən tək keçirmişlər.[1]

---

[1] Dostu Mürtəzanın söylədiklərindən

# 8

# Şəkil çərçivəsi

Onun şəklini çəkib dedim: "Bu şəkildə Şəhid Babayiyə necə də oxşadın, Əli!"

Sevinib güldü. Hiss etdim ki, bu oxşarlığa görə şəkildən xoşu gəldi. Şəkli çıxartdırdım, onu sevindirmək üçün yaxşı çərçivə axtarmağa başladım. Bir neçəsini yoxladım, şəklə uyğun olmadığına görə almadım. Hava get-gedə qaralırdı, amma Əlinin zəngindən də xəbər-ətər yox idi. Hər an gözləyirdim ki, zəng vurub gileylənəcək və tez özümü evə çatdırmağımı istəyəcək. Ancaq bir müddət idi daha harada qalmışam deyə mənə acıqlanmırdı.

Güc-bəla ilə bir çərçivə bəyəndim. Amma artıq azan deyilmiş, hava tam qaralmışdı. Cəld evə yola düşdüm. Küçənin başında uzaqdan Əlinin əlində çanta həyətdən çıxdığını gördüm. Yerimdə quruyub qaldım. Boğulurdum. Əlimi çantaya aparıb çərçivəyə toxundum. Əlinin gözü mənə sataşdı, bir anlıq dayanıb gülümsədi. Yerişimi yeyinlədib ona yaxınlaşdım.

– Nə qədər tez gedirsən, Əli!

– Hə. Atamdan muğayat ol, bacı.

– Yaxşı; ancaq o, təkcə sənə qulaq asır, özün bilirsən.

Əlimin içi tərləmişdi. Barmaqlarım çərçivənin şüşəsi üzərində sürüşəndə bunu bildim. Əgər yarım saat tez çatsaydım, şəkli göstərib onu sevindirə bilərdim. Ancaq fürsət olmadı. Allaha şükür elədim ki, heç olmasa, getməzdən öncə qapıda da olsa, onu görə bildim.

Bizə qarşı olduqca həssas və qeyrətli davransa da, son zamanlar yavaş-yavaş ondan şübhələnirdim. Həmişə, hər an bizimlə maraqlanan, gün batmamış harada olduğumuzu soruşan Əli bir müddət idi dəyişmişdi. Sanki harada olduğumuzu, nə iş gördüyümüzü bilirdi. Hərdən şübhələnirdim ki, bəlkə qeyb gözləri açılıb. Kimsəsiz uşaqları şimaldan ekskursiyadan gətirəndə də belə bir şey olmuşdu. Oradan qayıdanda qızların biri xəstələndiyinə görə onu gecəyə qədər Ərdəbilin Fatimi xəstəxanasında gəzdirdim, Əlinin nömrəsi telefonumda görünəndə də çox qorxdum. Onda həyəcanla hadisəni ona izah etmək istəsəm də, qoymayıb dedi:

– Bilirəm. Ancaq demək istədim ki, özündən muğayat ol.

Onunla danışandan sonra böyük təəccüb içində beynimdəki sualları nəzərdən keçirdim: “Niyə bu günlərdə bizimlə işi yoxdur? Hardan bilirdi ki, mən bayırdayam...”

Evə zəng vurub Əlinin əlaqə saxladığını öyrənmək istədim; dedilər ki, xəbərimiz yoxdur.

Bu dəfə də məzuniyyətdə olduğu bütün müddətdə, xəstəxanadan yorğun-arğın qayıtmasına baxmayaraq, gecənin yarısına qədər telefonunun fənərini yandırıb Quran oxuyurdu. Heç kimə əziyyət verməsin deyə namazını mətbəxdə qılırdı. Mənə qəribə gəlirdi, düşünürdüm ki, məgər bu adam yorulmur?

Səhərdən axşama qədər xəstəxanada atamın müalicə və digər işləri ilə məşğul olurdu, evə gələn kimi gecənin yarısına qədər Quran oxuyur, namaz qılırdı. Səhərlər bəzən ondan qabaq oyananda üzünə tamaşa etmək, xüsusi nura boyanmış üzünə toxunmaq istəyirdim.

Əvvəllər bizim xahişimizlə Mehdini hirsləndirməkdən ötrü "bacım Süməyyənin oğlu" deyə ona sataşırdı, bu dəfə isə nə qədər deyirdiksə, heç nə etmirdi... Çox yorğun olsa da, hövsələsiz olmurdu. Əvvəllər yalnız birinci gün hövsələsi olurdu, sonra yenə sakit qalır, suallarımızın cavabını daha çox, başını tərpətməklə cavablandırır, özü də zarafata deyirdi: "Ərdəbilin havası mənə təsir edir. Birinci günlərdə Tehran havasında oluram, bir az keçəndən sonra Ərdəbilin havası öz işini görür və yavaş-yavaş hövsələm bitir".

Bir anlığa özümə gəlib başa düşdüm ki, Əli mənimlə sağollaşmaq istəyir. Dedim:

– Heç olmasa, gözləyərdin, axırda gedərdin, səni doyunca görərdim.

– Yox, indi imkan yarandı, – ürəkdən gülümsəyib dedi. – Gərək gedim.

Yaxınlaşdı. Mən kövrəldim, ancaq özümü ələ aldım. Qollarımı boynuna salıb onu bacardığım qədər öpdüm. Şəkil çərçivəsi yadıma düşdü. Çantamdan çıxarmadım, ürəyimdə dedim ki, inşallah, gələn dəfəyə qalsın.

Evə girəndə gördüm ki, ehtiyac olan hər şeyi alıb, həm də artıqlamasıyla. Çoxlarından əvvəl də almışdı, hələ qurtarmamışdıq. Hətta atam üçün bir qutu siqaret almışdı, halbuki hələ ehtiyac yox idi. Yenə çərçivə yadıma düşdü. Onu divara vurmaq üçün çantamdan çıxardım. İstəyirdim ki, evin ən yaxşı yerində, gözlərimizin önündə olsun. Yüz dəfə yerini dəyişdirdim, axırda görünən bir yerə vurdum.

Öz-özümüzə deyirdik: "Bu dəfə onu doyunca görə bilmədik, ancaq xəstəxanada qaldı". Sonra özümüzə təskinlik verib deyirdik ki, inşallah, gələn dəfə!

Bunu gedəndən sonra bir neçə dəfə telefonda özünə də dedik.

İyunun 5-i bacım Süheylanın doğum günü idi. Əli, adətən, gecə vaxtı, saat 12-dən sonra doğum günümüzü təbrik edirdi. Zəng vurub Süheyla ilə danışandan sonra bir kart nömrəsi verib demişdi ki, ona pul köçürək.

Süheyla Əlinin zəng vurub onu təbrik etdiyini söyləyəndə anam tez gileylənməyə başladı:

– Mənə niyə zəng vurmayıb?

– Çünki mənim doğum günüm idi, ana! – Süheyla cavab verdi.[1]

---

[1] Bacısı Solmazın söylədiklərindən

# 9

# Sən yalnız dua elə

İyun ayının axırlarında tanımadığım bir nömrədən mənə zəng gəldi. Cavab verdim. Əli idi. Bilirdim ki, bir-iki gündür Suriyaya gedib. Hal-əhval tutandan sonra vəziyyətini soruşdum, razılığını bildirdi. Dedim:

– İrəli getməyəsən ha, Əli... Diqqətli ol!

– Narahat olma, geridə qalıb çay süzürəm.

Güldüm.

– İŞİD kimdir ki, bizi baş kəsməklə qorxuda?! – dedi. – Üstəlik, etiqad və inanclarından ötrü adamın başı kəsilsə də olar.

– İnşallah, yaxşı olar. Tez qayıt, uşaqlardan birinin toyu olacaq.

– O vaxta Allah kərimdir.

Ərdəbilin vəziyyətini, ab-havasını soruşdu. Söhbətimiz uzandı. Bir də baxıb gördüm ki, yeddi dəqiqədir danışırıq. Dedim:

– Əli, sən mənimlə nə qədər danışdın, başqa biri ilə danışmayacaqdın?

– Danış, Səid, daha səsimi də eşitməyəcəksən!

– Yenə başladın? – deyə zarafata keçməyə çalışdım. – Tez qayıt, toyumuz var.

– Düzünü deyirəm; istər inan, istər inanma.

Yenə ürəyimdə elə bir alov yandırdı ki, sönməsi çətin idi. Allahdan onun üçün salamatlıqdan başqa bir şey istəmədim. Siması çox məsum olsa da, qəlbinə zərrə qədər qorxunu da yaxın buraxmırdı, təkfirçilərin nə işgəncələrindən, nə də son güllələrindən çəkinirdi. Mən də bundan qorxurdum. Uşaqlarla birlikdə telefonumda İŞİD-in cinayətləri barədə filmlərə baxanda bəziləri dözmür, üzlərini çevirirdilər. O isə asanlıqla hamısına baxır, mənim belə səhnələrə baxmaq barədə israrımı görüb zarafata deyirdi: "Ay səni! Sən də istəyirsən ha, amma demirsən!"

Deyirdim: "Yox... sadəcə, axırının necə olacağını bilmək istəyirəm.

Hər ikimiz gülüşməyə başlayırdıq. Sonra daha da ciddiləşib deyirdi: "Mən də hər yerdə İŞİD-çi gəzirəm!"

Birdən ciddi tonla dedi:

– Mürtəza, mənim üçün dua elə. Bilmirəm nə günah etmişəmsə, şəhid olmuram.

– Nə danışırsan, Əli?

– Sən yalnız dua elə.

Mübahisə etdik. Dedi:

– Dua etməsən, daha sənə zəng etməyəcəyəm.

Ürəkdən deyirdi. Onu indiyədək belə ciddi görməmişdim. Həmişə sözünü zarafata deməyə çalışsa da, bu dəfə çox ciddi idi. Dedim:

– Yəni sən daha qayıtmaq istəmirsən?

– İnşallah... inşallah... – deyib güldü.

Söhbətimizdən bir neçə gün ötdü. Mən narahat idim. Telefon nömrəsi də yox idi ki, ona zəng vurum. Öz telefonu sönmüşdü. İyun ayının altısı idi, mübarək

ramazan ayından on bir gün keçirdi. Sahəni suvarmaqda atamla qardaşıma kömək etdiyim yerdə telefonuma zəng gəldi. Yenə tanımadığım nömrə idi. Tez beli qardaşıma verib dedim:

– Bunu al, Əlidir.

– Əli, salam, - dedim.

– Salam, Mürtəza.

Səsi eşidib təəccübləndim. Əli deyildi. Narahat oldum. Həkim kimi Suriyaya getmiş dostum Mürtəzanın səsi idi. Tez dedim:

– Əli necədir? Çoxdandır ondan xəbərim yoxdur.

– Yaxşıdır.

– Deyəsən, məndən küsüb.

– Nə üçün?

– Demişdi ki, şəhid olması üçün dua edim, mənim də ürəyim gəlmədi.

Mürtəzanın səsi yavaşca qulaqlarımda dolaşdı:

– Döyüşə gedib.

– Ona de ki, Mürtəza deyir şəhid olmaq üçün dua edəcəyəm, mənə zəng vur, – tez dedim.

Hiss etdim ki, Mürtəza bir anlığa kövrəldi. Yenə dedim:

– Mürtəza, Əlidən mənə yaxşı xəbər gətir.

– Fikrin hardadır? Sən heç məni soruşmursan, ancaq Əlini soruşursan.

– İndi səninlə danışıram, bilirəm ki, sağ-salamatsan, Allaha şükür, nəfəsin gəlir. Məni başa düş, bir müddətdir ondan xəbərim yoxdur, narahatam, qorxuram ki, mənə zəng vurmaz.

Anası yadıma düşdü. Hər gün dükanımıza anamın yanına gəlir, Əlinin haraya getdiyini bilmədən ağlayır, ondan xəbər öyrənmək istəyirdi. Bunların hamısı bir anlığa beynimdən keçdi. Dedim:

– Anası nigarandır. Ona de ki, anan hər gün bizə gəlib ağlayır. De ki, heç olmasa ona zəng vursun, narahatlığına son qoysun.
– Yaxşı, deyərəm, amma... – sakit səslə dedi:
– Amma nə, Mürtəza?
– Bir söz deyim, heç kimə demə.
Yenə Əli yadıma düşdü, narahat olub dedim:
– Əliyə nə olub?
– Əli yaralanıb.
Bərkdən və hirslə dedim:
– Sən nə danışırsan?! İndi hardadır? Bəs necə olacaq?
Dinmirdi, mənsə dayanmadan danışırdım. Yenə dedi:
– Sənə bir söz də demək istəyirəm, amma gərək söz verəsən ki, heç bir yerdə deməyəsən.
Səs tonundan bildim ki, yaxşı xəbər deyil. Dedim:
– Tez de. Arxayın ol, heç kimə demərəm.
– Atəş əmri veriləndən sonra Əli çox irəli gedibmiş.
– Aha!
– İsfahanlı döyüşçü Cavad Məhəmmədi ilə birlikdə olub.
– Aha!
– Böyrünə bir neçə güllə dəyib, – qısa fasilədən sonra dedi.
Hava təmiz idi, günəş yerə od ələyirdi. Kürəyimdəki tər damcılarının necə axdığını aydın hiss edirdim. Lakin səbəbi havanın istiliyi deyildi. Sanki Əlinin yaralanması xəbəri kifayət deyildi, hələ davam edirdi və bu, məni yavaş-yavaş məhv edirdi. Bütün bədən üzvlərim titrəyirdi. Çətinliklə udqunub dedim:
– Hə!
– Əli daha bizimlə deyil, Mürtəza, şəhid olub!

Bir anın içində sanki günəş bütün işığını gözlərimdən əsirgədi və mən yerə oturdum. Nə bir şey eşidir, nə bir şey görürdüm. Birdən çiyinlərim titrəməyə başladı, gözlərimdən yaş axdı. Soruşdum:

– Bəs cəsədi hanı? Nə vaxt gəlir?

– İŞİD-in əlinə keçib!

Eşitmək istəmədiyim yeganə söz idi. Abbas Abdullahi yadıma düşdü. Şərqi Azərbaycandan olan hərəm şəhidinin cəsədi onların əlinə keçmişdi, vermək üçün milyardlarla pul istəmişdilər, ailəsi isə verməmişdi. Telefon əlaqəsini kəsib ikiəlli başıma vurdum. Əziz dostumu və iş yoldaşımı itirdiyimə görə edə biləcəyim yeganə hərəkət buydu.[1]

***

Bazar ertəsi günü, 7 iyunda gecə yarısı yuxudan oyandım, yatağımda nə qədər vurnuxdumsa, yata bilmədim. Gözlərimi Əlinin şəklinə zilləyib ağlayırdım. Bir anlığa özümə gəlib düşündüm: "Mən niyə belə edirəm? Allah eləməmiş, Əlinin başına bir işmi gəlib?"

Həyətə çıxıb bir qədər gəzişdim, qayıdıb yatağıma girdim, amma yenə yata bilmədim. Sübh çağı qalxıb telefonumu götürdüm, telefonun ekranında öz şəklimi görəndə Əli yadıma düşdü. Onun üçün darıxmışdım. Öz-özümə dedim: "Hamı telefonunun ekranına öz əzizinin şəklini qoyur. Bizim də Əlidən başqa bir əzizimiz varmı?! Bəs niyə öz şəklimi qoymuşam?!"

"Adət etmişik, insan dünyadan köçəndən sonra bizə əziz olur. Biz heç vaxt əlimizdə olanların qədrini bilmirik, – deyə yenə öz-özümə düşündüm. – Əli bizim əzizimizdirsə, hələ bizim aramızdadırsa və onu bu qədər seviriksə, niyə şəklini telefonumuza qoymuruq?!"

---

[1] Dostu və iş yoldaşı Mürtəzanın söylədiklərindən

Öz şəklimi əsas ekrandan silib onun yerinə Əlinin şəklini qoydum və bayıra çıxdım. Çox darıxdığımdan yolda ona zəng vurdum. Telefonu sönmüşdü. Demişdi ki, nə vaxt telefonum sönmüş olsa, narahat olmayın. Düşündüm ki, yəqin, olduğu yerin tələblərinə görə telefonunu söndürməli olub. Bu, Əlinin işinin gərəyi idi və bizim üçün çox da qəribə deyildi.

Digər tərəfdən, bir ay olardı ki, öz telefonu ilə əlaqə saxlamırdı. Tehran kodlu başqa bir nömrədən zəng edilir və səsi təxirlə gəlirdi. Bir dəfə dedim:

– Əli, deyəsən, uzaqdan zəng vurursan, səsin gecikərək gəlir.

– Sən gözlə, mənim sözüm bitsin, iki-üç saniyədən sonra danış. Yoxsa səsin səsimə qarışacaq və nə dediyini bilməyəcəyəm.

– Bəs niyə belədir?

– Daha üsuli-din soruşma, yalnız bir az gözlə.

Sözünün üstünə söz deməyə, ya da onu çox sıxışdırmağa adət etməmişdik. Həmişə belə idi. Danışmaq istəmədiyini görəndə israr etməzdim. Həmin gün telefonumun əsas ekran şəklini dəyişdirib Süməyyəgilə getdim. Orada İŞİD-in parlamentə hücumunu eşidib narahat oldum. Dedim:

– Görəsən, Əli indi hardadır, Süməyyə?

– Elə mən də onun üçün zəng vurdum, telefonu sönmüşdü. Yəqin, bu hadisə ilə bağlı başları qarışıqdır.

11 İyunda yenə Süməyyəgildə idim, telefonumu enerji doldurucuya taxmışdım. Birdən mənə bir mesaj gəldi. Dostum idi. Salamdan sonrakı mətnini oxuyanda şok oldum. O yazmışdı: "Başsağlığı verməyə dilim gəlmir. Qardaşının şəhid olduğunu eşidəndə çox narahat oldum. Allah rəhmət eləsin!"

Sanki başıma qaynar su tökdülər. Qardaşım Əli ilə bağlı başsağlığı mesajı idi. Parlamentə İŞİD-in hücumu yadıma düşdü. Ancaq o vaxta qədər parlament terrorunun qurbanlarının adlarını dəfələrlə oxumuşdum; Əlinin adı yox idi. Bir anlığa özümdən şübhələndim: "Bəlkə də, görməmişəm!"

Bacıma bir söz demədim. Yeganə ümidim bu idi ki, onu başqa bir Əli ilə səhv salıblar. Siyahını bir neçə dəfə yoxlamışdım, amma Əli adı yox idi; hətta ona oxşar ad da yox idi. Yenə telefonumu götürüb parlament şəhidlərinin adlarını oxumağa başladım. Heç bir oxşar ada rast gəlmədim. Yaralıların siyahısına da baxdım. Bu adda heç bir adam yox idi.

– Telefonunda internet var? – Süməyyədən soruşdum.

– Hə.

Parlament terrorunda şəhid olanların siyahısına baxmısan?

– Nə olub ki? – deyə soruşdu, daxilimdəki alovu duyub-duymadığını bilmədim.

– Heç nə, elə-belə bax.

Düşündüm ki, bəlkə mənim telefonum bütün məlumatları çıxarmır. Süməyyə telefonunun internetini açdı, gəzdik, amma bir şey tapmadıq. Səsimi də çıxarmadım. Bu an kürəkənimiz mənə zəng vurdu. Ona cavab verməyə hövsələm yox idi. Bacım oğlu Mehdiyə dedim ki, sən cavab ver. Mehdi danışıb qurtarandan sonra dedi:

– Atam dedi ki, Solmaz xalaya de, bizdə qalsın, gəlirəm, onunla işim var.

Hələ də fikrim dostumun göndərdiyi mesajda qalmışdı. Telefonu götürüb yazdım ki, bu nə mesajdır, göndərmisən. O da məsələdən xəbərdar olmadığımı bilib söhbəti

yayındırmağa çalışdı. Tez-tez yazırdı: "Səhv görmüşəm, üzr istəyirəm".

Ancaq ürəyimdəki alov sönərdimi?! Kiçik xəbər deyildi. Söhbət yeganə qardaşımız Əlinin şəhid olmasından gedirdi. Çox israr etdim ki, haradasa xəbər və ya mesaj görübsə, mənə göndərsin. Amma boynuna alıb göndərmədi.

Bir neçə dəqiqə keçməmiş kürəkənimiz həyəcanla evə girdi, telefonunu mətbəx mebelinin üstünə atıb ağlaya-ağlaya dedi: "Qardaşınız şəhid olub!"

Bunu deyəndən sonra otağa girib qapını bağladı. Tez qaçıb telefonunu götürdüm. Əlinin gülərək çəkdirdiyi şəklinin üstünə belə bir söz yazmışdılar: "Dostum, şəhadətin mübarək!"

Bir neçə günlük nigaranlığıma və dostumun göndərdiyi mesaja baxmayaraq, kürəkənimizin xəbəri və telefonundakı dəlil məni qane etmədi. Əllərim əsirdi. Telefonu onun yanına aparıb dedim:

– Sən elə bu şəklə görə Əlinin şəhid olduğunu deyirsən?

– Yox, hamı deyir, hətta korpus da.

Süməyyə ilə uşaqlar dəli kimi ağlayır, mən də böyük iztirab və kədər içində onları sakitləşdirməyə çalışırdım. Əmin olmaq istəyirdim ki, Əli daha yoxdur, amma hansı dəlil-sübutla? Kim demişdi? Biri dostumun göndərdiyi mesaj idi, indi isə yanlış olduğunu bildirirdi; biri də üzərinə şəhadət təbriki yazılmış şəkil. Dedim ki, gərək əmin olum.

"Əgər bu asanlığa ağlayıb özümü buraxsam, daha yığıb-yığışdıra bilmərəm, hər şey alt-üst olar", – deyə öz-özümə düşündüm.

Özümü ələ almalı idim. Ağlamayım deyə əzələlərimi o qədər sıxırdım ki, yanan qəlbimin hər an sinəmdən bayıra çıxacağını hiss edirdim.

Süməyyə Əlinin paltarlarını sinəsinə sıxıb ağı deyir, gözlərinin yaşını tökürdü. Qızı İlahə də onunla ağlayırdı. Mənsə nə edəcəyimi bilmirdim. Parlament şəhidlərinin adlarını yenidən yoxlamağa gücüm qalmamışdı. Oruc idik, Süməyyənin boğazına bir damcı su da tökə bilmirdik ki, sakitləşsin. Bir dostuma zəng vurdum, qısa məlumatdan sonra dedim: "Əllərim əsir, özümü ələ ala bilmirəm. Mümkünsə, parlament şəhidlərinin adlarına bax, gör Əlinin adı var, yoxsa yox. Ya da Əlinin adını internetdə axtarışa yaz, gör nə çıxır".

Ürəyim sakitləşmədi. Başqa bir iş yoldaşıma zəng vurub ona da eyni işi tapşırdım. Beynimə bir şey gəlmirdi. Bilmirdim ki, aramızdan getdiyi söylənən canımızın parçasını düşünüm, yoxsa bacımın və uşaqlarının ağlamasını, ya da heç nədən xəbəri olmadan cümə namazına getmiş anamı.

Həyəcanlı idim. Qorxurdum ki, kürəkənimiz kimi birisi peyda olub hələ dəqiqləşməmiş bu xəbəri anama söyləyər. Bilirdim ki, bunu eşitməklə anamın əldən getməsi bir olar. Əlimdən gələn yeganə iş dostlarımdan və iş yoldaşlarımdan təkidlə xahiş etmək idi ki, parlament şəhidlərinin adlarını yoxlasınlar.

Cümə günü idi, heç bir yerə gedə bilmirdim. Korpusda işləyən ağa Şəmsə nə qədər zəng vururdumsa, cavab vermirdi. Dözə bilməyib başsağlığı mesajı göndərmiş dostumun nömrəsini tapdım, onu düzünü söyləməyə qane etdim. İsrarımı görəndən sonra dedi:

– Qonşumuz korpusda işləyir, sosial şəbəkə hesabında paylaşıb.

Nömrəsini alıb ona zəng vurdum. Cavab verdi. Özümü təqdim edib dedim:

– Bu xəbər doğrudur, yoxsa yox?

– Məlum deyil. Suriyada döyüş olub, ehtimal var doğru, ya da ümumiyyətlə, şayiə olsun. Heç nə məlum deyil. Sosial şəbəkələrə çox da inanmayın.

– Siz Allah, bir xəbər öyrənib bizə də deyin. Axı Əli Suriyaya getməmişdi.

– Kim deyir ki, getməyib? Əli bir aydır Suriyadadır.

Onun sözündən sonra əmin oldum ki, Əli Suriyadadır. Suriya şəhidlərinin adlarını öyrənməkdən ötrü internetdə axtarış verdim. Bu zaman əmilərimin yoldaşları bacımgilə gəldilər. Şok oldum. Onlar Əli üçün ağı deyib ağlayırdılar.

– Lay-lay, cavan Əli, lay-lay...

– Toysuz bala... Əli, lay-lay...

Sözləri bədənimin bütün tüklərini ürpədirdi. Onlar mənim cavan və nakam qardaşıma oxşama deyirdilər. Ürəyim alovlandı, gözlərim istiləşdi. İxtiyarsız olaraq gözlərimdən yaş axıb üzümə diyirləndi. Ancaq hələ əmin deyildim. Arzu edirdim ki, kaş bu xəbər şayiə olaydı. Bu ümidlə tez özümü ələ alıb dedim: "Niyə ağlayırsınız? Niyə belə sözlər deyirsiniz? Hələ heç nə məlum deyil!"

Əlinin zənglərinə baxmağa başladım. İyunun 3-də mənim telefonuma zəng vurmuşdu. Yadımdadır ki, bir qədər danışandan sonra telefonu atama vermişdim. İlk dəfə atamdan onun üçün dua etməsini istəmişdi. Atam demişdi: "Sən dindarsan, Əli, gərək sən bizimçün dua edəsən. Bizim duamız hara çatar ki?!"

Bütün hadisələr bir film kimi gözlərim önündən keçirdi. Süheylanın ad günü və bir neçə gün qabaq onunla danışması. İyunun 5-də, yəni mənimlə danışmasından iki gün sonra ad gününə görə onunla danışmışdı. Bilirdim ki,

Süheyla indi dərzi dükanındadır; anam cümə namazından sonra onun yanına gedəcək, hər cümə olduğu kimi Əlinin zəngini gözləyəcək, həmişəki kimi orada onunla danışacaq, ağlayacaq və Əlinin sağ olduğuna arxayın şəkildə evə qayıdacaq. Bilmirdim ki, bu cümə də anamla əlaqə saxlayacaq, yoxsa yox. Zəng vurdum, hələ məsələni tam danışmamış Süheyla dedi:

– O gün mənimlə danışdı, amma səsindən yorğun olduğu bilinirdi.

"Yəni bu bir neçə gün içində başına bir iş gəlib? Qeyri-mümkündür!" – deyə öz-özümə düşündüm. Nə illah etdimsə, özümü başına bir iş gəldiyinə inandıra bilmədim. Soruşdum:

- Bilmədin hardan zəng vurmuşdu?

- Yox. Amma səsi uzaqdan gəlirdi, - dedi, şübhəli suallar verdiyimi duyub təəccüblə soruşdu: - Nəsə olub?

Anamın orada olmadığına əmin olandan sonra sosial şəbəkələrdə Əlinin şəhadəti barədə xəbər yayıldığını söylədim. Təkidlə tapşırdım ki, anama fikir versin və o, hələlik heç nə bilməsin. Dedim ki, deyəsən, küçəmiz adamla doludur; hamı gözləyir ki, xəbər yayılsın, bizə başsağlığına gəlsinlər.

Bunu əmim arvadlarının bu qısa müddətdə qopardıqları şivəndən bildim. Onlar hətta bizə getmək istəyirdilər, mən qoymadım.

Süməyyə hələ də ağlayırdı. Ona dedim: “Mən evə gedirəm. Qorxuram ki, biri gedib anama xəbər verər, aləm bir-birinə dəyər!”

Getmək istəyəndə Süməyyə dedi:

– Evdə qala bilmərəm; mən də gəlirəm!

Qorxdum ki, özünü ələ ala bilməz, anam da xəbəri öyrənib sarsılar. Arxayın olmaqdan ötrü dedim: "Əgər

gəlirsənsə, gərək ağlamayasan. Hələ sosial şəbəkələrdən başqa heç bir xəbər yoxdur. Əgər doğru olsa da, Əli arzusuna çatıb!"

Söz verdi ki, ağlamayacaq. Əl-üzünü yuyub hazırlaşdı. Əmidostular da gəlmək istəyirdilər, qoymadım. Kürəkənimizə də tapşırdım ki, internetdəki şəkil barədə bir söz deməsin. Qorxdum ki, anam bilər və hələ doğru-yalan olduğu bilinməyən bir xəbərə görə özünü həlak edər.

Yolda möhkəm və ümidverici sözlərimlə Süməyyəni və uşaqlarını bacardığım qədər anamla üzləşməyə hazırladım. Süməyyə dedi: "Əgər özümü ələ ala bilməsəm, deyin ki, yoldaşı ilə dalaşıb".

Yolda kürəkənimizə zəng vurub soruşduq ki, korpusa gedib, yoxsa yox. Dedi ki, sizin evdəyəm. Ürəyimi həyəcan bürüdü. Qorxdum ki, birdən gedib hər şeyi anama deyər. Ancaq bacımla dalaşdığını söyləyərək atamın yanında çox ağlamışdı. Həmin gün cümə günü idi və anam hələ də Əlinin telefon zəngini gözləyirdi.[1]

---

[1] Bacısı Solmazın söylədiklərindən

# 10

# Xəbərsizlik kabusu

Cümə günləri namazdan sonra qızımın dərzi dükanına gedirdim, Əli mənə zəng vururdu, onunla danışırdım. Həmin gün ramazan ayı olduğuna görə məsciddə çox adam vardı. İstədim ki, yanımdakılarla görüşüm, onlardan dua etmələrini xahiş edim. Başımı çevirəndə gördüm ki, yanımdakı yoxdur, çantamı da səhvən özüylə aparıb. Telefonum da çantadaydı. Özgə deyildi, qonşularımızdan idi, birlikdə, yan-yana namaza başlamışdıq.

Fikrim Əlidə qaldı. Cümə günü idi, gərək zəng vuraydı. Süheylanın dükanına getdim. Əlidən ötrü narahat idim, çoxdandır zəng vururdum, telefonu sönmüş olurdu. Demişdi ki, nə vaxt telefonum sönsə və ya şəbəkə xaricində olsa, bilin ki, düşərgədəyəm. Bu, məni bir qədər rahatlaşdırırdı. Bir müddət idi zəngimiz birtərəfli olmuşdu; yəni yalnız Əli bizimlə əlaqə saxlayırdı, xüsusən də cümə günləri.

Narahat idim ki, birdən Əli zəng vurar, mən cavab verməzəm, narahat olar. Süheylaya dedim ki, mənim nömrəmə zəng vursun, qonşuma desin ki, Əli zəng

vuranda çantamı yanlış apardığını söyləsin və bacısına zəng vurmasını bildirsin.

Süheyla mənim nömrəmə çox zəng vurdu, amma heç kim cavab vermədi. İztirabım hər an artırdı. Süheyla özümü itirdiyimi görüb dedi:

– Ana, mən eşitmişəm ki, Əli Suriyaya gedib.

Bütün bədənim ürpəşdi.

– Necə yəni Suriyaya gedib? – dedim.

– Mən də bu gün eşitmişəm.

Nə qədər pis fikir vardısa, hamısı beynimə gəldi.

– Onda uşağımın başına bir bəla gəlib ki, indiyədək zəng vurmur da. Ən azı, sənə zəng vurardı. Bilir ki, namazdan sonra həmişə sənin yanına gəlirəm, – dedim, sonra əlavə etdim: – Mütləq başına bir iş gəlib. Bəs niyə indiyə qədər kimsə deməyib ki, Əli Suriyadadır? Bunu bu gün deyərlər?

Daha dükanda qala bilmədim. Süheyla məndən də çox narahat idi. Ürəyimə nəsə ağırlıq edirdi, istəyirdim ki, onu sinəmdən qoparıb atım. Ürəyimin gözlərimin işığı olan yeganə oğlum olmadan bir an da sinəmdə döyünməsini istəmirdim. Əlinin zəng vurmaması və digər tərəfdən, Suriyaya getməsi xəbəri bütün taqətimi almışdı. Yenə dedim:

– Bir gündə bu qədər söz mümkün deyil. Mütləq nəsə baş verib!

Gecəki qərarsızlığım yadıma düşdü. Gecənin sonlarına qədər tək-tənha həyətdə oturub Əli və onun salamatlığı üçün dua etmiş, Allahdan istəmişdim ki, başına nəsə gələcəksə, mənim canımı alsın və oğlumla əvəzləsin.

"Xudaya! Gecə Əli üçün o qədər dua etdim. Özün ona rəhm elə!" – deyə öz-özümə düşündüm.

Süheylanın təklifi ilə evə qayıtdıq. Küçəyə girən kimi bütün məhəllənin küçəyə toplaşdığını gördüm. Sanki ürəyimdə nəsə qopdu. Öz-özümə dedim: "Ya Fatimeyi-Zəhra! Elə indicə oğlumun cəsədini gətirəcəklər!"

Özümdən getmək üzrəydim. Qohum-qonşu məni görən kimi dağılışdı. Evləri bizə yaxın olan iki nəfər bizi görüb evlərinə doğru yola düşdü. Dedim:

– Nə olub? Niyə bura toplaşmısınız?

Gözlərimin içinə baxmadılar. Sanki məndən qaçırdılar.

– Heç nə, Şəhla xanım, elə-belə söhbət edirdik.

– Necə yəni söhbət edirdik? Bu qədər adam?! Nə olub?

Daha sual verməyə macal vermədi, baxışını məndən gizlətdi, tez keçib getdi. Kürəkənimizin maşını qapımızın ağzındaydı. Yenə təəccübləndim. Bizim evə çox da gəlib-getməzdi. Mən bu fikirdə ikən qonşu qadınların biri də yanımdan keçdi. Soruşdum:

– Əzəm xanım, nə olub?

– Heç nə. Bunlar söhbət edirdilər, mən də yanlarındaydım.

– Axı nə danışırdınız? – getdiyi yerdə soruşdum.

– Heç nə!

Evə girdim. Bütün bədənim titrəyirdi. İçəri girən kimi kürəkənimin divanda oturduğunu gördüm.

– Əmidostu, əmimə baş çəkməyə gəldim, – dedi.

Heç nə demədim.[1]

***

Çox keçmədən ətrafdan şübhəli zənglər gəlməyə başladı.

– Əli hardadır?

---

[1] Əlinin anasının söylədiklərindən

– Bilmirik, deyəsən, Tehrana gedib. Ancaq zəng vururuq, telefonu sönüb.

– Mən də zəng vurdum, sönmüşdü. Əgər başqa nömrəsi varsa, verin, zəng vurum.

İndiyədək heç kim halını soruşmurdu, indi isə birdən-birə hamı onunla maraqlanırdı. Sanki hamı nəsə bilir, bizə demirdi. Süməyyəyə dedim: "Gərək evi səliqəyə salaq. Çünki bu xəbər doğru olsa, ev qonaqla dolacaq. İnşallah, salamat da qayıtsa, gərək qurban kəsək".

Biz işə başlayan kimi anam evə girdi, evi təmizlədiyimizi görüb şübhələndi. Heç nəyə hövsələsi yox idi, Əlinin zəngini gözləyirdi.

– Niyə uşağım bu gün mənə zəng vurmadı?

Heç nə demədik. Digər tərəfdən, telefonunu da aparmışdılar, hər yerdə onu axtarırdı. Dilxor halda Süheylaya tapşırırdı ki, tez telefonunu tapsın. Süheylanın da halı yaxşı deyildi. Gözlərimiz bir-birinə sataşan kimi bir kəlmə danışmadan çoxlu ürək sözlərimizi söyləyirdik. Hələ təsdiqlənməmiş xəbərin qəm-kədəri belimizi qırırdı, amma səsimizi çıxarmırdıq.

Anam israrından sonra Süheyla ilə birlikdə telefonunu almağa getdi. O, tez-tez Əliyə zəng vururdu, amma telefonu sönmüşdü. Həmin gün nə qədər gözlədiksə, Əlidən xəbər gəlmədi; nə zəng vurdu, nə də telefonu işlədi. Cümə günü idi, hər yer tətil idi, heç kimin əlindən bir iş gəlmirdi. Əlinin sosial şəbəkələrdə yayılmış gülərüzlü fotosu bir an da gözlərim önündən getmirdi. Axşam saat 8-də yenə Teleqram tətbiqini açıb Əlinin şəkli yayılmış xəbər kanalını tapdım. Kanalın admini ilə əlaqə saxlayıb məsələni soruşdum. Mənim israrımdan sonra şəkli ona göndərmiş nömrəni verdi. Həmin hesaba daxil oldum. Təsadüfən, xətdə idi. Yazıb macəranı soruşanda

özümü təqdim etməyimi istədi. Dedim: "Əlinin bacısıyam, amma narahat deyiləm. Yalnız xəbərin doğruluğunu bilmək istəyirəm. Ailəmiz narahatdır, çaşbaş qalıb".

Onu əmin edəndən sonra dedi: "Bunu sizin qonşularınızdan birindən eşitmişəm".

Daha çox araşdırıb dəqiq xəbər söyləmək üçün bir az möhlət istədi. Çox keçmədən ondan mesaj gəldi. Təəssüf edərək və üzr istəyərək belə yazmışdı: "Xəbər doğrudur!"

Bütün bədənim ürpəşdi. Verdiyi xəbərə görə peşman olmasın deyə ona təşəkkür edib sağollaşdım.

Hamımızın üz-gözündən qəm yağırdı. Hamımız dərdimizi içimizə atıb vücudumuzun dərinliyində ağlayırdıq. Allahımızdan idi ki, işıqlar sönsün, bir-birimizin üzünü görməyək. Bir-birimizlə bir kəlmə də danışa bilmirdik, anamızın şübhələnəcəyindən qorxurduq. Günortadan ürəyimizdə qalaqlanmış qəhər işıqlar sönəndə boşalmağa başladı. Telefonu götürüb yataqdan Süheylaya yazdım:

– Səhər açılan kimi korpusa gedəcəyəm. Əgər tez oyansan, birlikdə gedərik.

– Yaxşı, tez duraram.

Səhərə qədər heç birimiz gözlərimizi yuma bilmədik. Bunu yataqda qıvrılmağımızdan, həyətdən evə, evdən həyətə gedib-gəlməyimizdən bilmək olurdu.

Gözlərimizdən dayanmadan yaş süzülürdü. Bacılarıma təskinlik vermək və məsələni anamdan gizlətmək üçün etdiyim sərt özünənəzarətə son qoymuşdum, indi də fəvvarə vururdu. Özümü ələ ala bilmədiyimi görüb həyətə çıxdım, qaranlıqda doyunca ağladım. Həyatımızın bütün anları bir film kimi gözlərim önündən keçirdi. Həyətdəki paltar ipi gözlərimə sataşdı, onu ipdə yelləməyim, onun yıxılması, hətta bunu anama xəbər verməsi və dəcəlliyi

beynimdən keçdi. Öz-özümə dedim: "İlahi! Əli hələ uşaq idi, doxsanıncı illər idi!"

Onun tərbiyəsindən ötrü narahat olduğum günləri xatırladım. Ürəyi istəsə də, haradan gəldiyini bilmədiyimiz şaftalını yeməyə qoymamışdıq. Gələcəyindən narahat idik ki, birdən yanlış yola düşər, gələcəkdə kimsə ondan şikayət edər, kimsə ona görə özünü təhlükədə hiss edər. Minlərlə belə fikirlərdən daim narahat idik. Lakin Əli imtahanlarını uğurla verir, yaşının azlığına baxmayaraq, bizdən önə keçirdi. Onun üçün darıxırdım. Saqqalını tumarlamasından, namaz qılmasından, qünutda boynunu əyməsindən, xüsusi şəkildə dua etməsindən, gizlicə baxıb onun kimi qünut tutmaq istəməyimdən ötrü; bir şey barədə danışmaq istəyərkən xüsusi əda və qaydalarından, gülüşlərindən, bacımız Süməyyəgilin qarajında paltar dəyişməsindən, təvazökarlıqdan məhəlləyə hərbi formada gəlmək istəməməsindən, bəlkə də, bizim üçün heç vaxt əhəmiyyəti olmayan, indi onun yoxluğunda isə şirin, amma dərdli bir xatirəyə çevrilmiş digər xırda məsələlərdən ötrü.

Anamın və bacılarımın gözündən uzaq oturub doyunca ağladım, yeganə qardaşımdan xəbərsiz olduğuma görə Allahla dərdləşdim. Bilirdim ki, yuxarı qalxsam, istədiyim kimi ağlaya bilməyəcəyəm. Bir-iki saatdan sonra evə qayıtdım. Hava da işıqlanmaq bilmirdi. Hər kəs yorğanını başına çəkmişdi. Allah bilir, ürəklərində nə qədər qəm-qüssə vardı!

Səhər açılan kimi Süheyla ilə birlikdə korpusa gedib ağa Şəmsi axtarmağa başladıq. İlk dəfəydi oraya gedirdik. Ağa Şəmslə əlaqə saxladılar, nə dedisə, bizi Tələbə bəsici təşkilatına göndərdilər, dedilər ki, hərəm müdafiəçilərinin işləri barədə oradan maraqlanmaq lazımdır.

Oraya getdik. Yolda Süheyla ilə danışır, özümüzü qınayırdıq ki, niyə indiyədək onun döyüş yoldaşlarından birinin telefon nömrəsini almamışıq. Zəruri hallarda Əlini soruşmaq üçün vacib idi. O qədər heyifsiləndik ki, nə vaxt çatdığımızı bilmədik. Bir ruhanini görüb məsələni ona danışdıq. Dedi: "Onların işi korpusa aiddir, bizim fəaliyyət dairəmizdə deyil".

Zəng vurub ağa Şəmslə danışdı. Bir neçə dəfə "bəli" və "baş üstə" deyəndən sonra sağollaşıb bizə dedi: "Gərək yenə korpusa gedəsiniz. Deyəsən, sizi səhvən buraya göndəriblər".

Yenə piyada yola düşdük. Yolda Süheylaya dedim ki, nə desələr, gərək ağlamayaq; özümüzü güclü göstərməliyik ki, həqiqəti söyləsinlər. Çatanda yenə dedilər ki, ağa Şəms yoxdur.

Mən hirslənib dedim:

– Biz burda ağa Şəmsdən başqa birini tanımırıq, görünür, o da bizimlə görüşmək istəmir.

Gənc bir pasdar başıaşağı dayanmışdı, heç nə demirdi. Mən əlavə etdim:

– Problem yoxdur, ən azı, bizi elə bir yerə göndərin ki, suallarımıza cavab ala bilək.

Bizim israrımızdan sonra yenə ağa Şəmslə əlaqə saxladı və bu dəfə dedi ki, ağa Məsuminin yanına gedin.

Adını ilk dəfə idi eşidirdim. Onunla görüşüb dedim:

- Ağa Məsumi, dünəndən sosial şəbəkələrdə paylaşırlar ki, Əli şəhid olub. Ancaq biz sosial şəbəkələrə inanmırıq, həqiqəti sizdən eşitmək istəyirik.

Dinmədiyini görüb davam etdim:

- Əlinin getmək niyyətindən xəbərimiz vardı, bilirdik ki, bu niyyətdə şəhadət də var. Xahiş edirik, nə baş

veribsə, bizə deyin. Çünki bizim üçün Əlinin həm yaşaması, həm də şəhid olması fəxrdir.

- Siz sosial şəbəkələrə inanmayın, - dedi. - Ancaq biz indi heç bir xəbəri təsdiq edə bilmirik.

Bir söz demədik. Daha çox məlumat verməsini istədik. Dedi:

- Şükür Allaha, siz möhkəmsiniz, çoxları sizin kimi səbirli ola bilmirlər.

– İndi ki bizim güclü olduğumuzu özünüz də qəbul edirsiniz, xahiş edirik, nə baş veribsə, bizə deyin. Siz bizim dünəndən nələr çəkdiyimizi bilmirsiniz. Gecəni çox çətinliklə başa vurmuşuq ki, buraya gəlib Əlidən xəbər öyrənək.

– Ancaq bunu deyə bilərəm ki, Əli Suriyadadır və bizim heç bir hadisədən xəbərimiz yoxdur.

– Nə vaxt ezam olunub? Heç olmasa, deyin, nə vaxt getdiyini bilək.

Sakit qalıb bir söz demirdi. Yenə dedim:

– Axı ayın 6-da Tehrandan zəng vurub, bacımla danışıb.

– Mayın ortalarından gedib. Bizə məlumat gələn kimi sizə xəbər verəcəyik.

Yenə təkidlə bildirdi ki, sosial şəbəkələrə inanmayaq. Yarım saat danışdıq, bizi heç bir nəticəsiz yola saldı. Qayıdanda dedi ki, sizi tez-tez narahat etmək istəmirik. Buna görə telefon nömrəmizi verdik ki, Əlidən xəbər öyrənən kimi bizə söyləsinlər.

Qayıdanda Əlinin dostlarından birinin qardaşı yadıma düşdü. Ruhani idi. Onun yanına getdik. Qapını gənc bir xanım açdı. Bizi görən kimi duruxdu, əlləri əsməyə başladı. Dedi: "Telefon nömrəsini verirəm, özüylə danışın".

Zəng vurduq, amma o da bizə düz-əməlli bir söz söyləmədi.

Ondan sonra hər gün axşama qədər gözləyir, amma heç nə öyrənə bilmirdik. Gözümüz yolda qalmışdı, Əlidən dəqiq bir xəbər istəyirdik. İki gündən bir korpusa gedirdik ki, tez-tez getdiyimizi görüb əsassız bir xəbərlə başlarından etməsinlər. Nə vaxt israr edirdiksə, deyirdilər: "Bizim işimiz belədir ki, dəqiq xəbər öyrənməyincə heç kimə heç nə deyə bilmirik. Əvvəllər bir neçə nəfərin şəhid olduğunu ailəsinə söyləmişik, ilinə yaxın sağ-salamat qayıdıblar, biz də yalan xəbərlə ailəsini matəmə qərq etdiyimizə görə xəcalətli olmuşuq. Hətta bir şəhidin adını bir prospektə vermişdik, sonra özü qayıtdı. Belə hadisələr çox olub, yenə təkrarlana bilər!"

Hər gün dilxor idik, əsassız xəbərlər də eşidirdik. Böyük bacım Süməyyə deyirdi: "İnşallah, sağ-salamat qayıdar".

Nə deyəcəyimi, Allahdan nə istəməli olduğumu bilmirdim. Əlinin sözlərini, sifarişlərini xatırlayıb deyirdim: "Belə deməyin! Məgər Əli özü bizə öyrətməyib ki, Allahın məsləhətinə razı olaq?! Salamat qayıtsın yox, aqibəti xeyirli olsun deyək. Bəlkə, bu gün qayıtsa, Allah eləməmiş, sonralar yoldan çıxacaq. Yaxşı olar ki, Allahın məsləhəti nədirsə, o da olsun".

Süməyyə ağlamağa başlayıb deyirdi: "Mənim ürəyim gəlmir. Mən Əlini istəyirəm, özü də sağ-salamat; özünü, təbəssümlərini..."

Məzuniyyətə gələndə Süməyyənin oğlu Mehdini o qədər öpürdü ki, ondan ayıra bilmirdik. Bir dəfə evdə bir-birini elə qucaqlamışdılar ki, Əli deyirdi: "Tez olun, bizi elektrikdən ayırın!"

Süməyyəni qane etməyə çalışırdım, amma olmurdu. O müddətdə Əlini sağlam istədiyimi söyləməyim yadıma gəlmir. Həmişə belə deyirdim: "İlahi, məsləhətin nədirsə, o da olsun!"

Anam bir neçə həftəydi ki, oğlunun səsini eşitmirdi. O deyirdi: "Gəlsin, təkcə nəfəslərinin səsini eşidim..." Deyirdim: "Demə, ana. Elə gəlsə, bir aya, iki aya, üç aya, uzaqbaşı, bir ilə yorulacaqsan, Allahdan ölümünü istəyəcəksən".

Nə deyirdisə deyirdim: "Tapşır Allaha..."

Tərslik etdiyini görəndə dedim: "Eqoistlik edirsən, anacan. Necə ürəyin gəlir ki, Əli quru və boş nəfəslə evin küncündə qalsın və hər gün onun əzab çəkməsinə şahid olaq?!"

Bu sözlərlə anamı qane etməyə çalışırdım, amma heç cür razılaşmırdı. Sosial şəbəkələrdən və orada yayılan xəbərlərdən məlumatı yox idi. Yalnız Əlidən xəbərsiz idi və getdiyini bilib dilxor olmuşdu.

Qədr gecələri gəldi, hələ Əlidən xəbər yox idi. Başımızı gündəlik işlərlə qarışdırmağa çalışırdıq, amma sakitləşə bilmirdik. Fikrim böyük bacım Süməyyədə qalmışdı. Ona yazığım gəlirdi. Qərara gəldik ki, nəzir aşı bişirib hərəm müdafiəçilərinin salamatçılıqları və Əlinin aqibətinin xeyirli olması üçün ehsan verək. Südlü aş bişirib məhəllə uşaqlarına payladıq, onların dua etməsini istədik.

Birinci qədr gecəsində hamımız müsəllaya getdik. Hamımız dua edirdik ki, heç olmasa, Əlidən xəbər gəlsin. Gecənin yarısına qədər orada olduq. Ertəsi gün axşamüstü “Bal ayı” verilişi gedirdi. Avtobus qəzasında sərnişinlərdən sağ qalmış yeganə adamı qonaq qismində dəvət etmişdilər. Əvvəlcə onu ölü bilmiş, sonra bükdükləri sellofanda nəfəsinin buxarını görüb morqdan

çıxarmışdılar. Allaha şükür edir, Onun insanları xilas etmək qüdrətindən danışırdı. O, Allahın bu lütfünə görə bir böyrəyini hədiyyə vermişdi. Allahla əhd bağladım ki, əgər məsləhət olsa, Əli sağlam qayıtsa və bədənim imkan versə, bir böyrəyimi hədiyyə edərəm.

Həmin gecə bu fikirlə yatıb yuxuda iri cüssəli bir kişi gördüm, mənə bir qəzet verib dedi: "Bu siyahıda bütün hərəm şəhidlərinin adları yazılıb!"

Xırda şriftlə minlərlə ad yazılmışdı. Kişi dedi:

– Əgər şübhən varsa, bax: qardaşının adı bu siyahıdadırsa, bil ki, şəhid olub.

– Axı bu qədər ad arasında Əlinin adını necə tapım?

– Bu, rəsmi qəzetdir. Bu siyahıda kimin adı olsa, əmin ol ki, şəhid olub. Əlinin adı da burdadır. Əgər inanmırsansa, özün bax.

O qədər əminliklə danışdı ki, daha siyahıya baxmayıb yuxudan ayıldım. Artıq mənə sübut oldu ki, Əli şəhid olub.

18 iyunda dostu Mehdi Təqvayi ilə danışdıq. Dedi ki, Əlinin döyüş yoldaşlarından biri qayıdıb.

Sanki ürəyimdə bir işıq yandı. Maraqlanıb görüşmək istəyəndə isə dedilər ki, partlayış dalğasına düşüb, danışacaq vəziyyətdə deyil.

Hələ də iki gündən bir korpusa gedirdik; bir dəfə tək mən, bir dəfə də bacılarımdan biri ilə; bəzən anamın israrı ilə onu da aparırdım. Hər gün bir xəbər gəlirdi. Bir dəfə əsir düşdüyünü eşidəndə ürəyimiz od tutub yandı. Biz razıydıq ki, şəhid olsun, amma o vəhşilərin əlinə keçməsin. Elə alçaq adamların Əliyə bir sillə vurmasına da razı deyildik. Bir dəfə dedilər ki, əl-Nüsrə cəbhəsinə əsir düşüb, onunla işləri yoxdur, ancaq dəyişdirmək üçün saxlayıblar. Biri onun əməliyyatda yaralandığını

söyləyirdi, amma şəhid olduğunu heç kim görməmişdi. Yenə Allaha şükür edirdik. Bu müddətdə min cür yaxşı və pis xəbər eşitdik, hər dəfə də Allaha şükür etdik.

Axşamlar işim Əlinin vəziyyətinin aydınlaşması üçün iki rəkət qılıb Ərrəhman surəsini oxumaqdan ibarət olmuşdu. Allaha təvəssül edirdik ki, tezliklə bizi bir aya yaxındır davam edən və çapaladığımız xəbərsizlik kabusundan xilas etsin. Səhər açılan kimi hamı yuxusunu danışmağa başlayırdı. İlahə deyirdi: "Yuxuda gördüm ki, Əli dayı qara paltarla evə gəlib, deyir ki, mən sağam, ağlamayın".

O, ad gününü xatırlayanda iri gözləri yaşla dolurdu; xüsusən də Əlinin onu güldürüb sevindirmək üçün hər bir işə əl atdığını yadına salanda. O deyirdi: "Əli dayı hər dəfə tortun şamını özü üfürüb deyirdi: "Bağışlayın, yadımdan çıxmışdı ki, sizin ad gününüzdür!"

Süheyla yuxuda görmüşdü ki, İŞİD bir əsir tutub avtobusla apardığı yerdə iranlılar onu xilas edir, təhlükədən uzaqlaşdırırlar. Deyirdi ki, həyəcandan bütün bədənim buz kimi olmuşdu. Əli mənim narahat olduğumu görəndə gəlib üstümü örtdü, sakitləşdim. Bu yuxulardan sonra düşünürdük ki, yəqin, onu xilas ediblər və yaşayır.

İyulun 2-də səhər çağı Süheylanın dərzi dükanına getdim. Geyinib oturmuşdu. Ağlayırdı.

– Nə olub? – deyə soruşdum.

– Vatsap qrupunda yazıblar ki, Əlinin cəsədi gəlir.

– Əlinin cəsədi?! – sanki məni çox hündürdən yerə atdılar.

– Hə...

Özünü itirmişdi, sanki harasa getmək istəyirdi. Soruşdum:

– Bəs sən hara gedirsən?

– Gedirəm korpusa.

Hələ də bizə xəbər vermədiklərinə görə narahat oldum. Bir ay idi ki, ora gedib-gəlirdik. Daha anama cavab verməyə və onun yolda qalmış gözlərinə baxmağa taqətim yox idi. Əlinin yoxluğuna dözə bilmədiyinə, zərrə-zərrə əridiyinə görə ürəyim ağrıyırdı. Atamın mənalı sükutu taqətimi alır, Süməyyənin göz yaşları ürəyimi yandırırdı. İndi də Süheyla bütün gücünü itirmişdi, yalnız ağlayırdı. Çaşbaş qalmışdım, ancaq diqqətsizliyi unudacaq həddə deyil. Qəlbim sınmışdı. Bəlkə də, nəsə bilən, amma bizi xəbərsizlik kabusunda qoyan, Əlinin cansız cəsədinin gəlmə xəbərini də sosial şəbəkələrdən öyrənməyimizə səbəb olan adamlardan incimişdim. Biz bütün özgə adamlarla bir vaxtda, bəlkə də, onlardan da gec xəbər tuturduq.

Dedim:

- Gedək evimizə. Lazım olsa, özləri gəlib deyəcəklər. Bu qədər onların ardınca getmişik, hər bir dillə yalvarmışıq!

Süheyla yaşlı gözlərlə oturub mat-məəttəl mənə baxırdı. Onun bir qədər möhkəmlənməsini istəyirdim. Dedim:

– Ya sağlam qayıdır, ya da şəhid kimi. Biz hər iki hala hazır olmalı, Əlinin qonaqlarını qəbul etməyə hazırlaşmalıyıq.

– Bu xəbər yalan deyil! – titrək səslə dedi.

Telefonunu göstərdi. Doğru deyirdi. Belə yazılmışdı: "Şəhid Əli Seyfinin pak cəsədi ölkəyə gətirilir".

# 11

# Lal baxışların toxunuşu

Solmazın sözüylə qərara gəldilər ki, evə qayıtsınlar. Əvvəlcə Süməyyəgilə getdilər. O, Əlinin aqibətinin xeyirli olması üçün ehsan aşı bişirirdi. Solmazla Süheyla pərt halda evə girdilər. Hər ikisinin boğazı qurumuşdu. Süməyyə onları qəmli görüb hallarını soruşdu. Solmaz bacısının Əlinin aqibətinin xeyirli olması üçün aş bişirdiyini görüb daha da kövrəldi, baxışını Süməyyədən gizlədib başqa bir yerə dikdi. Bəlkə də, birdən-birə qarşısında ağlamaq istəmirdi. Yavaşca dedi:

– Əlinin cəsədini gətirirlər...

– Yalandır... – rəngi ağappaq olmuş və yerində quruyub qalmış Süməyyə qısa fasilədən sonra dilləndi.

Süheylanın bütün üzü göz yaşlarından islandı, əl-ayaqlarının taqəti çəkildi, bir tərəfdə oturub ağlamağa başladı. Solmazın titrək səsi evdə dolaşdı:

– Bilmirəm. Yenə sosial şəbəkələrdə paylaşıblar...

Bu dəfə hər üçü ağlamağa başladı. Solmaz Əlinin sözlərini xatırladı: "Məndən sonra çox ağlamayın,

hörmətsizlik etməyin. Çalışın rəftarınız bir şəhid ailəsinə yaraşan tərzdə olsun".

– Qardaşımız yanlış yolda getməyib, – deyə göz yaşlarını sildi, bacılarına ürək-dirək verməyə çalışdı.

Hər üçü analarına görə narahat idi. Ana iyirmi beş gün idi oğlunun səsini eşitmirdi, ondan xəbər almaq üçün özünü oda-suya vururdu. Bacılar qərara gəldilər ki, evə getsinlər. Bilirdilər ki, bugün-sabah korpusdan onlara xəbər veriləcək. Çalışdılar ki, həmin iki-üç gündə evdə qalsınlar, bir yerə getməsinlər. Yavaş-yavaş ana da inanırdı ki, gözünün işığı olan, gələcəyi üçün planlar qurduğu yeganə oğlu daha qayıtmayacaq.

İyul ayının 3-ü idi. Əlinin bacıları səhərdən gözləyirdilər. Qonaqları vardı. Hamı Əlinin qayıdış xəbərini eşidib kənddən gəlmişdi. Hələ korpusdan xəbər yox idi. Əlinin anasının xalası gəlib bacısı qızını qucaqladı, ağlamağa başladı. Ananın hönkür-hönkür ağlamaq səsi ucaldı. O qışqırırdı: "Yalan sözdi... yalan sözdi... Mənim Əlim özi gələcək..."

İnanmayaraq qışqırır, hamının ürəyinə od vururdu. Düz bir ay idi yeganə oğlunu gözləyirdi, hətta bir anlığa onun səsini eşitməkdən ötrü nəzirlər boyun almışdı. İndi isə hamı bir-bir evlərinə gəlib onu qucaqlayır, başsağlığı verirdi.

O, dəli kimi ağlayırdı. Oğlu üçün çox darıxmışdı. Yavaş-yavaş hamı gəldi və ev adamla doldu. Hələ korpus və ya Şəhid fondu kimi bir rəsmi qurumdan xəbər gəlməmişdi. Heç kim gəlib demirdi ki, oğlun var, ya yoxdur; gedib, ya getməyib; ən azı, cansız bədəni qayıdır, ya qayıtmır.

Qızlar evə girəndə birdən sınıxmış analarını görüb yerlərində dondular. Fikirləşdilər ki, bunlar haradan bilirlər və bu qədər insan nə vaxt onlara gəldi?

Əlinin atası heykəl kimi olmuş, üzünün rəngi qaçmışdı. O, öz qardaşları və onların xanımları ilə birlikdə birinci mərtəbədə oturmuşdu, nə edəcəyini bilmirdi. Fikirləşirdi ki, necə reaksiya verməlidir? Necə bir hadisə baş verməkdədir? Canının parçası barədə nə deyəcəklər?

Bu müddətdə ondan-bundan o qədər soruşmuş, oğlu haqda xəbər ardınca o qədər qaçmışdı ki, yorulmuşdu. Solmazla bacıları günortaya qədər mat-məəttəl qalıb rəsmi bir qurumun xəbərin doğru və ya yanlış olduğunu söyləməsini, onları biraylıq xəbərsizlikdən qurtarmasını gözləyirdilər. Lakin Şəhid fondundan və korpusdan xəbər yox idi.

Solmaz bu müddətdə Quranla etdiyi istixarələri xatırladı. Hamısı yaxşı gəlmişdi. Günorta saat 3-ün yarısında, bəlkə də, yüzüncü dəfə Quranı götürüb yavaşca həyətə düşdü, sakit bir yerdə Quranı sinəsinə möhkəm sıxıb nəsə pıçıldadı və onu açdı. Həmişəki kimi yenə yaxşı gəldi. Bədəninin taqəti çəkildi. "Bəlkə də, xəbər şayiədir. Çünki sabah cəsəd gələcəksə, indiyə qədər mütləq korpusdan gəlməli və bizim hazırlaşmalı olduğumuzu söyləməli idilər" – deyə öz-özünə düşündü.

On dəqiqə keçməmiş, nəhayət, korpusdan rəsmi geyimli bir neçə nəfər "ya Allah" deyə-deyə gəldi. Bu ev səhər tezdən ailənin yeganə oğlu üçün sözün əsl mənasında yasda idi. Artıq ailəyə məlum oldu ki, daha Əli yoxdur və onlar şəhadət xəbərini verməyə gəliblər. Solmaz Quranı sinəsindən ayırdı, bağlayıb yavaşca yuxarı qalxdı. Korpus əməkdaşları hələ birinci mərtəbədə idilər, görünür, bu xəbəri ən əvvəl atasına söyləmək istəyirdilər. Bir neçə

nəfərin ağlamaq səsi gəlirdi. Solmaz atasının səsini ayırd edə bilmədi. Bir neçə nəfər deyirdi ki, gərək oğlunuzla fəxr edəsiniz!

Solmazın beynində atasının reaksiyası qaranlıq qalmışdı. Bilmək istəyirdi ki, ciyərparəsinin şəhid olduğuna dair rəsmi xəbəri eşidəndə nə etdi. Düşünürdü ki, əmisi və dayıları onun yanında olduqlarına görə narahat olmağa dəyməz.

Bu fikirdə ikən bir nəfər gəlib bildirdi ki, anasına və bacılarına Əlinin şəhadət xəbərini söyləyəndə çəkiliş aparmaq istəyirlər. Qadınlar kişilərin görüşmək istədiyini eşidəndə örtüklərini səliqəyə saldılar. Bir nəfər Əlinin anasının yanında oturub övladının müsibətindən bayıra çıxmış ağ saçını örtdü.

Ana taqətsiz şəkildə oturub divara söykənmişdi. Səsi tutulmuş, dodaqları qupquru olmuşdu. Şübhəsiz ki, dodaqlarının quruluğu ciyərini yandıracaq xəbərin istiliyindən idi. Bu xəbər canının parçasının getdiyini söyləyəcəkdi. Gözlərini qonaqların ağzına dikib danışmalarını gözləyirdi. Biri yaxınlaşıb Əlinin getdiyi yola görə onu təbrik etdi, anasına səbir arzuladı. Anası taqətini itirdi, yanar qəlblə dodaqlarını açıb dedi: "Mənim Əlim getdi, amma xahiş edirəm..." Sanki sözü sürüşüb boğazına düşdü. Bütün qonaqlar onu başa düşürdülər. Oğlu canının parçası idi. Ciyərparəsinin ölüm xəbərini söyləyirdilər, bundan başqa nə reaksiya verəcəkdi ki?! Xəbəri eşidəndən sonra Süheyla ayağa qalxıb getdi, Solmaz da ardınca qalxıb:

– Hara gedirsən? – dedi.

– Əlinin məclisinə konfet almağa gedirəm; toyudur...

Süheylanın dodaqları əsdi. Kövrəldilər. Hər iki bacının gözlərindən yaş süzüldü. Allahın bu ailəyə nə qədər səbir verdiyini heç kim söyləyə bilməz.

Qonaqlar gedəndə sabah səhər saat 11-də Əlinin cəsədinin hava limanına enəcəyini söyləmişdilər. Solmaz hələ bunu fikirləşirdi. Tez telefonunu götürüb dostlarına zəng vurdu ki, bacardıqları qədər gül alıb ləçəklərini qoparsınlar və sabah Əlini qarşılamağa aparsınlar.

Anası oturmuşdu, deyəsən, nə isə zümzümə edirdi. Gecəki yuxusu yadına düşdü. Görmüşdü ki, müsəllaya şəhidləri qarşılamağa gediblər. Şəhidin kim olduğunu bilməmiş, amma hamının ağladığını görmüşdü. Yuxuda bir tanışı yaxınlaşıb onu qucaqlamış, ağlaya-ağlaya demişdi: "Bura şəhid gətiriblər!"

Sübh azanının "Allahu əkbər" səsini eşidən kimi qalxmış, yuxusunu Əlinin gəlişi kimi yozmuş, ağlamasını Əlinin gəlişindən sevinməyə saxlamışdı. Lakin yuxusunu qızı Süheylaya danışanda Süheyla ağlayıb demişdi: "Nə danışırsan, ana... Mən gördüm ki, Əlinin şəhadətinə görə ehsan veririk!"

Səhər saat 11-də bir neçə nəfər onları hava limanına qarşılamağa aparmağa gəldi. Hamısı soyuqqanlı idi. Süheyla noğul götürmüş, Solmaz bir sellofan torbanı gül ləçəkləri ilə doldurub əlində tutmuşdu. Onlar evdən çıxınca bütün məhəllə evlərinə doluşdu, ev Əlinin əzadarı ilə dolub-daşdı. Bütün dost və tanışlar gəlmişdilər.

Bacılar bir-birinə söyləyirdilər ki, orada ağlamamalıdırlar. Onlar deyirdilər: "Qardaşımız ziyarətdən qayıdır!"

Getməzdən öncə söz aldılar ki, dəfndən qabaq mütləq Əlinin cəsədini görsünlər. Hər birinin Əliyə deyəcək sözü vardı. Hava limanına çatdılar. Əlibəlaği kəndinin bütün

əhalisi – kişi və qadınlar qarşılamağa gəlmişdilər. Təyyarə enənə qədər Əlinin ailəsini bir otağa apardılar, atasından müsahibə aldılar. Atası titrək səslə deyirdi: "Əli şəhadətə layiq idi".

Təyyarə yerə oturdu. Bir anlığa səsi hamının qulağına doldu, heç kim dinmədi. Solmaz Şəhid Babayi filmini xatırladı. Üzərinə üçrəngli İran bayrağı çəkilmiş cəsədini təyyarə ilə gətirmişdilər. Boğazı qurudu. Gözlərini qırpmırdı. Əlinin şəklini sosial şəbəkələrdə görüb inanmamağa çalışdığı gün kimi möhkəm idi. Lakin bu dəfə Solmaz tək deyildi. Sanki hamı sözü bir yerə qoymuşdu ki, ağlayıb Əlini narahat etməsinlər. Əlinin tabutu hərbçilərin çiynində rəsmi şəkildə hərəkət edirdi. Nə qədər noğul və ləçək vardısa, hamısını tabutun üzərinə səpdilər. Onu görmək üçün səbirsizlənirdilər. İnsanlar cəsədi dövrəyə aldılar. Əlinin ailəsi kənara çəkilib bir tərəfdə dayandı ki, camaat şəhidi ziyarət etsin. Artıq başa düşmüşdülər ki, Əli təkcə onların deyil. Hamı onun üçün ağlayırdı: böyük və kiçiklər, adi və vəzifəli şəxslər. Əlinin ailəsi onların yalnız bir qismini tanıyırdı.

Qarşılamağa gələnlər elə rəftar edirdilər ki, sanki Əli canlarının parçasıdır. Əlinin yaxınları onların özlərindən çox narahat olduqlarını görüb təəccüblənirdilər. Bacıları isə qərara gəlmişdilər ki, Əlinin cəsədini görənə qədər gözlərindən yaş axmasın.

Ziyarətdən sonra ailəsi görmədən Əlinin tabutu insanların çiynində yola düşdü. Solmazın gözü Əlinin bir qədər aralıda dayanmış bir dostuna sataşdı, onu çağırıb dedi: "Bəs biz Əlini nə vaxt görəcəyik?"

– Əli hələ sizinlə görüşə hazır deyil. Başqa vaxt!

Bacılar şübhələnib öz-özlərinə dedilər: "Ya bizə göstərmək istəmirlər, ya tabut boşdur, ya da bundan artıq

gözlərimiz yolda qalmasın deyə bir şey gətiriblər ki, söhbəti bağlasınlar".

Onlarda yalnız ağa Şəmsin telefon nömrəsi vardı. Zəng vurub dedilər ki, Əlinin cəsədini görməyincə mərasimdə iştirak etməyəcəklər. Şəmsin cavabı isə belə oldu: "Danışmamışıq ki, siz onu görəsiniz!"

Cavab hamını şok etdi. Solmaz açıq şəkildə dedi: "Biz onun ailəsiyik... haqqımızdır! Nə olur-olsun, gərək onu görək... Necə olduğu da mühüm deyil, hətta tikə-tikə də olsa, görmək istəyirik. Çünki biz Əlini həzrət Zeynəbə qurban vermişik... Bilirik ki, cəsəd sağlam deyil. Sağlam olsaydı, şəhid də olmazdı. Ancaq bilmək istəyirik ki, tabutdakı Əlinin cəsədidir, yoxsa yox. Bu qədər!"

Bacılar israr, korpussa inkar edirdi. Axırda qərara gəldilər ki, aralarında razılaşdırandan sonra xəbər versinlər. Deyirdilər ki, gərək biz baxaq, görək sizin görməniz mümkündür, yoxsa yox.

Saat 2-də hava limanından qayıtdılar, amma Əlinin bacıları maşından enmədilər, onları Əlinin cəsədini görməyə aparmalarını umurdular. Minivanın sürücüsü tez-tez ora-bura zəng vurur, nə edəcəyini soruşurdu.

Əlinin dayısı gəldi, göz yaşlarını saxlaya bilməsə də, onları maşından endirmək istədi. Solmaz fikirləşdi ki, bizim mənəvi durumumuz dayımızdan yaxşıdır, niyə Əlini görməyək. Bunu ona da söylədi:

– Bizim vəziyyətimiz sizdən yaxşıdır. Niyə Əlini görə bilmərik?

Etiraz əlaməti olaraq yarım saata yaxın maşında oturdular. Onlar deyirdilər: "Əli necə, hansı vəziyyətdədirsə, bizə qəbuldur. Əgər bədəni Əli Əkbər kimi tikə-tikə olub bir torbaya tökülübsə, yenə görmək istəyirik".

Cavabları isə bu idi: "Niyə belə fikirləşirsiniz - Əlinin cəsədi sağlamdır!"

Bacıları isə yalnız qardaşlarını düşünür, nəyin bahasına olursa-olsun, dəfndən öncə bir dəfə də olsa, onu görmək istəyirdilər. Onlar üçün önəmli olan Əlini görmək idi, hansı vəziyyətdə olsa da. Solmaz öz-özünə düşündü: "Ya cəsədi doğrayıblar, baxası halda deyil, ya da bədəninin bir parçasını gətiriblər ki, bizi sakitləşdirsinlər".

Axırda soyuqqanlılıqla deyirdilər: "Söz veririk ki, nə ağlayacaq, nə qışqıracağıq. Tam sakit şəkildə qardaşımızı görüb qayıdacağıq".

Korpus əməkdaşı telefonda söz verdi ki, maşından ensinlər, bir saata qədər onları Əlinin yanına aparacaqlar. Çarəsiz qalıb avtomobildən endilər, ancaq gedib pilləkəndə oturdular, yuxarı qalxıb qardaşlarının məclisində iştirak etmək barədə düşünmədilər. Deyirdilər ki, onu görməyincə Əlinin şəhid olduğuna inanmayacağıq.

Qadınlar bir-bir gəlib israrla bildirirdilər ki, bu qətiyyəti hava limanında göstərmək lazım idi, indi artıq gecdir. Lakin onlar bu müddətdə o qədər darıxmışdılar ki, nə olur-olsun, qardaşlarının başına dolanacaqlarını söyləyirdilər. Xüsusən də Solmaz öz-özünə deyirdi: "Gərək mütləq Əlinin cəsədinin başına dolanım!" Bir çəfiyə şalı götürmüşdü, onu Əlinin cəsədinin ətri ilə təbərrük edib ömrünün sonuna qədər yadigar saxlamaq istəyirdi.

Korpusun söz verdiyi bir saat bitmək üzrəydi, amma hələ onları aparacaq maşın gəlməmişdi. Onların yalançı çıxdıqlarını görəndə nigaran halda evdən çıxıb qardaşlarının ardınca getmək istədilər. Hamı onların nə qədər ciddi olduqlarını görüb qarşılarını aldılar və bunu korpusa xəbər verdilər. Cavab gəldi ki, on beş dəqiqəyə maşın gələcək. Bacılar, ana, nənə və iki dayı “Fatimə

behişti" məzarlığına yola düşdü. Onları bir otağa apardılar. Dostlarının biri narahat və çaşbaş halda dedi:

– Əli şəhid olanda üzü üstə yıxılıb, bir müddət çöldə qaldığına görə gözləri və üzü bir az sıradan çıxıb...

Biri kənardan xəbərdarlıq etdi:

– Uzaqda oturacaq, yalnız baxacaqsınız...

– Əvvəldən qərarımız belə idi. Qardaşımızın cəsədini çıxaracaq deyilik... – bacıların biri cavab verdi.

Solmaz isə hələ əmin deyildi. Bilmək istəyirdi ki, tabutun içindəki, həqiqətən, Əlidir, yoxsa yox; onun bütün cəsədini gətiriblər, yoxsa kəsilmiş bir bədən üzvünü tapıblar?

Fikirləşir və illərdir İŞİD barədə eşitdiyi sözlərə, gördüyü görüntülərə görə hər şey gözləyirdi.

Bacılar məzarlığın gözləmə zalında hamının onlara göz qoyduğunu, bir-birinə bu barədə tapşırıq verdiyini eşidirdi. Zalda bir neçə ətir aparatını işə saldılar. Bir anlığa otağı sükut bürüdü. Sanki bu dəqiqə Əlinin cəsədi otağa girəcəkdi. Qapı açıldı. Ananın ürəyi sancdı.

– Canım ölsün, bala!

Bunu yavaşca dedi, bacıların qəlbində qiyamət qopdu. Dörd-beş nəfər tabutun altından tutub "Allahu əkbər" və "La ilahə illəllah" deyə-deyə içəri girdi. Sanki Solmazın ürəyinə soyuq su səpdilər, ürəyi sakitləşdi. Yalnız o deyil, hamısı sakit qalmışdı. Bu zaman Süməyyənin pıçıltısını eşitdilər:

– Bacın qurban, Əli!

Anası bu müddətdə etdiyi bütün ah-nalələrdən fərqli olaraq, sakit idi. Onlar heç yerlərindən də qalxmadılar. Sanki Əli həmişəki kimi evə girirdi; gülümsəyib saqqalını tumarlayır, anasına deyirdi: "Gözüvə qurban!"

Anası sanki yuxudan ayılıb yenə gözlərini kənardakı tabuta dikdi. İlahənin gözlərində yaş yığılıb ixtiyarsız olaraq yanaqlarına diyirlənirdi. Xalası və nənəsi kimi onun da taqəti çəkilmişdi, göz yaşlarının üzünə yol almasına icazə vermişdi. Tabutu onlardan bir neçə metr aralı qoymuşdular. Hamısı ona tamaşa edirdi. Əli onların yanında idi, bacılarının alnından öpür, gülüb deyirdi: "İndi oldunuz şəhid bacısı!"

Pasdarların biri əyilib tabutun qapağını açdı. Solmaz çətinliklə udqundu. Cəsəd kəfənə bükülmüşdü. Biri üzünü Əlinin anasına tutub dedi: "Bədəninin hansı hissəsini görmək istəyirsiniz, ana?"

Ananın qəlbində fırtına qopsa da, sakit görünürdü. Bunu onun qurumuş dodaqlarından və rəngi qaçmış üzündən bilmək olurdu. Soyuqqanlılıqla dedi: "Bacılarından soruşun. Bunlar hansı hissəni istəyirlərsə, göstərin".

O, anaydı, amma övladlarına görə öz haqqından keçirdi. Solmaz anasına baxdı və bu sözünə görə ürəyində Allaha şükür etdi. Ailənin bir müddət idi müraciət etdiyi və yanlarından əliboş qayıtdığı əksər pasdarlar oradaydılar. Solmaz tez dilləndi: "Mən üzünü görmək istəyirəm".

Qərara gəlmişdi ki, son dəfə Əlinin saqqalını görsün, üzünə və saqqalına əlini çəksin. Qardaşı üçün çox darıxmışdı. Lakin bu sözündən sonra pasdarların hamısı dilləndi:

– Yox... üzü olmaz...

Elə reaksiya verdilər ki, Solmaz tez başını aşağı saldı, bir söz demədi. Dedilər: "Ayağını olar. Ayağını sizə göstərəkmi?"

Anası Solmaza baxdı. Ona yazığı gəldi. Axı Solmaz Əlini çox sevirdi. Onun çox işlərini Solmaz görürdü. Bəlkə, ona görə ki, yaş fərqləri az idi. Ancaq verdikləri söz yadına düşdü, heç nə deyə bilmədi. Solmaz çarəsiz halda razılıq əlaməti olaraq başını yelləyib dedi: "Yaxşı".

Pasdarlar ayağının kəfənini kənara çəkdilər. Dırnaqlarının hənası göründü.

– Nənən ölsün, Əli!

Göz yaşları yavaşca gözlərindən süzüldü. Bu, Əlinin getməzdən öncə qoyduğu həna idi. Sanki hamı dondu. Sakit idilər, lal baxışları əzizlərinin ayağına dikilmişdi. Hətta gözlərini də qırpmır, böyük şövqlə qardaşlarının ayağına baxırdılar. Zahirdə sakit görünürdülər, amma qəlblərində necə fırtına qopduğunu heç kim bilmirdi. Pasdarlar onların qardaşlarını səssizcə, bütün vücudları ilə və elə uzaqdan seyr etdiklərini, cınqırlarını çıxarmadıqlarını görüb kəfəni daha çox açdılar. Ailə yenə yerindən tərpənmədi. Bəlkə də sakit qalmaq istəyirdilər ki, əbədi məzara tapşırmazdan qabaq onu bir az da görsünlər. Bir anlığa özlərini idarə edə bilməmələri bütün sakinliklərini poza və onları qardaşlarını görməkdən məhrum edə bilərdi. Qardaşlarının bütünlüklə ruhdan ibarət olan cisminə tamaşa edirdilər, özü də uzaqdan və bir ayaq qədərincə.

Solmazın ürəyi istəyirdi ki, hər an qanad çalıb kəpənək kimi qardaşının başının dövrəsinə fırlansın. Güclü susuzluqdan ayağa qalxmaq istədi, amma birdən onlara verdiyi söz yadına düşdü. Birtəhər udqunub yenə oturdu və Əlinin hənalı ayaqlarına doğru lal baxışlarına davam etdi. Sanki məsul şəxslər onların ürəyini oxudular, hələ sakit olduqlarını görüb dedilər: "Yaxınlaşın, ziyarət edin". Solmaz çəfiyəsini əlində sıxdı; hansı ki, onu bir də heç

vaxt görməyəcəyi yeganə qardaşının bədəninin ətri ilə təbərrük etmək və həmişəlik yadigar saxlamaq istəyirdi. Anası bu sözü eşidən kimi hamıdan əvvəl ayağa qalxıb dedi: "Xahiş edirəm, bir az kənara çəkilin, oğlumun başına dolanım".

Pasdarlar onların ifratçı olmadıqlarını görüb kənara çəkildilər ki, Solmaz və bacıları layla deyib başına dolansınlar. Solmaz aşiqcəsinə tabutun dövrəsinə fırlanıb şəhadəti münasibəti ilə Əlini təbrik edirdi. Sanki Əlini görmək üçün yaşadıqları bütün həyəcanlar bir anlığa yatmışdı. Pasdarların biri əyilib başın kəfənini kənara çəkdi. Hamı mat-məəttəl Əliyə tamaşa etməyə başladı. Solmazın gözlədiyinin əksinə olaraq, daha gözəl saqqaldan əsər-əlamət qalmamışdı. Ətrafda hamı ağladı, Əlinin ailəsindən başqa!

Ana qərarsız idi, bədənin hansı tərəfini öpəcəyini bilmirdi. Yavaşca əlini bütün bədənə çəkirdi, çox yavaşca. Fikirləşirdi ki, övladını çox incitməməlidir. Övladı yaralanmışdı, özü də İŞİD-çilərdən. Ürəyi sinəsində söyüd yarpağı kimi əsirdi. Güllə oğlunun böyrünü aparmışdı. Onu anasının qucağına verib dedilər: "Ezam zamanı necə qucaqlaşıb sağollaşırdınsa, elə də qucaqla!"

Anası qollarını açıb onu yavaşca qucaqladı. Solmaz hələ sakitcə şəhadəti münasibəti ilə Əlini təbrik edir, cəsədin dövrəsinə fırlanırdı. Süməyyə ağlaya-ağlaya İlahə ilə Mehdiyə deyirdi: "Əli dayınız burda deyil. O uçub gedib. Əli burda deyil..."

Əlinin cəsədini görməklə sanki biraylıq intizarın yorğunluğu bədənlərindən çıxdı, sakitləşdilər. Daha evdə də çox qərarsızlıq etmirdilər; Əlini – yeganə qardaşlarını, canlarının parçasını son dəfə görmüşdülər.

Axşam İmamzadə Saleh məqbərəsinə gedib Şəhidlərlə axşam proqramı keçirdilər. Ananı yenə tabutun yanına apardılar. Dostları Əlinin başı üstə ağlayır, sinə vururdular. O qədər əzadarı görəndə ana kövrəlib dedi: "Mən elə bilirdim ki, Əlinin qardaşı yoxdur. Əli, qalx, qardaşlarına bax, gör necə səni dövrəyə alıblar. Qalx, bax... Əli! Biz tək deyilik..."

Ertəsi gün Əli ilə vida günü idi. Yenə bir sellofan torba dolu gül ləçəyi və bir səbət noğul və konfetlə Əli ilə vidalaşmağa hazırlaşmışdılar. Anası Əlinin Süheyla ilə son telefon danışığını xatırladı. Onu ad günü münasibəti ilə təbrik etməsindən əlavə, demişdi ki, bir karta müəyyən qədər pul köçürün. Eşitmişdi ki, o pulu çərşənbə axşamı günləri heyətin əzadarlığında iftar verməyə xərcləyib, düz şəhid olduğu gün. Əli saat 8-də Həmada şəhadətə qovuşmuş, axşam saat 9-da, şam namazından sonra da Ərdəbildə dövrün imamının salamatlığı üçün iftar vermişdi.

Əlinin son mesajı dostları arasında əlbəəl oldu. Axırıncı dəfə İrandan ezam olunanda yazmışdı:

"Ürəyim bir qədər rahatlıq istəyir.
Bir az istirahət...
Ürəyim bir üçrəngli bayraq istəyir:
Yaşıl, ağ, qırmızı...
Üzərimə çəkib yazsınlar:
Hərəm müdafiəçisi!

# Şəhid Əli Seyfi Əlibəlağinin vəsiyyətnaməsi

**Bismillahir-Rəhmanir-Rəhim.**

"Kim Allahdan qorxsa, Allah ona bir çıxış yolu əta edər və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü təyin etmişdir".

***Allahın adı ilə***

Həlim Allahın adı ilə; hansı ki, ən əziz bəndəsinə helmini əta etdi, o da Aşura qurbangahında Fatimə üzüyünün qızıl qaşını təqdim edəndən sonra dedi: "Ey Rəbbimiz! Bu az (qurbanı) bizdən qəbul elə!"

Şəhidlər sərvəri həzrət Hüseyn (ə) bizə öyrətdi ki, zülmə və zalıma qarşı mübarizə aparmaq lazımdır. O, ən əziz adamlarını, İslamın ən dəyərlilərini İslama qurban verəcəyini bilə-bilə bir an da düşünmədi.

"Hər gün Aşura, hər yer Kərbəladır". Yəni biz hər gün və hər yerdə bu hərəkatı davam etdirməliyik ki, şəhidlər

ağasının qırmızı bayrağı əziz İmam Xameneinin rəhbərliyi ilə dövrün imamına çatsın. Bizim hamımız Allaha məxsusuq və qayıdışımız Ona doğrudur. Nə gözəl olar ki, qayıdışımız ixtiyari və seçim üzündən olsun, insan Allah yolunda şəhadəti, Allah üçün, İslam üçün ölməyi seçsin.

Puldan ötrü getdiyimi düşünənlərə bir cümlə demək istəyirəm. Biz pul görmədik. Axı mömin nə vaxt puldan ötrü canını qurban verər?! Bunların hamısı düşmən sözüdür. Bu sözlərlə fədakarlıq və şəhadət mədəniyyətini bizdən almaq istəyirlər. Allahın Özü şahid və bəndənin niyyətindən xəbərdardır. Bilir ki, həzrət Zəhranın (ə) razılığından başqa bir şey olmayıb və yoxdur. Halva-halva deməklə də ağız şirin olmaz. Olmaz ki, evdə oturub: "Ey dövrün imamı, zühur elə" - deyək, amma əməldə səhnəyə çıxmayaq və bədəl ödəməyək. Gərək öz qanımızı vilayətə qurban verək. Əmin olun ki, bu yolda şəhadət dövrün imamının yanında şəhadətdir. İmam Mehdi (ə) yanında şəhadət o deyil ki, imam dayansın və biz onun önündə vuruşub şəhid olaq. İmam Xameneinin rəhbərliyi altında şəhid olmaq elə İmam Mehdinin (ə) rəhbərliyi altında şəhid olmaqdır. İmam Xameneini qəbul etməyib İmam Mehdi (ə) gələndə öz canını qurban verəcəyini söyləmək yalançılıqdan başqa bir şey deyil. İmam Xameneini qəbul etməyənlər Kərbəlada olsaydılar, İmam Hüseyni (ə) də qəbul etməyəcəkdilər. Vəssalam.

İlahi, bizi şəhid elə! Şəhadət arzusunda olanların hamısını şəhid elə! Elə bilməyin ki, şəhid təkcə cismən şəhid olanlardır. Xeyr! Allah yolunda, Allah üçün nəfslə mübarizə aparanlar ölməzdən öncə şəhid olurlar. Əzizlər, çalışın ki, ölməzdən qabaq burada öldürülün. Kim mədəni, hərbi və digər cihadlarda uğur qazanmaq istəyirsə, gərək nəfslə cihad etsin. Ümumiyyətlə, bizim nəfslə cihaddan,

özümüzü islah etməkdən başqa vəzifəmiz yoxdur. Bütün bu problemlər, hadisələr və müharibələr ondan ötrüdür ki, biz cihad etməyə iradə əldə edək. Bizim vəzifəmiz özümüzü islah etməkdir. Allah bizdən harada və necə istifadə edəcəyini Özü bilir. Ehtiyatlı olaq, ifrata və təfritə yol verməyək. Demək istəmirəm ki, bütün işləri buraxıb evdə namaz qılmaqla, oruc tutmaqla məşğul olaq. Xeyr! Yəni bu "mən"i, "öz"ü ortadan götürək, Allahdan ötrü yaşayaq, hətta su içməyimiz də Allah üçün olsun. Bu yolun yalnız bir sirri var. Əgər ürəyində istər məsumun, istər fəqihin vilayəti ilə iynə ucu qədərincə problem olsa, uğur qazanmayacaqsan. Çünki yol vilayətdir. Məsum imamla problemin olmasa, amma İmam Xomeyni, sonra da İmam Xamenei ilə iynə ucu qədərincə problemin olsa, yolu qət edə bilməzsən. Əgər gündəlik həyatda, cəmiyyətdə vilayətin hökmü sənin maraqlarınla ziddiyyət təşkil etsə, həqiqətən, axıracan qalsan, vilayətçisən; çünki problemsiz durumda çoxları vilayətçi ola bilər. Əməl səhnəsində vilayətçi olmaq lazımdır.

***Allahın adı ilə***

Salam, anacan, gözüvə qurban!

Səni çox sevirəm. Ağlama. Sevin ki, aqibətim xeyirli oldu. Bu xeyrə görə sənə borcluyam. Haqqını halal elə və məndən razı ol.

Atacan! Səni çox sevirəm. Mənim üçün dua elə. Haqqını halal et. Nə vaxtsa sözünə qulaq asmamışamsa, məndən hörmətsizlik görmüsənsə, halal et və mənim üçün dua elə.

Süməyyəcan, əziz Süheylam, canım Solmaz, haqqınızı halal edin. Bilirəm ki, sizə yaxşı qardaş olmamışam, məni bağışlayın...

***

***Allahın adı ilə***

Mövlanın əmri ilə mövla üçün bazar günü, 30.04.17 tarixində səhər saat 09:30 dəqiqədə mövlasına yük olan bu üzüqara bəndə vəsiyyətnamə yazmağa başlayır.

İnsan oturub öz həyatına qısa nəzər salanda Allahın rəhmətinə, özünün daha günahkar, üzüqara və mövla qarşısında xəcalətli olmasına vaqif olur, bilir ki, nə qədər səhv və günah etmişik, Allah və həzrət Zəhra (ə) nə qədər mehribandırlar və bizə göz qoymuşlar. Nə qədər pis olsam da, bir dəfə "qələt eləmişəm" deyən kimi məni qəbul ediblər.

Həyatım və həyata baxışım korpusa işə girəndən, Kaviyanla, sonra da hacı ağa ilə tanış olandan sonra dəyişdi.

Mən o səviyyədə deyiləm ki, vəsiyyətnaməmdə kiməsə nəsihət verəm. Özüm üzüqara bir bəndəyəm, cihad və şəhadət barədə bir söz deyə bilmərəm. Yalnız beynimə gələn sözləri söyləyirəm ki, həzrət Zəhranın (ə) razılığına səbəb olsun.

O qədər peyğəmbər və imam gəlib müsibətlərə nə üçün dözmüşlər? Özləri üçün? Özlərinin ehtiyacları vardı? Bu qədər ayə və hədislərdə deyilir ki, onlar bizdən öncə yaranmışlar, biz onların nurundan yaranmışıq. Məsumlar nə üçün gəlmişlər? Məgər bizi xiffətli həyatdan xilas edib inkişafımız olan Allaha doğru aparmaq üçün deyildi?! Həzrət Zəhra (ə) bizə görə məzlum oldu, İmam Əlinin (ə) qollarını bizə görə bağladılar, İmam Hüseyn (ə) bizə görə şəhid oldu, İmam Mehdi (ə) bizə görə neçə illərdir qeybdədir. Məqsəd budur ki, biz adam olaq və yolumuzu itirməyək. Zəhra yandı, biz yanmayaq deyə! Daha bəsdir! Nə vaxtacan günah və qəflət yolu ilə gedəcəyik?!

Hüseynin yaraları kifayət etmirmi?! Nə vaxta qədər günah və qafilliklə Hüseynə yara vuracağıq?! Ancaq, həqiqətən, adam olmaq istəyiriksə, günahdan yorulmuşuqsa, Allah yolu ilə getmək istəyiriksə, gərək, həqiqətən, kişi kimi söz verək, sözümüzün və vilayətin arxasında ölümünə dayanaq.

Mən demirəm ki, səməndər və ya pərvanə ol,
Əgər yanmaq fikrinə düşmüsənsə, mərdanə ol!

Əziz xalqımızdan istəyirəm ki, aqibətlərinin xeyirli olmasını, ilahi imtahanlardan və fitnələrdən başıuca çıxmalarını istəyirlərsə, Fəqih Rəhbər İmam Xameneinin əmrlərinə tabe olsunlar. Ya bəsirətsizlikdən, ya da iradəsizlikdən və tənbəllikdən elə bir iş görməyək ki, mövlanın zühuru gecikə. Rəhbər buyurur: “Bizim dövrümüz daha çox, İmam Əlinin (ə) dövrünə bənzəyir. Çünki tarix təkrar olur. Olmaya bir neçə əsrdən sonra tarix yazıla, deyələr ki, zühur filan dövrdə baş tutacaqdı, xalqın iradəsizliyi və bəsirətsizliyi, aparıcı təbəqənin də xəyanəti zühurun gecikməsinə səbəb oldu".

Mən üzüqara tüfeyli, inşallah, Suriyaya gedirəm. İlahi, mənə kömək elə ki, faydalı olum; zühur üçün, müqavimət cəbhəsi üçün... İlahi, məni yük olmaqdan xilas et, əsgər kimi qəbul elə! İlahi, kömək elə vilayət qarşısında üzüağ olum! İlahi, əgər mənim getməyim və qanımın tökülməsi bizi zühura bir addım yaxınlaşdıracaqsa, qanımı tök! Əgər qalmağım mövlamın zühuruna təsir edəcəksə, məni saxla! Bilmirəm, Özün bilirsən. Bu dəyərsiz canımla nəyə razısansa, onu da elə!

Ey Sahibəzzaman! Sənsiz nə həyat gözəldir, nə ölüm. Bizi bağışla, həmişə yük olmuşuq sənə və sən heç vaxt məni başından eləməmisən. Xəcalətliyəm ki, günahlarımla, qəflətlərimlə sənin gözlərindən yaş

axmasına səbəb olmuşam. Bağışla ki, söz verib arxasında durmamışam...

Əziz dostlarım!

Əgər bu həyat – təhsil, iş, ailə, uşaq məbuda çatmaq üçün pillə olmasa, ziyandayıq; dəyəri yoxdur. Əgər həyatda, cəmiyyətdə problemlər yaranırsa, çətinlik və imtahan varsa, özümüz üçün, Allaha yaxınlaşmağımız üçündür. Biz nə çəkiriksə, nəfsdəndir. Bu nəfsdən xilas olmayınca düzəlməyəcəyik. Bunun yolu da təfəkkür, təvəssül və təzimdir.

...Əziz ata və anam! Haqqınızı halal edin. Mən sizə yaxşı övlad olmadım. Məni Zəhra tərbiyəsi ilə yetişdirdiyinizə, halal çörəklə və Allahın lütfü ilə bu yola yönəltdiyinizə görə əllərinizdən öpürəm. Narahat olmayın və haqqınızı halal edin. Xeyir-dualarınıza həmişə ehtiyacım var. Sizi çox sevirəm.

Əziz bacılarım, sizi çox sevirəm. Həmişə sizə yaxşı qardaş olmağa çalışdım, amma olmadım. Əgər bilmədən hisslərinizə gülmüşəmsə, yaxud eqoistlikdən yalnız özümü bəyənmişəmsə, əgər mənə görə gizlicə ağlamısınızsa, sizə pislik etmişəmsə, sizsə heç vaxt üz vurmamısınızsa, əgər xətrinizə dəymişəmsə, bəzən sözümdən və ya danışıq tərzimdən incimisinizsə, haqqınızı halal edin... Mənim üçün dua edin.

Dəfn yerim üçün ailəm qərar versin.

# Şəhid Əli Seyfinin Suriyadakı əlyazmaları

2017-ci ildə Ərvənd çayının kənarında şəhidlərin xidmətçisi kimi fəaliyyət göstərirdik. Sina Məlikinin dostlarından biri ilə 320 mərkəzindən icazə alıb Əhvazın Hərbi Hava Qüvvələrinə getdik. Yeddiyə qədər orada qaldıq, sonra Ərdəbilə qayıtdıq. Ayın 10-da Quma gedib hacı ağa ilə görüşdüm. O buyurdu: "Qardaş Təvəkkülidən tapşırıqlarını al". Habelə buyurdu ki, rəcəb ayında İmam Rzanın (ə) ziyarəti tövsiyə olunub. Əhməd Daneşvərlə orada idik. Qərara gəldik ki, növbəti həftə Məşhədə gedək. Əhməd yuxusunu hacı ağaya danışanda hacı buyurdu: "Allahın rəhməti sənə şamil olub. Bu, zühur əlamətlərindəndir". Əhməd də dedi ki, yəqin, şəhid olacağam. Müraqibə (diqqət və ehtiyat) və mühasibə (hesablama) həddi-büluğa çatandan etibarən başlayır: Allahın və insanların haqlarını yerinə yetirmək, bağışlanmaq istəmək, əməl, tövbə, tövbə namazı, həftədə bir dəfə məzarlığa getmək, özünü sanki ölü kimi dəfnə aparmaq, vacib namazları yerinə yetirmək, hər namazdan

sonra Fərəc duasını, üç dəfə İxlas surəsini oxumaq, on dəfə "və əccil fərəcəhum" sonluğu ilə salavat deyib İmam Mehdiyə (ə) hədiyyə etmək, yeddi dəfə Qədr surəsini oxuyub şəhidlərə, ata və anaya hədiyyə etmək, on dəfə bağışlanmaq istəmək və s.

Etikafın ertəsi günü xəbər verdilər ki, atan qəzaya düşüb, xəstəxanada yatır. Ərdəbilə gedib bir həftə atamın yanında qaldım. Sonra onu xəstəxanadan çıxarıb evə apardım, özümsə Tehrana getdim. Getməzdən öncə bank hesablarını boşaldıb bəzi işlər gördüm. Sonra ezam bir həftə təxirə düşdü. Nəvidlə birlikdə Quma və imamın məqbərəsinə getdim.

Ayın 11-də düşərgədə birinci namazı qılandan sonra dedilər ki, tez hazırlaşın, saat 3-də uçuşunuz var. Hazırlaşıb mikroavtobusla Mehrabad hava limanına yola düşdük. Üç saatdan sonra çox köhnə bir təyyarəyə mindik. Ancaq təyyarənin pərləri xarab oldu, məcbur qalıb vaxtı dəyişdirdilər. Biz axşam saat 11-də Mehrabaddan uçub gecə saat 1-də Dəməşq hava limanına endik. İlk tapşırıqlarda dedilər: "Zeytun yağı, mobil telefon və digər şeylər qadağandır!"

Bizə üç otaq verdilər. On dörd nəfər idik. Gecəni orada qalıb səhər çağı həzrət Rüqəyyənin məqbərəsinə yollandıq. Çox qərib idi üçyaşlı bibinin məqbərəsi. Sonra həzrət Zeynəbin məqbərəsinə getdik. Can, ya Zeynəb! Həzrət Zeynəbdən istədim ki, qoy sənin yanında qalım, məni “mən”dən xilas elə, kömək elə bu imtahandan başıuca çıxım.

Hamı üçün dua etdim: kimi görmüşdümsə, xatırlayırdımsa və dua etməmi istəmişdisə, hamısı üçün. Günorta yeməyindən dərhal sonra maşın gəldi və saat 3-də Həmaya doğru yola düşüb axşam saat 7-də çatdıq.

Fatimiyyun briqadası, sonra Həmzə... Axşam saat 10-a qədər iclasımız və məlumatlandırma dərsimiz oldu. Axşama mərci yeyib yatdıq. Həmzə dedi ki, sabah bölünəcəyik. 02.05.16 tarixində sübh çağı oyanıb səhər yeməyini yedik, qərargaha gedib blank doldurduq. Əhmədi orada gördüm. Sonra öz yerimizə qayıtdıq.

Xoşkəlamla birlikdə Əhmədin yanına getdik. Yolu tanımadığımıza görə əvvəl itdik, sonra tapdıq. Şam namazını Fatimiyyunla qıldıq. Allaha dedim ki, mən heç nəyəm, heç nə; əlimdən tut, məni yük olmaqdan qurtar! Mən bu qədər yolu əsgər olmağa gəlmişəm, burda da yük olmağa qoyma məni! İlahi, məni əsgər elə, maneələri ortadan qaldır və məni "mən"dən al! İlahi, məni fani elə! İlahi, bu günah gecələrində məni qul elə! Xudaya, məni dövrümün imamı yanında xəcalətli eləmə! İlahi, nə vaxtacan mövlasız gəzəcəyik?! Daha bəsdir.

Yəbnəl-Həsən, bilirəm ki, pisəm. Məgər pislərin ürəyi yoxdur?! Pis də olsam, sənə məxsusam. Odur ki...

***

Suriya, Həma - 04.05.17, saat 22:30

***Onun adı ilə***

Ya Rəbb, ya Məhəmməd (s), ya Mehdi (ə), ya Əli (ə), ya Zəhra (ə), ya Həsən (ə), ya Hüseyn (ə)

Dünən bütün iş, zarafat və görüşləri ilə sona çatdı. Şam yeməyinə şaurma yedik. Uşaqlar süfrəyə çörək də qoymuşdular. Çünki o vaxtadək şaurma görməmiş və yeməmişdik. Halbuki şaurmada sendviç kimi çörək də olur. Uşaqlar gecənin yarısına qədər deyib-güldülər. Bu gün səhər qərargaha Əhmədin yanına getdik. Sonra Həmzə bizi böldü və mən Əzimi ilə Zeynəlabidin yüksəkliyinə düşdüm. Gəlib yerləşmişik. Şənbə günü Kəfra yüksəkliyinə gedəcəyik. Həmzə gəlib bir az danışdı. Bir

ziyarətgah düzəltdilər. Həzrət Səccadın (ə) ibadət etdiyi yerdir. İmam Səccad orada bir neçə gün xəstə olubmuş.

Halım yaxşı deyil. Uşaqlar elə bilirlər ki, qorxuram, ya da bölgüdən narazı qalmışam. Ancaq dərdim başqadır. Dərdim mövlasız yaşamaq, karlıq, korluq və lallıqdır. Dərdim yük olmaqdır. Dərdim budur ki, ölümə və ya, inşallah, şəhadətə bir gün yaxınlaşdım, lakin hələ də küçənin tinində ilişib qalmışam. Hələ də adam olmamışam, İlahi!

Şəhərdən atəş səsi gəlir. Biz istiqamət komandirinin otağında oturmuşuq. Hamid uşaqların biri ilə çay hazırlayıb, zarafatlaşırlar. Yəbnəl-Həsən, bir nəzər! Bir nəzər! Cümə gecəsidir. İmam Hüseyn (ə) hörmətinə, ağa... mövla... Mən sənin ardınca bu qədər yol gəlmişəm.

Daha nə edəcəyimi bilmirəm. Bütün maldan, candan, dünyadan uzaqlaşıb bura gəlmişəm. Heç narahat olma, mövlacan! Əgər mənim korluğum, karlığım, yük olmağım və ayrılığımla razısansa, mən də razıyam. Ancaq mövla, əgər bu tapşırıqda şəhid olacağamsa, şəhadətdən öncə...

***

***Şəhidlərin Rəbbinin adı ilə***

Həma, Kəfra yüksəkliyi, çadır - bazar günü, 07.05.17, saat 13:22

Allahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd və əccil fərəcəhum.

Ya Məhəmməd (s), ya Əli (ə), ya Zəhra (ə), ya Mehdi (ə)

Cümə günü Zeynəlabidin yüksəkliyinə bir neçə mərmi atdılar. İşlərimiz çox idi, şəxsi heyəti yerbəyer edirdik, yazmağa vaxt olmadı. Şənbə də oradan Kəfra yüksəkliyinə gəldik, yerbəyer olma və məlumatlanma işləri ilə məşğul olduq. Günlər, saatlar, dəqiqələr və saniyələr ötür. Hər gün

ötdükcə ölümə, ya da, inşallah, zühur üçün şəhadətə bir gün yaxınlaşırıq, amma hər gün əlimiz qabaqkından daha da boşalır, mövladan xəcalətli qalırıq.

Düzdür, candan, maldan və digər şeylərdən keçib cihad etdik, amma mən özümdən razı deyiləm, hələ də yük olduğumu, hələ də bu “mən”dən, “öz”dən, bu nəfsdən qurtula bilmədiyimi düşünürəm...

Uşaqlar elə bilirlər ki, mən türk olduğuma, burada yerlim olmadığına görə darıxıram, ya da şəhər uşağıyam və ya qorxuram. Ürək sözümü isə heç kimə deyə bilmirəm, ancaq yazıram. Qoy necə istəyirlərsə, elə də fikirləşsinlər.

Burda... bilmirəm. Mən İraq-İran müharibəsini görməmişəm, amma oxuduqlarım və eşitdiklərimlə çox fərqlidir. Adamlar, komandirlər və döyüşçülər çox fərqlidirlər. Bəlkə də, bu bir neçə gündə mən səhv edirəm. Bilmirəm. Nə isə, boş ver!

Burada adamı rahat edən yeganə şey Allah üçün çalışmaqdır. İndi uşaqlar hey soruşurlar ki, nə yazırsan, yarım sətrini oxu. Deyirlər ki, gərək deyəsən. İmkan vermirlər... Qalsın...

Məncə, Allah bu imtahan səhnəsində görmək istəyir ki, nə qədər sözümüzün üstəyik. Burada dünya da var, axirət də. Bəziləri dünyaları üçün, ad-sanları üçün çalışırlar, bəziləri də İmam Mehdi (ə) üçün, İslam dünyası üçün, zühur üçün və s. Nə isə, inşallah, yaxşı olar.

***

**Yaradanla söhbət**

Ey mövlam! Bilmirəm məndən nə qədər razısan. Sabah bazar ertəsi günüdür. Yenə qovluqlarımı sənə gətirəcəklər. Yenə bizim günah və yanlışlarımıza görə ağlayacaqsan. Ağacan, sənin ağlar gözlərinə qurban olum! Allah məni

öldürsün! Mən ancaq dünya həyatı ilə və nəfsimlə məşğulam. Bircə Fərəc duası oxuyuruq, onu da adət üzündən.

İlahi! Bizim hamımızı fani et! Bizi özümüzdən al! Bəsdir daha...

***

Zeynəlabidin yüksəkliyi - cümə axşamı, 11.05.17, saat 14:33

Allahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd və əccil fərəcəhum.

Ya Mehdi (ə), ya Əli (ə), ya Zəhra (ə)

***Allahın əmri ilə Onun üçün***

Bazar ertəsi günü Kəfra yüksəkliyində idim. Həzrət Əli Əkbərin doğum günü idi. Batalyon uşaqları ilə səngər hazırlayırdıq. Seyid Cavadla gedib səngər və çadırlara baş çəkdik. Seyid Cavad batalyon komandiri idi, məni də köməkçi götürmüşdü. Çərşənbə axşamı Hamid gəldi, Əbülfəzi istiqamət komandiri kimi öz yerinə təqdim etdi, Seyid Cavadı da batalyon komandiri qoydu. Mənə də dedi ki, Əli Əkbər batalyonuna, komandir Hacı Əhmədə köməkçi get. Dünən buradaydıq, Zeynəlabidin yüksəkliyində. Gecədən sübh namazına kimi dərələrdən yuxarı uşaqların yanına baş çəkməyə gedirik.

Təxminən gündəlik işimiz olub. Əlbəttə, bilirik ki, Allah eləməmiş, hücum olsa, biz birinci mövqe olacağıq. Çünki ehtiyat batalyonuq.

Əfqanıstanlılar çoxluq təşkil edirdilər. Lakin hərdən etiraz edirlər ki, biz postda çox qala bilmərik, lazımi əşyalarımız çatışmır.

Məsələn, çərşənbə axşamı günü gedib naryadları yazdıq. İyirmi dörd saat ərzində hərəyə beş saat naryad

düşdü. Etiraz etdilər ki, bu, zülmdür, biz iki saatdan artıq qala bilmərik. İbrahim hirslənib dedi ki, kim getmək istəmirsə, göndərin mənim yanıma. Bundan sonra sakitlik yarandı. Axşamdan gecənin yarısına qədər də komandirlərlə bu barədə iclas keçirdik. Hansı işə başlamaq istəyiriksə, deyirlər ki, bizim filan şeyimiz yoxdur, yemək azdır və s. bəhanə gətirirlər. Ancaq onların arasında elə adamlar var ki, gecənin yarısı öz uşaqları da bilmədən yavaşca gedib tualetləri təmizləyirlər. Yaxşı, fədakar komandirlər və zəhmətkeş uşaqlardır.

Hər gün ötdükcə ölümə, ya da, inşallah, şəhadətə daha da yaxınlaşırıq. Qəflətlərim çoxalıb. Ya yerimdə sayıram, ya da geriləyirəm. Məncə, əsla inkişaf etməmiş, yük olmaqdan xilas olmamışam. Bəlkə də, əsgər olmaq üçün bu yolda qanım tökülməlidir: qanı bahasına əsgərlik. Yaxşıdır, böyük məmnuniyyətlə qəbul edirəm. Təki mövla məndən razı olsun.

Bir dəyərsiz canım var, o da mövlaya qurban! Ancaq beynimi bir şey məşğul edib. Birdən ölərəm, o dünyada mövlamdan uzaq olaram. Birdən bu qəflətlər və günahlar məni Əhli-beyti və həzrət Zəhranı (ə) görməkdən məhrum edər.

Mənim mövlam!

Sənsiz nə həyat gözəldir, nə də ölüm!

***

Suriya, Həma, Zeynəlabidin yüksəkliyi - cümə 12.05.17, saat 22:56

Allahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd və əccil fərəcəhum.

Ya Əli (ə), ya Zəhra (ə), ya Mehdi (ə)

15 Şəban gününüz mübarək! Bayramınız mübarək!

Bayramdır, amma onsuz qəmliyik,

Aşiq olmuşuq, ancaq eşqimiz azdır.

Mənim mövlam, bilirəm ki, pisəm. Ancaq məgər, mənim mövlam, imamım deyilsən?! Ağa, sənin üçün çox darıxmışam. Ağa, bir nəzər! Bir nəzər!

Ey baxışı günəş mənbəyi,

Zülmətdə qalmış mənə bir saçsana!

AxşamLəvaya getdim. Bu gün oradaydım. Əfşarı gördüm. Onunla birlikdə qərargaha Əhməd Daneşvərin yanına getdik. Günorta yeməyini orada yeyib namazı qıldıq. Saçımızı qısaltdırdıq, sonra Hamidlə gedib mahşına yanacaq doldurduq və Zeynəlabidin yüksəkliyinə qayıdıb mənzərələrə tamaşa etdik.

***

Suriya, Həma, Zeynəlabidin yüksəkliyi - şənbə, 13.05.17, saat 21:13

Allahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd və əccil fərəcəhum.

Ya Əli (ə), ya Zəhra (ə), ya Mehdi (ə)

Bu gün də keçən günlər kimi keçdi, amma hələ də küçənin tinində qalmışıq və mövladan xəbər yoxdur. Əslində, məndən xəbər yoxdur. Əgər mən yaxşı adam olsaydım, mütləq mövlanı... Ağa mənə məndən min dəfə artıq müştaqdır. Lakin heyif ki, bu qəflətlər, günahlar, "mən"lər mövla ilə aramda məsafə salmışdır. Amma, ağa, bir söz deyim, tamam: Nə qədər yıxılsam da, nə qədər ayağım büdrəsə də, nə qədər nəfsimə əsir düşsəm də, axırda bu zindandan sənə doğru qaçacağam, qalxacağam. Yorğunluğun mənası yoxdur. Nə qədər ki bədəndə can var və nəfəsim gedib-gəlir, məyus olmayacağam. Axırda bu xəcalətli üzümü ayaqlarının altına sərəcəyəm. Bir gün gələcək ki, ürəkdən qışqıracağam.

Şənbə günü gecə saat 2-yə qədər oyaq oldum. Halım əsla yaxşı deyildi. Sonra yatdım. Uşaqlar məni namaza oyatdılar. Namazdan sonra yenə səhər saat 10-a qədər yatdım. Namazdan və günorta yeməyindən sonra İbrahimlə piyada çadırlara baş çəkdik. Hacı Əhməd məni aparmağa gəldi. Qayıdıb şam yedik. Uşaqların hamısı mənimlə zarafat edir, mənə gülürlər. Məsələn, bir darağım var, hər dəfə onunla saçımı darayanda gülürlər; deyirlər ki, Əli, saçını harda qırxdırmısan? Yaxud günəş əleyhinə krem vuranda ələ salıb gülürlər. Allaha şükür, döyüşçülərin gülüşünə səbəb oluram, əhvali-ruhiyyələri yüksəlir.

"Mətə" adlı bir bitki var, hamı yeyir. Deyirlər ki, səksən xüsusiyyəti var. Axşam yedim, dadsız idi. Kimi görürsən, mətə yeyir. İndi Fatimiyyunun ruhanisi gəlib bizi mətə yeməyə dəvət etdi. Hacı Əhməd bayaqdan deyir ki, sən Allah, bu axşam yazdığını oxu. İndi getdi. Mən də qalxım gedim..

***

Suriya, Həma, Kəfra yüksəkliyi - bazar günü, 14.05.17, saat 20:22

Allahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd və əccil fərəcəhum.

Ya Əli (ə), ya Zəhra (ə), ya Mehdi (ə)

...Allahın verdiyi ömürdən, mövlanın kamilliyə çatmaq üçün ixtiyarımda qoyduğu fürsətdən bir gün də azaldı. Əgər bu 24 saatda mövlanı sevindirdimsə, xoş mənim halıma! Allaha şükür! Amma əgər, Allah eləməmiş, mövlanın qəlbini qırdımsa, yaxud qəflət etdimsə və bəlkə qayıtdım deyə mövlanın gözü yolda qaldısa, mövlacan, İlahi, əl-əfv! Ağacan, öz vəziyyətimə görə çox xəcalət çəkirəm. Xəcalətliyəm, mövla! Bu dəyərsiz insan sənin

əziyyətinə səbəb olub. Nəbadə məni özbaşıma buraxasan! İlahi, mənə kömək elə, bu cəbhədən, bu imtahandan başıuca çıxım, məndən gözlədiyindən də yaxşı imtahan verim. İlahi... Mövla... Ağa... Mənə kömək edin ki, bir şey olum, bu "mən"dən xilas edin məni. Məni özümdən alıb vilayətdə yandırın. Vəssalam.

***

Suriya, Kəfra yüksəkliyi, çadır - bazar ertəsi, 15.05.17, saat 21:10

Allahummə səlli əla Muhəmmədin və ali-Muhəmməd və əccil fərəcəhum.

Ya Əli (ə), ya Zəhra (ə), ya Mehdi (ə)

Fatimiyyunun ruhanisi, bölük komandiri, İbrahim və Zülfəli ilə birlikdə oturmuşuq. Onlar döyüş və həyat xatirələrini danışırlar. Mən də rövzə dinləyə-dinləyə yazıram. Hacı Əhməd Zeynəlabidin yüksəkliyinə döyüşçülərin şam yeməyini gətirməyə gedib.

İki saatdan sonra bəndənizin imamlığı ilə namaz qıldıq. İndi də şam yeməyini gözləyirik. Partlayış səsi gəlir. Başım ağrıyır. Məncə, sinuzitim qayıdıb. Şam yeməyindən sonra Əhməd bölük komandiri ilə postlara baş çəkməyə getdi. Biz də İbrahimlə saat 1-ə qədər yatdıq, 1-dən sübh namazına qədər oyaq olduq. Namazdan sonra uşaqlar yatdılar, mən oyaq qaldım.